

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 37 (7292) / Şənbə, 23 fevral 2019-cu il


*Prezident İlham Əliyev:*

## Azərbaycan Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbədir




*Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir. Enerji resurslarının şaxələndirilməsi istehsalçı, istehlakçı və tranzit ölkələr üçün çox vacibdir...*

*Bir daha qeyd edirəm ki, Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir. Çünki o, həmçinin nəqliyyat marşrutlarını və mənbələri şaxələndirir. Azərbaycan Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbədir və təbii ki, yeni kəmərlər inşa etməklə biz enerji marşrutlarını şaxələndiririk. Yəni bu, tam şaxələndirmədir, əslində, bu, Avropanın enerji xəritəsini dəyişdirir və beləliklə, Cənub Qaz Dəhlizinin əhəmiyyəti artır.*

## Birinci vitse-prezident Mehriban Əliyeva Baronessa Emma Nikolson ilə görüşüb



⇨ Bax: səh. 2

⇧ Bax: səh. 4



Ruslan Auşev:
## İlham Əliyev nüfuzlu, öz xalqını sevən rəhbərdir

## Naxçıvanda yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib



⇨ Bax: səh. 5

⇧ Bax: səh. 6



## "SOCAR Polymer"də bir gün





⇧ Bax: səh. 10

## ADA Məktəbinin təqdimatı olub



⇧ Bax: səh. 9



## YAP Səbail rayon təşkilatının yaranmasının 26-cı ildönümü qeyd olundu

⇧ Bax: səh. 14



## Azərbaycan Slavyan Gənclərinin Birinci Forumu

⇧ Bax: səh. 12-13



## Naxçıvan: uğurlu inkişaf strategiyası yeni mərhələdə


3 Pakistan mətbuatında Xocalı faciəsi haqqında məqalələr yayılıb

17 TAP: Azərbaycan-İtaliya əlaqələrində yeni çalarlar

24 Neptun planetinin yeni Ayı kəşf edildi

# Biz enerji marşrutlarını şaxələndiririk

**“May ayında Cənub Qaz Dəhlizinin, iyunda isə TANAP-ın rəsmi açılışları baş tutdu. Bunlar “Şahdəniz” yatağının istismarı və Cənub Qaz Dəhlizinin həyata keçirilməsi baxımından mühüm hadisələr idi. Bu gün biz bu nəhəng enerji layihəsinin yekunlaşdırılmasına yaxınıq. Onun dörd elementindən üçü artıq hazırdır və istifadə olunur”. Bu fikirləri Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin beşinci toplantısındakı nitqində bildirib.**




Azərbaycanın 1994-cü ildə təməli qoyulmuş enerji strategiyasının tərkib hissəsini - Cənub Qaz Dəhlizini enerji şaxələndirilməsi kimi dəyərləndirən dövlətimizin başçısı qeyd edib ki, bu dəhliz nəqliyyat marşrutlarını və mənbələri şaxələndirir: “Azərbaycan Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbədir və təbii ki, yeni kəmərlər inşa etməklə biz enerji marşrutlarını şaxələndiririk. Yəni bu, tam şaxələndirmədir, əslində, bu, Avropanın enerji xəritəsini dəyişdirir və beləliklə, Cənub Qaz Dəhlizinin əhəmiyyəti artır”.

Prezident Cənub Qaz Dəhlizini enerji təhlükəsizliyi layihəsi kimi də xarakterizə edərək bildirib ki, enerji təhlükəsizliyi olmadan milli təhlükəsizliyin təmin edilməsi çətindir. Çünki enerji təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizliyinin ayrılmaz bir hissəsidir. O dövlətlər ki, xarici enerji mənbələrindən asılıdır, onlar əmin olmalıdırlar ki, bu marşrut dayanıqlı və uzunmüddətli olmaqla yanaşı, bir uğur hekayəsi kimi yaddaşlarda iz qoyacaq. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan neft ehtiyatlarının nəqli baxımından vacib tranzit ölkədir və bu ölkəmizin regiondakı mövqeyinə əlavə stimul verir. Respublikamızın qaz ehtiyatlarının 2,6 trilyon kubmetr təşkil etdiyini xatırladan dövlətimizin başçısı təchizat şəbəkəsini şaxələndirmək üçün daha çox potensial imkanımızın olduğunu, bununla da Cənub Qaz Dəhlizi ilə Avropaya təbii qaz nəqlinin həcminin növbəti illərdə artırıla biləcəyini də diqqətə çatdırıb.

Şübhəsiz, enerji əməkdaşlığı layihələri digər sahələrdəki əməkdaşlıqda da çox mühüm rol oynayır. Bunun nəticəsində hazırda ölkəmiz Avrasiyanın nəqliyyat mərkəzinə çevrilir. Belə ki, Bakı dəniz limanı, Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, magistral yollar, Xəzər dəniz gəmiçiliyi, hava limanları - bütün bunlar bizim neft və qaz satışından əldə etdiyimiz gəlirlər sayəsində mümkün olub. Prezident İlham Əliyevin bildirdiyi kimi, biz gəlirləri əlavə gəlir gətirəcək və ümumi işə xidmət edəcək sektorlara, o cümlədən əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəltmişik. Daha doğrusu, neftdən gələn gəlirləri iqtisadiyyatın şaxələndirilməsinə, o cümlədən qeyri-neft sektorunun inkişafına, yeni iş yerlərinin təşkilinə, yeni infrastrukturların yaradılmasına sərf etmişik: “Ancaq enerji sektoru bundan sonra da Azərbaycanın iqtisadiyyatının aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olacaq”.

Qeyd edək ki, Azərbaycanın uğurlu enerji inkişafı dünyaya özünü etibarlı ölkə, etibarlı tərəfdaş, xarici investisiyaları 100 faiz qoruyan ölkə kimi təqdim etməyə də imkan verib. Təbii ki, bu da sabitlik adası kimi tanınan ölkəmizə olan etimaddan irəli gəlib. Belə ki, indiyədək ölkəmizə yatırılmış investisiyaların ümumi həcmi 250 milyard dollara yaxındır ki, bunun da yarısı xarici investisiyalardır. Onlar da bizdən çox razıdırlar. Çünki tərəflər bir-birinin ehtiyac və narahatlıqlarını anlamağa çalışıblar. Şübhəsiz, bu etimad, həm də ölkəmizdə həyata keçiriləcək növbəti layihələrə vəsilə olacaq.

Layihənin gerçəkləşməsində beynəlxalq şirkətlərin mühüm rol oynadığını bildirən Prezident bu prosesdə SOCAR və BP arasında olan sıx strateji tərəfdaşlığı da xüsusi vurğulayıb.

**Qvami Məhəbbətoğlu,**
***“İki sahil”***

## PREZİDENT İLHAM ƏLİYEV BRUNEY SULTANINI TƏBRİK EDİB

Prezident İlham Əliyev Bruney-Darüssalamın Sultanı Hacı Həssənal Bolkiaha təbrik məktubu göndərib.

Təbrikdə deyilir: *“Əlahəzrət, ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.*

*İnanıram ki, Azərbaycan ilə Bruney-Darüssalam arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.*

*Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Bruney xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram”.*

## XIZIDA AVTOMOBİL YOLUNUN TİKİNTİSİNƏ 850 MİN MANAT AYRILIB

Prezident İlham Əliyev Xızı rayonunun Giləzi-Xızı (28 km)-Tıxlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Giləzi-Xızı (28 km)-Tıxlı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 850,0 (səkkiz yüz əlli) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılır.

Maliyyə Nazirliyi bu maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## MEHRİBAN XANIM ƏLİYEVA QARABAĞ MÜHARİBƏSİ ƏLİLİ ÜÇÜN EV TİKİLMƏSİ BARƏDƏ TAPŞIRIQ VERİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Ucar rayonu, Qaracallı kənd sakini, ağır mənzil-məişət şəraitində yaşayan ikinci qrup Qarabağ müharibəsi əlili Şöhrət Qasımov üçün fərdi ev tikilməsi barədə tapşırıq verib.

Bu barədə Trend-ə Heydər Əliyev Fondundan məlumat verilib. Qeyd edək ki, Şöhrət Qasımovun Fondun “Regional İnkişaf” İctimai Birliyinə daxil olmuş müraciəti əsasında əraziyə baxış keçirilib və tikinti ilə bağlı layihələndirmə işləri aparılıb.

Ev Heydər Əliyev Fondunun vəsaiti hesabına Şöhrət Qasımova məxsus həyətyanı sahədə inşa olunacaq. Yeni evin tikintisinin yaxın müddətdə yekunlaşması nəzərdə tutulur.

# Birinci vitse-prezident Mehriban Əliyeva Baronessa Emma Nikolson ilə görüşüb



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva fevralın 22-də Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva artıq üçüncü dəfədir Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşdüyünü bildirərək, ölkəmizlə Böyük Britaniya arasında münasibətlərin daha da inkişaf etdirilməsində Baronessa Emma Nikolsonun töhfəsini qeyd etdi.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında səhiyyə, ekologiya və mədəniyyət sahələrində əməkdaşlıq məsələləri müzakirə edildi. Birinci vitse-prezident ölkəmizdə aparılan islahatlardan, Azərbaycanda ekologiyaya dair icra edilən dövlət proqramlarından danışdı, səhiyyə sahəsinin daha da təkmilləşdirilməsi ilə bağlı təşəbbüsləri dəstəkləməyə hazır olduğunu bildirdi.

Baronessa Emma Nikolson İraqda etnik azlıqların musiqilərinin notlara köçürülməsi ilə bağlı Heydər Əliyev Fonduna müraciətini diqqətə çatdırdı.

Fondun prezidenti Mehriban Əliyeva bu müraciəti məmnuniyyətlə həyata keçirməyə hazır olduqlarını bildirdi.

## Mehriban xanım Əliyeva:

# Qadının gücü, güc mənbəyi ilk baxışdan çox sadə görünən xeyirxahlıq, sevgi və mərhəmət kimi əbədi duyğulardır



**Azərbaycanın dövlətçilik tarixində, ictimai-siyasi həyatında cəmiyyətin aparıcı qüvvəsi olan qadınlar həmişə fəal olublar. Azərbaycan qadınlarının fədakarlıq simvolu, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ölkəmizin sürətli inkişafına misilsiz töhfələrini verir.**

Təkcə ölkə daxilində deyil, beynəlxalq aləmdə belə humanist təşəbbüsləri ilə xeyirxahlıq simvolu kimi tanınan Mehriban xanım Əliyeva iki ildir ki, Birinci vitse-prezident kimi Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edir, ölkəmizin dünyada tanıdılması baxımından xeyriyyəçilik missiyasını davam etdirir. Azərbaycan qadınına məxsus səmimiyyəti, təvazökarlığı, mərhəməti şəxsiyyətində formalaşdıran, siyasi xadim Mehriban xanımın əsas diqqət yetirdiyi sahələr insanlara qayğı, yardıma möhtac olanlara dəstək, gənc nəslin təhsili, uşaqların sağlamlığı naminə çalışmaqdır. Bu istiqamətdə həyata keçirilən layihələrə maddi-mənəvi yardımını əsirgəməyən Mehriban xanım ünvanına göndərilən vətəndaş müraciətlərinə də humanizm, ədalət prinsipləri əsasında yanaşır, yardımını əsirgəmir. Bölgələrə səfərləri zamanı vətəndaşlarla görüşündə insanların istək və arzularını öyrənən, xüsusilə qaçqınların məskunlaşmış problemləri ilə maraqlanan Mehriban xanım qadınların işlə təminatını da fəaliyyətinin əsas istiqamətləri kimi diqqətdə saxlayır. “Yeniləşən Azərbaycana- yeni məktəb”, “ Hər uşağın ailəyə ehtiyacı var” layihələri çərçivəsində təhsil ocaqlarının, internatların, uşaq bağçalarının inşası və təmiri ilə yaxından maraqlanan Mehriban xanım xüsusilə azyaşlıların sağlamlığının qorunmasına gələcəyimizin etibarlı zəmanəti baxımından yanaşır, fiziki cəhətdən qüsurlu uşaqların, talassemiyalı xəstələrin müalicəsi ilə daim maraqlanır. Həyata keçirilən layihələrə maddi-mənəvi dəstəyini əsirgəməyən Mehriban xanım ünvanına gələn müraciətlərə də qayğıkeş ana, vətəndaş kimi yanaşır.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətində milli mədəniyyətimizin inkişafı naminə həyata keçirilən layihələr xüsusilə fərqlənir. Mədəniyyətimizin inkişafı, təbliği naminə maraqlı layihələr həyata keçirən Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan tədbirlər təkcə bu gün üçün deyil, gələcəyə istiqamətlənmiş misilsiz xidmət kimi dəyərləndirilir. Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması, Beynəlxalq muğam festivallarının keçirilməsi, mədəni və tarixi abidələrin bərpası, dövlət-qadın siyasətinin təkmilləşdirilməsi, beynəlxalq simpozium və konfransların təşkili ilə bağlı görülən işlər Fondun təşəbbüsü ilə reallaşan layihələrin yalnız bir hissəsidir. Əsasən xeyirxahlıq missiyasına xidmət edən layihələrin müəllifi Mehriban xanımı təsadüfən “UNESCO-nun bayraqdarı” adlandırmırlar. Özünüifadənin ən inanılmış nümunəsi olan “Musiqinin dili ilə danışmaq” ənənəsini layihələrində yaşadan Heydər Əliyev Fondunun çoxillik təcrübəsi, Azərbaycanın qeyri-maddi, mədəni irsinin qorunması istiqamətində görülən işlərin hər biri dünyəvi əhəmiyyət daşıyır. Belə bir ifadə var: “Qıfıl qorxudursa, açar dialoqdur.” “Azərbaycan özünün çoxəsrlik tarixi boyunca təkcə nəqliyyat dəhlizi kimi deyil, həm də mədəniyyətlərin dialoqunda öz sözünü deməyə qadir olan bir ölkə kimi tanınır” söyləyən Mehriban xanım vurğulayır ki, dialoqlar alimləri, siyasətçiləri, ictimai- siyasi xadimləri, mədəniyyət təmsilçilərini vahid maraq naminə birləşdirir.

Xeyirxahlığı, humanizmi təbliğ edən layihələri ilə dünyada rəğbət qazanan Mehriban xanım Əliyevanın bütün fəaliyyəti insanlara xidmət prinsiplərinə əsaslanır. Milli və tarixi adət-ənənələrimizin qorunması, təbliği istiqamətində Mehriban xanımın ən böyük xidmətlərdən olan muğamımızın, Novruz bayramının, aşıq sənətinin, xalçaçılığın, tarixi abidələrimizin UNESCO-nun qeyri-maddi irs siyasına salınması ölkəmizin dünyaya təqdimatıdır. Qitələri və sivilizasiyaları birləşdirən ölkəmizdə keçirilən “Gənclər sivilizasiyaların alyansı naminə”, “Mədəniyyətlərarası dialoqda qadınların rolunun gücləndirilməsi” adlı beynəlxalq forum və konfranslardakı çıxışında Azərbaycanın multikulturalizm və tolerantlıq təcrübəsini dünyada sülhün bərpası naminə ən humanist təcrübə adlandıran Mehriban xanımın “Biz mədəniyyətlərin və sivilizasiyaların dialoqu haqqında ayrı-ayrı dillərdə danışırıq. Burada “ayrı-ayrı dillər” dedikdə, müxtəlif xarici dilləri nəzərdə tutmuram... Biz sivilizasiyaların dialoqu və ya qarşıdurması ilə bağlı müxtəlif siyasi və elmi doktrinaları müzakirə edirik. Lakin siyasətdən uzaq, adi insanlar bir yana, çox vaxt peşəkarlar belə məsələdə biri-birini anlamaqda , müəyyən konsensusa gəlməkdə çətinlik çəkirlər” sözləri terrorlara dəstək göstərənləri, dini zəmində qarşıdurma yaradanları, siyasətə ikili standartlar baxımından yanaşanları haqqa, ədalətə, birlik və həmrəyliyə çağırışıdır.

Dövlətimizin başçısı İlham Əliyevin UNESCO-nun Ümumdünya İRS Komitəsinin 43-cü sessiyasının bu il Bakıda keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqındakı Sərəncamı bir daha bu reallığı təsdiqləyir ki, tariximizi, mədəni sərvətlərimizi qorumaq və dünya irsinin mühafizəsinə dəstək göstərmək ölkəmizin dövlət siyasətinin tərkib hissəsidir. Bu işlərdə təbii ki , təşəbbüskar Mehriban xanım Əliyevadır.

Azərbaycan qadınının simvolu olan Mehriban xanımın fəaliyyətinə verilən beynəlxalq qiymət onun xeyirxah-humanistlik, insanlıq missiyasının etirafı olmaqla, ölkəmizin iqtisadi, mədəni, elmi inkişafının təcəssümü kimi də diqqəti cəlb edir. Təltif və mükafatlar isə biri-birindən dəyərlidir: “Qızıl ürək” və Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondu”nun mükafatı, “Əsrlərin xeyriyyəçiləri” Beynəlxalq Fondunun Yaqut Xaç ordeni, UNESCO-nun “Qızıl Motsart” medalı, Fransanın “Şərəf legioneri” ordeni, “XXI əsrin böyük qadını” fəxri titulunun nominantı, Krans Montana Forumunun qızıl medalı... Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilməsi Azərbaycan qadınlarını dünyada təmsil edən birinci xanımın siyasi və ictimai fəaliyyətinin dünya birliyi tərəfindən yüksək dəyərləndirilməsinin nümunəsi, Azərbaycanın tolerantlıq təcrübəsinin təbliğidir.

Ümumbəşəri mədəniyyət abidələrinin bərpasında da iştirak edən Fondun dəstəyi ilə Strasburq Kafedral, Parisin məşhur Notrdam kilsələrində aparılan bəzi təmir-bərpa işləri bəşəri dəyərlərin yaşadılması üçün göstərilən xeyirxahlıqdır. Pakistanda qız məktəbinin inşasının, MDB ölkələrində həyata keçirilən layihələrin müəllifi də Mehriban xanımdır. Romada Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında “Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş”in imzalanma mərasimində çıxış edən Mehriban xanımın “Dünyəvi müsəlman ölkəsi olan Azərbaycan yalnız xristian aləminə aid müqəddəs yerlərin və tarixi abidələrin bərpasında iştirak etmir, eyni zamanda ümumdünya əhəmiyyətli abidələri bərpa edir” sözləri Azərbaycanın əsrlərdən bəri qoruduğu multikulturalizm və tolerantlığının dünyada təbliğinə xidmət edir.

Qəlbində dözümlülük, başqa xalqlara hörmət ruhunun əsrlər boyu formalaşdığını çıxışlarında, müsahibələrində bildirən Mehriban xanımın vurğuladığı kimi, Azərbaycan xalqı dünyanın mədəni müxtəlifliyinə də eyni hörmətlə yanaşır.

“Qadının gücü, güc mənbəyi ilk baxışdan çox sadə görünən xeyirxahlıq, sevgi və mərhəmət kimi əbədi duyğulardır. Bu gücün, bu qüvvənin qüdrətini və təsir dairəsini nəzərə almamaq mümkün deyil. Belə bir qüdrətli amilin mədəniyyətlər və sivilizasiyalararası dialoqa layiqli töhfə verməsi bizim özümüzdən asılıdır” söyləyən Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyətinin əsasını təşkil edən insanlara qayğı, diqqət, şəfqət, xeyirxahlıq ona siyasi fəaliyyətində də hörmət qazandırır, xalqın sevimlisinə çevirir.”

✍ **Xuraman İsmayılqızı, *“İki sahil”***

## HACIBABA HÜSEYNOVUN 100 İLLİK YUBİLEYİ QEYD EDİLƏCƏK

Prezident İlham Əliyev Hacıbaba Hüseynovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

2019-cu ilin mart ayında Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, tanınmış pedaqoq, respublikanın Xalq artisti Hacıbaba Hüseynəli oğlu Hüseynovun anadan olmasının 100 illiyi tamam olur.

Qədim xanəndəlik sənəti ənənələrinin layiqli davamçılarından biri kimi Hacıbaba Hüseynov muğamı və bədii sözü ahəngdar şəkildə uzlaşdırmış, yüksək ifaçılıq mədəniyyətinin parlaq nümunələrini yaratmışdır. Təsirli və məlahətli səsə malik sənətkar mahir ifaçısı olduğu rəngarəng muğamlarla yanaşı, çoxsaylı təsniflər və xalq mahnıları ilə musiqisevərlərin qəlbində silinməz iz qoymuşdur. Hacıbaba Hüseynov daim saflığını qorumağa çalışdığı muğamın tədrisi sahəsində də uzun illər səmərəli fəaliyyət göstərmiş və məşhur xanəndələrin bütöv bir nəslinin yetişdirilməsinə böyük əmək sərf etmişdir.

Sərəncamda qeyd olunur ki, Azərbaycanın musiqi mədəniyyətinin inkişafı və təbliğində təqdirəlayiq xidmətləri olan ustad sənətkar Hacıbaba Hüseynovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi Xalq artisti Hacıbaba Hüseynovun 100 illik yubileyi ilə bağlı tədbirlər planını hazırlayıb həyata keçirsin.

Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## PAKİSTAN MƏTBUATINDA XOCALI FACİƏSİ HAQQINDA MƏQALƏLƏR YAYILIB



6 INTERNATIONAL National Herald Tribune

Terrifying tragedy in Khojaly must never happen again

Massacre in Khojaly - a horror not forgotten by Azerbaijanis

Overseas Pakistanis Commission's resolve

Pakistanın “National Herald Tribune” və “Morning Mail” qəzetləri və elektron portalları “Xocalıdakı dəhşətli faciə bir daha baş verməməlidir”, “Xocalı soyqırımının qurbanlarını xatırlayarkən” sərlövhəli məqalələr yayıb.

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, məqalələrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Xocalı faciəsi haqqında məlumatlar yer alıb. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən 613 Azərbaycan vətəndaşının, o cümlədən 106 qadının, 70 ahılın və 63 uşağın xüsusi qəddarlıqla qətlə yetirildiyi bildirilir. Xocalı soyqırımının Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasətinin tərkib hissəsi olduğu vurğulanır. Şəhərin tamamilə dağıdıldığı, oradakı mədəni izlərin, o cümlədən İslam dininə aid abidələrin məhv edildiyi və təhqirə məruz qaldığı diqqətə çatdırılır.

Məqalələrdə BMT sənədlərinə istinad edilərək Xocalı qətliamının soyqırımı olduğu vurğulanır. Qurbanların məhz azərbaycanlı olduqlarına görə və heç bir fərq qoyulmadan qoca, qadın və uşaqların qətlə yetirildiyi, Xocalıdakı faciənin beynəlxalq normalar baxımından aşkar soyqırımı xarakteri daşıdığı diqqətə çatdırılır.

Həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət!” kampaniyası ilə bağlı məlumat verilir, kampaniyanın əsas məqsədinin Xocalı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq olduğu qeyd edilir. Bu günə qədər 15 ölkənin parlamentinin, o cümlədən Pakistan Senatı və Milli Assambleyasının müvafiq komitələrinin, ABŞ-ın 20-dən çox ştatının, həmçinin İslam Əməkdaşlıq Təşkilatının Xocalı qətliamını soyqırımı kimi tanıyan qətnamələr qəbul etdiyi vurğulanır.

## ATƏŞKƏS 22 DƏFƏ POZULUB

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyindən verilən məlumata görə, Ermənistan Respublikası Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# *Ruslan Auşev:* İlham Əliyev nüfuzlu, öz xalqını sevən rəhbərdir



**Fevralın 21-də Prezident İlham Əliyev Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd olunur ki, Əfqanıstanda müharibənin başa çatmasının 30 illiyi ilə əlaqədar Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması, Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin maddi-texniki bazasının gücləndirilməsi, habelə Birliyin fəaliyyətinin təkmilləşdirilməsi üçün cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinə 1 milyon manat ayrılsın.

Elə həmin gün Azərbaycan Prezidenti MDB ölkələri Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin işləri üzrə komitənin və "Döyüş Qardaşlığı" Beynəlxalq veteranlar təşkilatı Ali Şurasının üzvü, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşevi qəbul edib.

Trend-ə özəl müsahibəsində İnquşetiyanın sabiq prezidenti Ruslan Auşev Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü, Bakıya səfəri barədə təəssüratları və digər məsələlər barədə danışıb.

**Azərbaycan Prezidenti ilə görüşdən məmnunam**

Mən Azərbaycan dövlət başçısı ilə görüşdən məmnunam və Prezident İlham Əliyevə Əfqanıstanda döyüşmüş azərbaycanlıların sosial müdafiəsinin təminatına, eləcə də Azərbaycanın Əfqanıstan Veteranları İctimai Birliyinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı imzaladığı mühüm sərəncama görə minnətdarlığımı bildirirəm.

Mən İlham Əliyevi çoxdan tanıyıram, o, atası kimi nüfuzlu, öz xalqını sevən rəhbərdir. İlham Əliyev gənc, enerjili, vacib məsələləri operativ həll etmək bacarığına malik rəhbərdir.

**Ən yaxşı mükafat**

2014-cü ildə İlham Əliyev məni "Dostluq" ordeni ilə təltif edib, bu mənim üçün ən yüksək mükafatlardan biridir.

Məni bir hərbçi kimi Azərbaycan Silahlı Qüvvələrinin paradı yaxşı mənada təəccübləndirdi. Hərbi texnikadan anladığım üçün deyə bilərəm ki, bu tədbirdə gördüklərim məni heyrətləndirdi

**Bakı heyrətləndirir**

Sonuncu dəfə Bakıda beş il əvvəl olmuşam və bu müddət ərzində baş vermiş dəyişikliklər məni heyrətləndirib. Bakı, mən deyərdim ki, riyazi yox, həndəsi silsilə ilə yaxşılığa doğru dəyişir. Bu illər ərzində Azərbaycan paytaxtında böyük dəyişikliklər baş verib, bir çox vacib tədbirlər - idman, mədəniyyət tədbirləri keçirilib. Bu tədbirlərin öhdəsindən çox ölkələr gələ bilməzdi. Azərbaycan bunu etdi.

Bakıda baş verən hər şey heyrətləndirir. Mən Azərbaycanda baş verə bütün hadisələri izləməyə çalışıram, çünki bu, mənə maraqlıdır. Mən xaricdə olanda belə, kabel televiziyası vasitəsilə Azərbaycan kanallarını izləyirəm. Görürəm ki, Azərbaycan dövlətinin başçısı hər dəfə Naxçıvanda, Gəncədə və ya ölkənin digər bölgələrində sosial və ya mədəni əhəmiyyətli obyektləri ziyarət edir.

**Otuz il sonra**

Biz bu dəfə Bakıya eyni batalyonda xidmət etdiyimiz döyüş yoldaşlarımızı, Əfqanıstan müharibəsi veteranlarını görməyə gəlmişik.

Bütün bu otuz il ərzində bir-birimizlə münasibət saxlayırıq. Əlbəttə ki, Bakıda döyüş yoldaşları ilə görüş çox xoş oldu və bu imkana görə, ilk növbədə Azərbaycan Prezidentinə təşəkkürümü bildirirəm.

Gözəl və rahat şəhərdə dostluq görüşü - sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30 illik ildönümünü döyüş yoldaşları ilə birgə keçirmək üçün başqa nə lazımdır.

**Heydər Əliyevi xatırlayarkən...**

Mən İnquşetiyanın prezidenti olarkən, Bakıya tez-tez gəlirdim, mən Heydər Əliyevin inauqurasiyasında iştirak etmişəm, Qafqaz dialoqu xətti ilə buraya gəlmişəm. Bizim onunla yaxşı münasibətlərimiz var idi. Yadımdadır, çeçen müharibəsi dövründə, 1994-cü il hadisələri zamanı Azərbaycan çeçen qaçqınlarına humanitar yardım göstərirdi.

Biz o zaman Bakıya tez-tez gəlirdik, bu, həm Şimali Qafqaz ölkələri rəhbərlərinin, həm də Azərbaycan rəhbəri kimi Heydər Əliyevin qarşısında dayanan ağır məsələlərin həll edilməli olduğu dövr idi.

Qafqazda biz həmişə Azərbaycanın dəstəyini hiss etmişik.

**"Düşmənçiliyə icazə verməyəcəyik"**

Moskvada kafedə baş vermiş insident onu göstərir ki, kimsə azərbaycanlılarla çeçenlər arasında gərginliyin yaranmasında maraqlıdır.

Biz buna icazə verməyəcəyik. Çeçenlər, inquşlar, azərbaycanlılardan ibarət nüfuzlu şəxslər toplanıb vəziyyəti müzakirə etdilər, nəticələr çıxardılar. Görüşdə Azərbaycanın Rusiyadakı səfiri Poad Bülbüloğlu da iştirak edib. Biz məişət xarakterli insidentə siyasi rəng qatmağa, iki qardaş xalq arasında düşmənçilik yaratmağa icazə verməyəcəyik. Əgər kimlərsə bu məsələ ilə bağlı nə isə qazanmaq istəyirdisə, bu, onlarda alınmayacaq.

# BAHAR MURADOVA: Sərhəd zonalarında və təmas xətti boyu yaşayan insanların hüquqlarının qorunması mühüm əhəmiyyət daşıyır




Fevralın 21-də Vyanada ATƏT Parlament Assambleyasının (ATƏT PA) 18-ci qış sessiyası çərçivəsində İnsan haqları və humanitar məsələlər komitəsinin iclası keçirilib. İclasın əsas mövzusu "Fövqəladə vəziyyətlərdə insan hüquqlarının qanuni məhdudlaşdırılmasının təsir sahələri" olub.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclis sədrinin müavini Bahar Muradova çıxışında təhlükəsizlik, sabitlik və inkişafın önəmindən danışıb. Bildirib ki, 2008-ci il qəbul edilən Helsinki sənədində insan hüquqlarının qanunun aliliyi və demokratiya ilə əlaqəli olduğu və bir-birini tamamladığı göstərilib. Bəzi hallarda ziddiyyətli səbəblər üzündən insan hüquqlarının müvəqqəti məhdudlaşdırılmasına baxılır. Bunun üçün, əlbəttə ki, hüquqi baza mövcuddur. Təbii ki, yaşamaq, işgəncəyə məruz qalmama, insanların şərəf və ləyaqətinin qorunması hüquqları məhdudlaşdırıla bilməz. Lakin bu sahədə mövcud olan vəziyyət göstərir ki, bu, heç də hər zaman mümkün olmur. Təəssüflər olsun ki, fövqəladə şəraitdə insan hüquqları kimi anlayış mövcuddur.

B.Muradova xüsusilə vurğulayıb ki, sərhəd zonalarında və təmas xətti boyu yaşayan insanların hüquqlarının qorunması mühüm əhəmiyyət kəsb edir: "Qaçqın və məcburi köçkünlərin problemləri mənə çox yaxındır. Mənim ölkəmi ikiyə bölən təmas xətti seçildiyim dairənin mərkəzindən keçir".

Deputat bildirib ki, fövqəladə hallara uyğun vəziyyətdə yaşayan insanların - qadınların, uşaqların və yaşlıların həyatı ciddi təhlükə altındadır: "Biz diqqəti onların təhlükəsiz və qorxusuz həyat təminatına yöneltməliyik. Bu məhdudiyyətlər fövqəladə şəraitin tələblərinə uyğun olmalı və yalnız nadir hallarda tətbiq edilməlidir."

# Mübariz Qurbanlı Hacıqabulda vətəndaşlarla görüşəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 27-də Şirvan şəhəri, Salyan, Neftçala, Biləsuvar, Hacıqabul və Cəbrayıl rayonlarının sakinlərini qəbul edəcək.

Qəbul Hacıqabul rayon Heydər Əliyev Mərkəzində saat 11:00-da keçiriləcək.

Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

(DQİDK-nın bölgə şöbə müdiri: Sənan Xəlilov. Mob: (070) 220-00-20, telefon: (021) 215 21 30, e-mail: chairman@scwra.gov.az, info@scwra.gov.az, dk-shirvan@scwra.gov.az).

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası



Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı qaydasında növbəti açıq məhkəmə iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən bildiriblər ki, iclasda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışının hansı müddəti ehtiva etməsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda qeyd edilir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışı 24 saatlıq müddəti ehtiva edir. Həmin maddədə göstərilmiş müddətlər çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlmədiyi andan bir günün 24 saat olması nəzərə alınmaqla hesablanır.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Naxçıvanda yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib

**Muxtar respublikanın iqlim şəraiti alternativ və bərpaolunan enerjidən istifadə üçün geniş imkanlar açır. Müasir energetika infrastrukturunun yaradılması və enerji təhlükəsizliyinin təmin olunmasında bu amil əsas götürülür, günəş elektrik stansiyaları tikilərək istifadəyə verilir. Hazırda Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpaolunan enerji mənbələri hesabına ödənilir.**



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, fevralın 22-də Kəngərli rayonunun Qabıllı kəndində yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev çıxış edərək deyib ki, muxtar respublikanın elektroenergetika sektoru davamlı inkişaf mərhələsindədir. Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə də mühüm əhəmiyyətə malikdir. Kəngərli rayonu ərazisində 2 meqavat gücündə yeni Günəş Elektrik Stansiyasının qurulması bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Namiq Paşayev göstərilən qayğıya görə muxtar respublika energetikləri adından minnətdarlıq edib.



İsveçrənin "Pure Energy Development" SARL şirkətinin icraçı direktoru Mişel Kalerami çıxış edərək deyib: "Bu gün Naxçıvan Muxtar Respublikası regionda enerji sahəsində lider mövqedədir. Xüsusilə muxtar respublikada alternativ və bərpaolunan enerji mənbələrindən səmərəli istifadə olunur. Bu işdə qarşılıqlı əməkdaşlıqdan "Pure Energy Development" SARL şirkətinin kollektivi böyük məmnunluq duyur. Naxçıvan Muxtar Respublikasının qəlbimdə dərin yeri vardır. Gələcəkdə də muxtar respublika ilə əməkdaşlığı davam etdirəcəyik. Günəş Elektrik Stansiyasının qurulmasında göstərilən dəstəyə və səmərəli əməkdaşlığa görə minnətdarlıq edirik".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirilən tədbirlər Azərbaycanda elektroenergetika sahəsində qəbul olunan dövlət proqramlarının icrası və yeni elektrik stansiyalarının tikilməsi sahəsində görülən işlərin tərkib hissəsidir. Artıq muxtar respublikada enerji təhlükəsizliyi təmin edilib. Ucuz enerji istehsal edən sahələrə üstünlük verməklə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin gəlirlərini artırmaq və bu sahəni daha da müasirləşdirmək qarşıda duran əsas vəzifədir.

Qeyd olunub ki, muxtar respublikada elektrik stansiyaları qurularkən yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Çünki inkişaf edən dünyada yeni texnologiyaların tətbiqi və bu sahə üzrə mütəxəssislərin hazırlanması mühüm şərtdir. Muxtar respublikada da bu amil əsas götürülür. Ona görə də yeni texnologiyalar tətbiq olunmaqla yanaşı, həm də onları idarə edəcək mütəxəssislər hazırlanmalıdır. Bu gün muxtar respublikada üçüncü Günəş Elektrik Stansiyası istifadəyə verilir. 20 meqavatlıq birinci Günəş Elektrik Stansiyası 2015-ci ilin dekabrında ölkə Prezidentinin iştirakı ilə istifadəyə verilmişdir. 2 meqavatlıq ikinci Günəş Elektrik Stansiyasının 2017-ci ilin sentyabr ayında açılışı olmuşdur. Bu gün isə 2 meqavatlıq Kəngərli Günəş Elektrik Stansiyası istifadəyə verilir.



Ali Məclisin Sədri bu münasibətlə istifadəçiləri və kollektivi təbrik edərək deyib: Qurulan yeni Günəş Elektrik Stansiyası səmərəli istismar olunmalıdır. Stansiyada dünyada qəbul olunmuş son model müasir panellər quraşdırılıb. Şüşə tipli bu panellərin elektrik verilişi alüminium panellərə nisbətən daha yüksəkdir. Eyni zamanda bu panellər imkan verir ki, stansiya qurularkən daha az torpaq sahəsindən istifadə olunsun. 4,7 hektar ərazidə qurulmuş rentabelli Günəş Elektrik Stansiyası muxtar respublikamızın inkişafına, dayanıqlı elektrik enerjisi təminatına və yeni mütəxəssislərin hazırlanmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri Günəş Elektrik Stansiyasının qurulmasında əməyi olanlara, xüsusilə "Pure Energy Development" SARL şirkətinin icraçı direktoru Mişel Kaleramiyə və şirkətin kollektivinə təşəkkürünü bildirib.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsib.

Məlumat verilib ki, yeni Günəş Elektrik Stansiyası kənd təsərrüfatı üçün yararsız ərazidə qurulub. 2 meqavat gücündəki Günəş Elektrik Stansiyasının tikintisi Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti ilə İsveçrənin "Pure Energy Development" SARL şirkəti arasında 2018-ci ildə imzalanmış müqavilə əsasında həyata keçirilib. İl ərzində 3 milyon kilovatsaat elektrik enerjisi istehsal ediləcək stansiyada tikinti-quraşdırma işləri qısa müddətdə və yüksək keyfiyyətlə aparılıb, 7452 "şüşə-şüşə" tipli günəş panelləri, hər birinin gücü 50 kilovat olan 41 invertor, içərisində kommutasiya aparatları və digər elektrik avadanlıqları qoyulmuş 2 ədəd 35/0,4 kilovoltluq transformator yarımstansiyası quraşdırılıb və idarəetmə binası tikilib.

Stansiyada yeraltı aşağı və yüksək gərginlikli xətlər, eləcə də rabitə, müşahidə və idarəetmə sistemi üçün optik kabel xətləri çəkilib. İdarəetmə binası 35 kilovoltluq kommutasiya avadanlıqları ilə təmin edilib. Yaxınlıqda yerləşən 110/35/10 kilovoltluq "Qıvraq" yarımstansiyasına qoşulmaq üçün 2 kilometr uzunluğunda 35 kilovoltluq elektrik xətti çəkilib, ərazi çəpərlənib, siqnalizasiya və video-müşahidə qurğuları ilə təmin olunub. Quraşdırılan yeni meteoroloji stansiya ərazidə hava şəraitinə, yağıntının və rütubətin miqdarına nəzarət etməyə imkan verir. Bununla da Naxçıvan Muxtar Respublikasında Günəş elektrik stansiyalarının qoyuluş gücü 24 meqavata, illik istehsal gücü isə 36 milyon kilovat/saata çatdırılıb.



### Günəş panelləri ilə işləyən subartezian quyusu qazılıb

Kəngərli rayonunun Qabıllı kəndində günəş panelləri ilə işləyən yeni subartezian quyusu qazılıb.

Fevralın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov subartezian quyusuna baxıb.

Məlumat verilib ki, 60 metr dərinliyi olan subartezian quyusunun günlük su verimi 8,5 tondur. Su nasosunun elektrik təminatı quraşdırılan 2 günəş paneli vasitəsilə həyata keçirilir. Bu da Günəş Elektrik Stansiyasının yaxınlığında salınmış badam bağının və yaşıllıq zolağının su təminatının ödənilməsinə imkan verəcəkdir.

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov Günəş Elektrik Stansiyasının və subartezian quyusunun istifadəyə verilməsinə görə rayon ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Ali Məclisin Sədri qurulanlardan səmərəli istifadə olunması, yaşıllıqların artırılması, subartezian quyularının elektrik təminatında günəş panellərindən istifadə imkanlarının araşdırılması və tətbiqi barədə tapşırıqlar verib.

### Qıvraq qəsəbəsində yeni istirahət parkı salınır

2004-cü ildə yaradılan Kəngərli rayonu ötən 15 ildə böyük inkişaf yolu keçib. Rayon mərkəzi Qıvraq qəsəbəsində və bütün kənd yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri aparılıb. Tikilən yeni sosial obyektlər, müasir inzibati və yaşayış binaları ilə yanaşı, rayon əhalisinin asudə vaxtının mənalı təşkili də diqqətdə saxlanılır, yeni istirahət parkları salınır.

Fevralın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qıvraq qəsəbəsində tikilən yeni istirahət parkına baxıb.

Məlumat verilib ki, 3 min 500 kvadratmetr sahəni əhatə edən parkda torpaq işləri aparılıb, 1500 həmişəyaşıl ağac əkilib. Parkın su təminatı yaxınlıqda bərpa olunan kəhriz vasitəsilə həyata keçiriləcəkdir.

Ali Məclisin Sədri parkda sakinlərin istirahəti üçün lazımi şəraitin yaradılması barədə müvafiq tapşırıqlar verib.

### Kəngərli rayonunun Yurdçu kəndində qapalı suvarma şəbəkəsi qurulur

Muxtar respublikada meliorasiya və irriqasiya tədbirlərinin əhatə dairəsinin genişlənməsi torpaqlardan səmərəli istifadəyə imkan verir. Son illər qurulan qapalı suvarma şəbəkələri yeni torpaq sahələrini əkin dövriyyəsinə qatıb. Hazırda Kəngərli rayonunun Yurdçu kəndi ərazisində qapalı suvarma şəbəkəsi qurulur.

Fevralın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qapalı suvarma şəbəkəsinin tikintisi ilə maraqlanıb.

Bildirilib ki, qapalı suvarma şəbəkəsi 56 hektar ərazini əhatə edir. Ərazidə min metrlik ana xəttin tikintisi başa çatdırılıb. Burada uzunluğu 5200 metr olan paylayıcı suvarma şəbəkəsi çəkiləcək və 56 hidrant qoyulacaqdır. Arpaçay sol sahil kanalından qidalanan "Qıvraq-1" nasos stansiyası vasitəsilə su ərazidəki hovuza vurulacaq və öz axımı ilə şəbəkəyə paylanacaqdır.

Ali Məclisin Sədri yaxınlıqdakı 40 hektardan artıq ərazinin də layihələndirilməsi və qapalı suvarma şəbəkəsinin qurulması barədə tapşırıqlar verib.

# “SOCAR Polymer”də bir gün

**“SOCAR Polymer” şirkəti Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək məqsədi ilə 2013-cü ildə təsis edilib. 2015-ci il oktyabrın 25-də Prezident İlham Əliyevin iştirakı ilə yeni texnologiyalara əsaslanan “SOCAR Polymer” zavodlarının təməli qoyulub.**



“SOCAR Polymer” layihəsi çərçivəsində inşa olunan Polipropilen zavodunun açılışı 2018-ci il iyulun 18-də olub. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Prezidenti Sercio Mattarella da iştirak ediblər. Polipropilen zavodundan ixrac edilmiş ilk məhsul ötən ilin oktyabr ayında Türkiyəyə yola salınıb.

Xatırladaq ki, ölkə Prezidenti İlham Əliyev bu il fevralın 18-də Sumqayıt Kimya Sənaye Parkında “SOCAR Polymer” layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodunun açılışında iştirak edib.






Yüksəksıxlıqlı polietilen zavodunun istehsalat prosesi ilə yaxından tanış olmaq məqsədilə bir sıra kütləvi informasiya vasitələrinin nümayəndələri üçün həmin müəssisəyə media-tur təşkil olundu.

Zavodun istismara verilməsi indiyə qədər ölkəyə idxal edilən yüksəksıxlıqlı polietilen məhsuluna tələbatı tam ödəməyə imkan yaradacaq. Qeyd edək ki, şirkətin istehsalat obyektləri polipropilen (PP) və yüksək sıxlıqlı polietilen (YSPE) istehsal edəcək qurğulardan ibarətdir. İlkin proqnozlara görə, “SOCAR Polymer” zavodları ildə 10 çeşiddə 184 min ton polipropilen və 4 çeşiddə 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. Zavodların istismar dövründə 6.6 milyard dollar həcmində gəlir gətirəcəyi gözlənilir ki, bunun da 30 faizini şirkətin xalis mənfəəti təşkil edəcək. Bundan əlavə, istismar müddətində “SOCAR Polymer” tərəfindən dövlət büdcəsinə ümumilikdə 600 milyon dollar həcmində verginin ödənilməsi nəzərdə tutulur. SOCAR-ın yeni sənaye kompleksinin fəaliyyətə başlaması ilə daxili bazarın tələbatı tam təmin olunacaq və məhsulun 75 faizi isə Türkiyə, Rusiya, Ukrayna və digər Avropa ölkələrinin bazarlarına ixrac ediləcək.









Jurnalistləri “SOCAR Polymer” MMC-nin baş direktoru Fərid Cəfərov qarşıladı. Ona ünvanlanan sualları cavablandıran F.Cəfərov məlumat verdi ki, 39 ay bundan əvvəl cənab Prezident “SOCAR Polymer” zavodlarının təməlini qoydu: “Bizim üçün böyük bir şərəf idi ki, bir neçə gün bundan qabaq cənab Prezident tərəfindən Azərbaycanda yüksəksıxlıqlı polietilenin istehsalına start verildi. Bu, ölkədə keçirilən iqtisadi islahatların nəticəsidir. Bizim üçün komanda olaraq böyük bir şərəf idi ki, cənab Prezident gəldi və gördüyümüz işləri dəyərləndirdi. Yüksəksıxlıqlı polietilen zavodunun istehsalat gücü 120 min ton olacaq. Bu, bizim ölkəmizdə olan neft-kimya məhsullarının dəyərini maksimum şəkildə çevirəcək. Əsas sadəcə dəyər, idxal əvəzləşdirmə yox, ölkənin iqtisadiyyatının gücləndirilməsi yox, yeni orta və kiçik bizneslər üçün bünövrə qoyulur. Bizim istehsal etdiyimiz yüksəksıxlıqlı polietilen düşünürük ki, onlarla yeni müəssisələr üçün xammal kimi istifadə oluna biləcək. Ölkəmizdə polimerlər emalını yaxın zamanda yüksək səviyyəyə gətirəcək. Düşünürük ki, ilin axırına kimi 80-100 min ton yüksəksıxlıqlı poletilen, 140-150 min ton isə polipropilen istehsal edəcəyik.”

Məlumat üçün bildirək ki, “SOCAR Polymer” zavodlarında 10 növ polipropilen və 4 növ yüksəksıxlıqlı polietilen istehsal olunacaq. Bir çox kiçik və orta müəssisələr bu məhsullardan xammal kimi istifadə etməklə “SOCAR Polymer” zavodlarının ətrafında sənaye klasteri yaradacaq.

Zavodun tərkibində olan polimerizasiya, katalizatorun aktivləşdirilməsi əraziləri, orqanoleptik emal bölməsi, laboratoriya, qablaşdırma bölməsi, anbar və idarəetmə otağının fəaliyyətinə dair məlumat verilib. Layihə çərçivəsində milli mühəndis kadrlarının ixtisaslarının artırılmasını təmin etmək məqsədilə vahid layihə idarəetmə qrupu yaradılıb. “Fluor” şirkəti milli mühəndis kadrları və digər işçilər üçün Amsterdamda, Milanda və Mumbayda ixtisas kursları təşkil edib.

İlk olaraq müəssisənin qablaşdırma sahəsində olduq. Həm PP, həm də YSPE zavodlarının torbalama/qablaşdırma qurğuları bina daxilində təhlükəsiz yerdə quraşdırılıb. Burada məlumat verildi ki, istehsal olunan polimer qranulaları pnevmatik konveyer sistemi vasitəsi ilə qarışdırıcı siloslardan torbalama siloslarına boşaldılır, oradan isə cazibə qüvvəsinin təsiri altında torbalama/qablaşdırma qurğusuna axıdılır. PP zavodunun ərazisində 25 kq-lıq kisələr üçün nəzərdə tutulan və iki analoji torbalama/qablaşdırma xəttindən ibarət sistem və bir “Big Bag” (Böyük kisə) xətti quraşdırılıb. YSPE sahəsi iki 25 kq-lıq kisə doldurma xətti, habelə qara və təbii propilen markaları üçün nəzərdə tutulan iki “Big Bag” xətti ilə təchiz edilib. İki paralel qablaşdırma xəttinin hər biri torbalama, paletləmə və streçlə sarma qurğuları ilə təchiz edilib. Torbalama maşınları polipropilen qranulalarını 25 kq-lıq kisələrə doldurur. Sonra həmin maşın kisələri paletləmə, örtük taxma və streçlə sarma qurğularına ötürür. Hesablama istehsal gücü saatda 2000 kisə, yəni saatda 50 ton olan hər torbalama maşını rulondan plyonka götürərək ağzıaçıq kisələr formalaşdıran və onları doldurma qurğusuna ötürən bir sistemdir. Bu qurğuya, həmçinin kisələrin üzərində mal partiyasının rekvizitlərini çap edən cihaz da daxildir. Torbalama maşını məhsulu çəkir, kisələrə doldurur, ağızlarını kip bağlayır, üzərində müvafiq rekvizitlər çap edir və dolu kisələri lentli konveyer vasitəsi ilə metal detektoruna göndərir. Belə torbalama prosesi növbəli rejimdə fasiləsiz davam edir. Spesifikasiyalara uyğun gələn kisələr lentli konveyer vasitəsi ilə paletləmə maşınına ötürülür və orada adi halda çəkisi 1 ton olan 40 kisəlik və ya çəkisi 1,5 ton olan 60 kisəlik paletlərə avtomatik olaraq yüklənilir. Hər layında 5 kisə olan 8-12 laylı paletlər tərtib edə bilən həmin maşının istehsal gücü torbalama maşınının gücünə bərabərdir.

Sonra müəssisənin idarəetmə otağında olduq. Məlumat verildi ki, idarəetmə məntəqəsi, əməliyyatlar mərkəzi və ya əməliyyatlara nəzarət mərkəzi iri müəssisələrdəki fəaliyyətin monitorinqi və nəzarəti üçün nəzərdə tutulan mərkəzləşdirilmiş bir məkandır. İdarəetmə məntəqəsinin məqsədi istehsalat proseslərinə nəzarət etməkdən ibarətdir. “SOCAR Polymer” zavodundakı idarəetmə məntəqəsi kimya-texnoloji qurğulardan kifayət qədər uzaq olan ayrıca binada yerləşir. Çoxsaylı elektron ekranlar, nəzarət panelləri və məntəqənin hər yerindən yaxşı görünən iri divar monitorları ilə təchiz edilmiş “SOCAR Polymer” zavodunun idarəetmə məntəqəsinin bir neçə növbəyə bölünmüş personalı hər gün fəaliyyət göstərir.

“SOCAR Polymer”in yüksəksıxlıqlı polietilen hissəsində texnologiya məsələləri üzrə mühəndis Asif Məmmədov məlumat verdi ki, idarəetmə otağının prinsipi ondan ibarətdir ki, kompyuterlərdən də gördüyünüz kimi, zavodun bütün hissələrində olan hər bir parametr bura çıxır: “Biz də zavodda olan təzyiq, temperatur, axın sürəti görərək özümüz hər bir şeyi idarə edə bilirik. İstənilən halda istədiyimiz parametri dəyişdirə bilərik. Burada 24 saat iş prosesi gedir. İstehsalata fasiləsiz nəzarəti təmin etmək məqsədi ilə idarəetmə məntəqəsində daim növbətçi briqadalar mövcuddur. Təhlükəsizliyin təmin olunması və fəaliyyətin uçotunun aparılması məqsədi ilə idarəetmə məntəqəsi yaddaşa yazılan fasiləsiz video-nəzarət altındadır. Bu kompyuterlər isə alarm siqnallarıdır. Hansısa bir təhlükə olarsa, biz bunu qabaqcadan müəyyənləşdirib qarşısını ala bilirik. Zavodun fərqli hissələrində kameralar quraşdırılıb. Bununla da biz zavodu idarəetmə otağından izləyə bilirik. Otaq iki hissədən ibarətdir. Bir hissə yüksəksıxlıqlı polietilen, digər hissə isə polipropilen üçün nəzərdə tutulub. Burada həm azərbaycanlılar, həm də digər xalqların nümayəndələri çalışırlar. Biz bir yerdə bərabər işləyirik. Fərqli-fərqli ölkələrdən nümayəndələr var. Əsas etibarilə Belçikadan işçi qüvvəsi var və biz onlarla bir yerdə işləyirik.”

**Orxan Vahidoğlu,**
**Şəfiqə Dadaşova,**
**Vüsal Cahanov (foto),**
***“İki sahil”***

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb




Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb.

Bəyanatı AZƏRTAC-a şərh edən "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini, professor Elçin Əhmədov bildirib ki, son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına uydurma "böyük Ermənistan" ideyasını həyata keçirmək məqsədilə 1905-1906-cı, 1918-1920-ci, 1948-1853-cü, 1988-1993-cü illərdə xalqımıza qarşı soyqırımı, terror, deportasiya və etnik təmizləmə kimi cinayətlər törədiblər.

XX əsrin sonunda monoetnik dövlət yaratmağa nail olan Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun hüdudlarından kənarda yerləşən Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri işğal edilib. Bütün bu ərazilər ermənilər tərəfindən etnik təmizləməyə məruz qalıb. Bununla yanaşı, Dağlıq Qarabağ bölgəsindəki azərbaycanlılar yaşayan 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Meşəli, Cəmilli, Umudlu, Kərkicahan, Malıbəyli, Quşçular, Qaradağlı və digər strateji əhəmiyyətə malik kəndlərimiz ermənilər tərəfindən yandırılıb, dağıdılıb və talan edilib. Ümumilikdə, Ermənistanın bu hərbi təcavüzü nəticəsində 20 min azərbaycanlı həlak olub, 50 min nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olub.

XX əsrin sonunda bütün dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə seçilən Xocalı soyqırımı isə bu təcavüzkar siyasətin ən qanlı və yaddaşlardan silinməyən səhifəsi olub.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən, sovet ordusundan qalmış 366-cı motoatıcı alayın hərbçiləri və ağır texnikasının iştirakı ilə Xocalıya hücum edərək şəhəri yerlə-yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdılıb, yandırılıb və insanlar xüsusi qəddarlıqla qətlə yetirilib. Azərbaycanın qədim Xocalı şəhərində həyata keçirilən bu soyqırımı nəticəsində rəsmi rəqəmlərə görə, 613 nəfər öldürülüb ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri qoca idi. Səkkiz ailə tamamilə məhv edilib. Bundan əlavə, 1275 nəfər əsir götürülüb, 150 nəfərin taleyi indiyə kimi naməlumdur. Bu soyqırımı zamanı mülki insanlar, o cümlədən qadınlar və uşaqlar xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilib, başları kəsilib, yaxud başlarının dərisi soyulub, gözləri çıxarılıb, hamilə qadınlar süngü ilə deşik-deşik edilib. Xəsarət alanlardan 487 nəfəri şikəst olub ki, onlardan 76 nəfəri azyaşlıdır.

Son illərdə Xocalı soyqırımının tanıdılması və qətliama siyasi qiymət verilməsi istiqamətində görülən işlər daha ciddi nəticələr verməkdədir. Artıq ABŞ-ın 20-dən çox ştatı və 15-ə qədər ölkənin qanunverici orqanları Xocalı faciəsinin soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanınması barədə qətnamə qəbul ediblər. Eləcə də İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı bu faktı soyqırımı və insanlığa qarşı cinayət hadisəsi kimi tanıyıb, üzv dövlətləri həmin faciəyə müvafiq siyasi-hüquqi qiymət verməyə çağırıb. Hazırda Xocalı faciəsinin dünya dövlətləri tərəfindən soyqırımı kimi tanınması, qətliama ayrı-ayrı ölkələrin qanunverici orqanları tərəfindən obyektiv qiymət verilməsi tarixi zərurət olaraq qalmaqdadır.

Bəyanatda qeyd edilir ki, Azərbaycan ərazisinin 20 faizi hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu işğal nəticəsində 900-ə yaxın yaşayış məntəqəsi, 22 muzey və 4 rəsm qalereyası, tarixi əhəmiyyəti olan 9 saray, nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı, 144 məbəd və 62 məscid dağıdılıb, talan edilib və yandırılıb. Bundan əlavə, 927 kitabxanada 4,6 milyon kitab və qiymətli tarixi əlyazmalar məhv edilib. Ermənistanın ölkəmizə qarşı açıq-aşkar hərbi təcavüzü beynəlxalq hüququn bütün norma və prinsiplərinə ziddir. Belə ki, Ermənistan Respublikası bütün beynəlxalq hüquqi sənədləri, xüsusilə BMT Nizamnaməsinin I və II maddələrində, eləcə də 1975-ci il 1 avqust tarixli ATƏM/ATƏT-in Helsinki Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobudcasına pozub.

XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı indiyədək bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Xocalı soyqırımı tarixi yaddaşlardan heç vaxt silinməyən Xatın, Liditsa, Oradur, Xolokost, Sonqmi, Ruanda və Srebrenitsa kimi dəhşətli faciələrdən heç də fərqlənmir. Adıçəkilən hadisələr müharibələr tarixinə dinc əhalinin soyqırımı olaraq daxil olub və bütün dünyada geniş əks-səda doğurub.

Ermənistanın yürütdüyü etnik təmizləmə və soyqırımı siyasəti uzun illərdir dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki soyqırımı ən ağır cinayət olmaqla yanaşı, beynəlxalq hüquqa görə sülh və təhlükəsizliyə qarşı yönələn cinayətlər qrupuna aid edilir. Soyqırımı cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya ilə müəyyən olunub.

Bununla yanaşı, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən atılan qeyri-qanuni addımlar, xüsusilə təşkil olunan qanunsuz səfərlər, görüntü xatirinə keçirilən tədbirlər, məskunlaşdırma siyasətinin aparılması və demoqrafik tərkibin qəsdən dəyişdirilməsi, Azərbaycan xalqına məxsus maddi-mədəni irsin talan edilməsi beynəlxalq və humanitar hüququn pozulması deməkdir.

Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətna-mələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhəd-lərinin toxunulmazlığının, işğalçı qüvvələrin zəbt etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxmasının zəruriliyi bildirilir. Ancaq BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Şurası Parlament Assambleyasının və eləcə də digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, indiyə kimi Ermənistan Respublikasının açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması ucbatından münaqişə ölkəmizin ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmayıb. Ona görə də böyük dövlətlər qəti praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər.

Bəyanatda deyilir: "Xocalı soyqırımının 27-ci ildönümündə Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin 80 mindən çox olan azərbaycanlıları beynəlxalq birliyi Azərbaycan xalqına qarşı bu gün də davam edən təcavüz hərəkətlərinə obyektiv siyasi-hüquqi qiymətin verilməsi üçün Azərbaycanın haqlı mövqeyini dəstəkləməyə çağırır. Biz dünya ictimaiyyətini və beynəlxalq təşkilatları Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocalı şəhərində məqsədyönlü şəkildə yüzlərlə uşaq, qadın və yaşlı insanın da daxil olduğu dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş bu qəddarlığı insanlıq əleyhinə cinayət və soyqırımı aktı kimi tanımağa çağırırıq. Biz humanizm ideyalarının daşıyıcısı olan bütün beynəlxalq təşkilatlardan tələb edirik ki, Ermənistanın işğalçılıq siyasətinin ifşa olunması üçün təsirli tədbirlər görülsün. Bununla yanaşı, Ermənistanın təcavüzünün qurbanı olan bir milyondan çox insanın haqq səsi eşidilsin və pozulmuş hüquqlarımızın bərpa olunması üçün ermənilərin cinayətkar əməlləri beynəlxalq səviyyədə qınaq obyektinə çevrilsin".

## Ukrayna saytında Xocalı soyqırımına həsr edilmiş məqalə




Ukraynanın "Versii" saytında soydaşımız, hüquq elmləri doktoru, Milli Aviasiya Universitetinin beynəlxalq hüquq kafedrasının professoru, Ukraynanın Əməkdar təhsil işçisi Arif Quliyevin Xocalı soyqırımı haqqında məqaləsi yayılıb.

AZƏRTAC xəbər verir ki, məqalədə erməni millətçilərinin Azərbaycan xalqına qarşı soyqırımı siyasəti və təcavüzü haqqında geniş məlumat verilib.

## Astanada Xocalı soyqırımı ilə bağlı klip təqdim olunub




Qazaxıstanın Azərbaycandakı səfirliyində Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondu tərəfindən hazırlanan "Xocalıya ədalət!" sənədli filmi nümayiş etdirilib. Həmçinin tədbir çərçivəsində Xocalıya həsr edilən "Fevral ildırımı" adlı video klipin təqdimatı olub.

Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov çıxış edərək bildirib ki, Avropa ölkələri 22 fevralı cinayət qurbanları günü kimi qeyd edirlər. Soyqırımı insanlığa qarşı törədilən ən ağır cinayət növüdür və dünya ictimaiyyətindən xüsusi diqqət tələb edir.

Ermənistan silahlı qüvvələri Xocalıda uşaqlar, qadınlar və qocalar da daxil olmaqla, 613 nəfəri öldürüblər. Bu və bundan əvvəl dünyanın müxtəlif ölkələrində törədilən soyqırımları insanlığa qarşı cinayətlərdir və dünya ictimaiyyəti tərəfindən qanuni qiymətini almalıdır.

Səfir deyib ki, Xocalı soyqırımına həsr olunmuş mahnının klipinin təqdim olunma tarixi təsadüfən seçilməyib. Qardaş Qazaxıstan ictimaiyyətinin Azərbaycan tarixinin faciəli səhifələrinə biganə qalmamasını yüksək qiymətləndiririk. Bunun nümunəsi olaraq Qazaxıstanda xalq layihəsi əsasında "Fevral ildırımı" mahnısı yaradılıb. Bu layihənin həyata keçirilməsinin məqsədi dünya ictimaiyyətinə Xocalıya ədalət çağırışı etməkdir.

Şair-yazıçı Dina Oraz qeyd edib ki, "Fevral ildırımı" mahnısı ikiillik işin nəticəsidir və terrorizmə, ekstremizmə, soyqırımına qarşı insanları xəbərdar etmək üçün bir çağırışdır. Mahnının yazılmasında əsas məqsəd xalqın diqqətini cəlb etmək, gənc nəsildə tolerantlıq, millətlərarası münasibətlərin harmoniyasını təşviq etmək və yaddaşlara həkk etməkdir. "Xocalıya ədalət!" kampaniyası bütün dünyaya Xocalı hadisələrinə ədalətli hüquqi qiymət verməyə çağırır.

Mahnının ifaçısı olan Azərbaycan əsilli qazaxıstanlı müğənni Neyla Quliyeva deyib ki, "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində dünya miqyasında müxtəlif tədbirlər keçirilir. Bu yolla Xocalıda törədilənlər barədə dünya ictimaiyyətinə məlumat çatdırılır. O deyib ki, bu layihədə Qazaxıstan ictimaiyyətinin, ölkədəki müxtəlif millətlərin nümayəndələri iştirak ediblər.

Mahnının bəstəkarı Azat Ospanov insanlığa qarşı dəhşətli cinayət olan Xocalı soyqırımı haqqında sənədli filmlərə baxıb ətraflı məlumat əldə etdikdən sonra klip hazırlanmasına qərar verdiyini deyib. Bildirib ki, dünyada günahsız uşaqların ölümündən daha pis heç nə yoxdur. Hər birimiz sülh və harmoniyanın möhkəmləndirilməsinə öz töhfəmizi verməliyik.

Klipin prodüseri Dana Rıskeldinova da layihə ilə bağlı təəssüratlarını bölüşüb. O deyib: "Bu klipdə hisslərimizi əks etdirmək istədik. Bir ana kimi bu videonun hazırlanmasını özümə borc bildim. Cəmiyyəti ədalətə, əmin-amanlığa, sülhə çağırmaq istədik ki, bir daha bu cür cinayətlər baş verməsin".

Klipin təqdimatı Qazaxıstanın Almatı, Aktau, Atırau və digər şəhərlərində də keçiriləcək.

Tədbirdə Xocalı soyqırımını əks etdirən fotosərgi nümayiş olunub.

# Dövlət Gömrük Komitəsi növbəti mediatur təşkil edib

**Fevralın 22-də gömrük-media əməkdaşlığı çərçivəsində aparıcı kütləvi informasiya vasitələri nümayəndələrinin Dövlət Gömrük Komitəsinin (DGK) strukturuna aid olan bəzi qurumlara səfəri təşkil edilib.**







Jurnalistlər əvvəlcə "Azərterminalkompleks" Birliyində olublar. Burada onlar ilk növbədə ulu öndər Heydər Əliyevə həsr edilmiş xatirə muzeyi ilə tanış olublar.

Kütləvi informasiya vasitələrinin nümayəndələri, həmçinin Azərbaycan Birliyin nəzdində fəaliyyət göstərən Azərbaycan Gömrük Tarixi Muzeyi ilə tanış olublar. Bildirilib ki, burada nümayiş etdirilən eksponatların böyük hissəsini gömrük əməkdaşları tərəfindən saxlanılaraq məhkəmə orqanları tərəfindən müsadirə edilən elmi, tarixi və bədii əhəmiyyət kəsb edən mədəni sərvətlər təşkil edir.

Muzeydə Şərq incəsənətini təmsil edən e.ə. I minilliyə aid kiçik ölçülü dekorativ heykəllər, tarixin müxtəlif qanlı hadisələrinə şahidlik etmiş soyuq və odlu silahlar, dekorativ-tətbiqi sənət əsərləri məxsus olduğu xalqın incəsənətini, estetik zövq və yaşam tərzini əks etdirir. Burada, həmçinin qədim Azərbaycanın mədəniyyət və incəsənətini təmsil edə biləcək xovlu və xovsuz xalçalar, məişətdə geniş işlənən misgərlik nümunələri, dövlətçiliyin rəmzi olan orta əsrlərə aid qədim sikkələr, zinət əşyaları və s. qorunub saxlanılır.

Sonra "Azərterminalkompleks" Birliyinin direktoru, gömrük xidməti general-mayoru Ehtiram Xəlilov Birlik barədə jurnalistlərə məlumat verib. Bildirib ki, DGK-nın tərkibində təsərrüfat hesablı fəaliyyət göstərən Birlik sahibkarlara müxtəlif xidmətlər göstərir. Buraya bəyannamələrin yazılması, dayanacaq, tərəzi, kuryer və digər xidmətlər aiddir.

Daha sonra mediatur iştirakçıları Dövlət Gömrük Komitəsinin Akademiyasında olublar. Akademiyanın rəisi Qulu Novruzov bildirib ki, 176 tələbənin təhsil aldığı Akademiya Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2012-ci ildə yaradılsa da, tələbə qəbuluna 2014-2015-ci tədris ilində başlayıb. Qeyd edib ki, burada hüquqşünaslıq və iqtisadiyyat ixtisasları üzrə ödənişli və ödənişsiz əsaslarla tədris həyata keçirilir.

Q. Novruzov, həmçinin Akademiyaya marağın kifayət qədər böyük olduğunu vurğulayaraq sonuncu tədris ilində iqtisadiyyat ixtisasına minimum qəbul balının 424, maksimum 633 bal, hüquqşünaslıq ixtisası üzrə isə minimum qəbul balının 557, maksimum isə 663 olduğunu diqqətə çatdırıb.

Akademiyanın rəisi, eyni zamanda, təhsil müəssisəsinin məzunlarının müsabiqəsiz gömrük orqanlarına qəbul edildiyini də xatırladıb. Əlavə edib ki, 2018-ci ildə Akademiyanı bitirən ilk məzunlardan 16-sı xaricdə və ölkədəki təhsil müəssisələrində magistr dərəcəsi üzrə təhsillərini davam etdirir, 10 nəfəri isə gömrük orqanlarında işlə təmin olunub.

Q. Novruzov bildirib ki, burada tələbələrlə yanaşı, gömrük orqanlarında yeni işə qəbul edilənlər də dinləyici qismində gömrük işinin sirlərini öyrənirlər.

Bundan əlavə, jurnalistlər tədris auditoriyalarında dərslərin gedişi ilə maraqlanıblar. Jurnalistlər, həmçinin Akademiyada təşkil edilən və gömrük nəzarəti zamanı tətbiq olunan texniki nəzarət vasitələri otağı, buradakı tədris prosesi barədə də məlumatlandırılıblar.

Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzi ilə tanışlıq da media nümayəndələrinin marağına səbəb olub. Mərkəzin rəisi, gömrük xidməti polkovniki İlkin Osmanov bildirib ki, Mərkəz 2003-cü ildə istifadəyə verilib və parametrlərinə, təchizatına görə regionda analoqu yoxdur. Dörd hektar ərazini əhatə edən mərkəzin bazasında eyni vaxtda 100 baş xidməti it saxlamaq, onlara tibbi qulluq göstərmək və təlim vermək mümkündür. Mərkəzdə, həmçinin cins küçüklərin çoxaldılması, böyüdülməsi və saxlanılması da həyata keçirilir.

Burada xidməti axtarış itlərinin narkotik vasitələrin, partlayıcı maddələrin, odlu silahların və döyüş sursatının axtarışı, iz üzrə axtarış, bütün növ obyektlərin mühafizəsi üzrə hazırlanması həyata keçirilir.

Jurnalistlər, eyni zamanda, Mərkəzin təlim meydançasında xidməti axtarış itlərinin narkotik vasitələrin və digər qadağan edilən maddələrin aşkar edilməsi üzrə bacarıqlarını da izləyiblər.

**Ceyhun Piriyev, "İki sahil"**

## Prezidentimizin imzaladığı Fərman və Sərəncam Əfqanıstan müharibəsi veteranlarına diqqət və qayğının daha bir göstəricisidir

Prezident İlham Əliyevin fevralın 21-də Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərman və Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalaması biz Əfqanıstan müharibəsi veteranlarına göstərdiyi diqqət və qayğının daha bir göstəricisidir.



**"İki sahil" xəbər verir ki, bu fikri AZƏRTAC-a açıqlamasında Əfqanıstan müharibəsinin veteranı, ehtiyatda olan ədliyyə polkovniki Əfrahim Təhməzov deyib.**

Ə.Təhməzov bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyev hər zaman Əfqanıstan müharibəsi iştirakçılarına diqqət və qayğı göstərirdi. Ümummilli lider Heydər Əliyev biz veteranları həmişə yüksək qiymətləndirib. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Əfqanıstan müharibəsi veteranları Prezident İlham Əliyev tərəfindən hər cür diqqət və qayğı ilə əhatə olunub.

Dövlətimizin başçısının müharibə iştirakçılarının sosial vəziyyətlərinin yaxşılaşdırılması ilə bağlı bu günlərdə imzaladığı Fərman və Sərəncam biz veteranlara ali diqqət və qayğının bariz nümunəsidir. Dövlətimizin başçısı bir daha təsdiq etdi ki, o veteranların, şəhid ailələrinin daim yanındadır.

"Prezidentimizin Əfqanıstan müharibəsi veteranlarına və bu müharibədə həlak olanların ailələrinə qayğısı davamlıdır" deyən Ə.Təhməzov qeyd edib ki, Əfqanıstan müharibəsi veteranları və əlilləri də Azərbaycan Respublikasının qanunvericiliyi ilə müharibə iştirakçıları üçün nəzərdə tutulmuş güzəşt və imtiyazlardan istifadə etmək hüququna malikdirlər. Bu da ondan xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müharibə iştirakçılarına daim yüksək səviyyədə diqqət və qayğı göstərir, onların sosial problemlərinin həlli istiqamətində böyük işlər görür. Prezident İlham Əliyevin apardığı məqsədyönlü, mütərəqqi və uğurlara əsaslanan siyasət bütün sahələri, o cümlədən biz Əfqanıstan müharibəsi veteranlarını da diqqətdən kənarda qoymur. Biz veteranlar daim Prezidentimizin yanındayıq, onun apardığı daxili və xarici siyasəti dəstəkləyirik. "Əfqanıstan müharibəsi veteranları adından bizə göstərilən bu ali diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığımı bildirirəm", - deyə o əlavə edib.

## Avtomobil yolları işçilərinin peşə bayramı

22 fevral - Avtomobil yolları işçilərinin peşə bayramı günü münasibətilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov və agentliyin kollektivi Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Daha sonra Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin kollektivi Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Bayram tədbiri Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin inzibati binasının akt zalında davam etdirilib. Tədbiri giriş sözü ilə açan AAYDA-nin İdarə Heyətinin sədri Saleh Məmmədov ölkəmizin yol infrastrukturu sahəsində əldə etdiyi uğurların təməlində heç şübhəsiz əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan xarici və daxili siyasətin dayandığını bildirib və Ulu Öndərin "Yol iqtisadi inkişafın əsas amillərindən biridir. Əgər müasir infrastruktur, yol olmasa, iqtisadiyyat inkişaf edə bilməz" sözlərinin onun yol təsərrüfatının inkişafına nə qədər böyük önəm verdiyini bir daha təsdiq etdiyini əlavə edib.

Tədbirdə qeyd olunub ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq müəyyənləşdirilən, Azərbaycanı müasir infrastruktur təminatına malik ölkəyə çevirməklə bağlı strategiyada yol infrastrukturunun yenilənməsinə xüsusi önəm verilir.

Bunun bariz nümunəsidir ki, vətəndaşların rahat və maneəsiz şəkildə gediş-gəlişini təmin etmək, sərnişin və yük daşımasını asanlaşdırmaq, insanların həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir edən turizm və kənd təsərrüfatının inkişafına səbəb olmaq məqsədi ilə son iki il ərzində ümumi uzunluğu 3 min km-dən çox olan avtomobil yolları, prospekt və küçələr tikilib, yenidən qurulub və təmir olunub. Təkcə 2018-ci ildə 90 yol infrastrukturu layihəsi üzrə tikinti və yenidənqurma işləri başa çatdırılıb. Bu layihələrin həyata keçirilməsi 2,2 mln əhalinin yaşadığı 920 yaşayış məntəqəsini əhatə edib. 2019-cu ildə də bu istiqamətdə işlər davam etdiriləcək və kəndlərarası, qəsəbələrarası avtomobil yollarının tikintisi olmaqla ümumilikdə 50-dən artıq yol infrastrukturu layihəsinin gerçəkləşdirilməsi nəzərdə tutulub.

Sonda Avtomobil yolları işçilərinin peşə bayramı günü münasibətilə agentlikdə uzunmüddətli, səmərəli əmək fəaliyyəti nəzərə alınaraq bəzi əməkdaşlara fəxri diplom və mükafatlar təqdim olunub, onlara iş fəaliyyətində uğurlar arzu edilib.

**Orxan Vahidoğlu, "İki sahil"**

# Dünya Bankı ilə ədliyyə sahəsində birgə layihələr uğurla həyata keçirilir



Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları nüfuzlu beynəlxalq qurumlar, o cümlədən Dünya Bankı tərəfindən yüksək dəyərləndirilir və bu sahədə birgə layihələr uğurla həyata keçirilir. Həmin layihələr çərçivəsində, habelə dövlət büdcəsi hesabına 16 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilərək istifadəyə verilib.

Onların bir çoxunun açılışlarını edən dövlətimizin başçısı Bank ilə birgə həyata keçirilən bu islahatları yüksək dəyərləndirib. Həmçinin Dünya Bankı ədliyyə sahəsindəki layihələri ən uğurlularından hesab edərək innovasiyalara görə nominasiyaların qalibi elan edib.

Fevralın 22-də ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşüb.

Azərbaycan və Dünya Bankı arasında səmərəli əməkdaşlığı qeyd edən nazir ölkə Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə aparılan və beynəlxalq aləmdə təqdir olunan məhkəmə-hüquq islahatları, o cümlədən infrastrukturun müasirləşdirilməsi, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə görülən işlər barədə məlumat verib, bu sahədə Dünya Bankının dəstəyini qeyd edib. Həmçinin ədliyyə sistemində digər innovasiyaların tətbiqindən və nailiyyətlərdən bəhs edib, vətəndaşlara xidmət sahəsində fəaliyyətə könüllülərin cəlb olunduğunu bildirib.

Nazir ölkəmizin bu sahələrdə uğurlarına beynəlxalq maraq artaraq bir çox dövlətlərin müsbət təcrübəmizdən bəhrələndiyini vurğulayıb.

Azərbaycanın hərtərəfli tərəqqisinin Dünya Bankının "Doing Business 2019" hesabatında əks olunduğunu və ölkəmizin dünyanın 10 ən islahatçı dövlətlərdən olduğunu qeyd edən xanım Mersi Tembon səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edildiyini, dövlətimizin başçısının məhkəmə sisteminin inkişafına və bu sahədə Bank ilə qarşılıqlı fəaliyyətin davam etdirilməsinə önəm verməsini məmnunluqla qeyd edib.

O, Dünya Bankının Ədliyyə Nazirliyi ilə əməkdaşlığını təqdir edərək, ədliyyə sahəsində görülən uğurlu işlərin dünyada örnək olduğunu vurğulayıb, həyata keçirilən layihənin gedişatından və nəticələrindən heyranlığını ifadə edərək, Şəkidə Məhkəmə Kompleksi ilə tanış olarkən məhkəmə sisteminin müasirləşməsinin ən yüksək səviyyəsinin şahidi olduğunu söyləyib. Bildirib ki, Azərbaycanın bu sahədə nailiyyətləri dünyanın nadir ölkələrində rast gəlinir. Məhkəmə sistemində müasir texnologiyaların tətbiqi, videokonfransların keçirilməsi üçün hər cür şəraitin yaradılması əhalinin, o cümlədən həssas təbəqələrin ədalət mühakiməsinə əlçatanlığına, məhkəmə fəaliyyətinin şəffaflığına və səmərəliliyinə xidmət edir.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub, ölkəmizin bu sahədə nailiyyətlərinin dünyada daha geniş yayılmasının əhəmiyyəti qeyd edilərək birgə tədbirlərin keçirilməsi barədə razılığa gəlinib, Dünya Bankının məhkəmə-hüquq islahatlarına bundan sonra da dəstək göstərməyə hazır olduğu bildirilib.

Qonaq nazirlikdə Azərbaycan ədliyyəsinin tarixi muzeyi ilə tanış olub.

# YAP Səbail rayon təşkilatının yaranmasının 26-cı ildönümü qeyd olundu







**Fevralın 22-də Beynəlxalq Muğam Mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının təsis edilməsinin 26-cı ildönümünə həsr olunan tədbir keçirildi.**

Tədbirdə YAP Səbail rayon təşkilatının İdarə Heyətinin üzvləri, Milli Məclisin deputatları, ölkənin aparıcı qəzetlərinin baş redaktorları və rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev tədbirdə çıxış edərək partiyanın çox çətin bir şəraitdə yaradılması haqqında məlumat verdi, onun təsis edilməsinin ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu bildirdi: "YAP-ın yaranması məsələsi tarixi bir zərurət kimi meydana çıxmışdı. Həmin ərəfədə Azərbaycanda xaos hökm sürürdü, dövlət büdcəsi talan olunmuşdu, ölkədə hər addımbaşı cinayətlər törədilirdi. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də ulu öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar Ümummilli Liderə müraciət ünvanladılar. 1992-ci il noyabrın 21-də 550 nəfərin iştirakı ilə Naxçıvan şəhərində YAP-ın təsis konfransı keçirildi və ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi".





Ş.Hacıyev ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa sadiq qalan Prezident İlham Əliyevin rəhbərliyi altında partiyanın gələcəyə doğru inamla irəlilədiyini diqqətə çatdırdı: "Bu müddət ərzində Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib, ölkəmizin beynəlxalq aləmdə mövqeyi güclənib. Xüsusilə son 15 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb, Azərbaycan regionun lider dövlətinə çevrilib.

Sonra YAP Səbail rayon təşkilatının fəaliyyətini əks etdirən foto-slayd nümayiş olundu.

Daha sonra YAP Səbail rayon təşkilatının fəaliyyətində yaxından iştirak edən ictimai-siyasi xadimlər - Milli Məclisin komitə sədri Hadi Rəcəbli, partiyanın Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev və digərləri Fəxri Fərmanla təltif edildilər.

Həmçinin tədbirdə Yeni Azərbaycan Partiyasının qızıl fondu sayılan "91-lər" və partiyanın Səbail rayon təşkilatı aparatının işçiləri də təltif edildilər.

Sonra YAP sıralarına yeni qəbul olunmuş şəxslərə partiyanın üzvlük vəsiqələri təqdim edildi.

Sonda Beynəlxalq Muğam Mərkəzinin solistlərinin iştirakı ilə bədii hissə təqdim olundu.

**Cavid Əkbərov,**
***"İki sahil"***

# Akademik Tariyel Talıbovun 70 illik yubileyi qeyd olunub



AMEA Naxçıvan Bölməsində görkəmli bioloq-alim, Əməkdar elm xadimi, Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbovun 70 illiyinə həsr olunan yubiley tədbiri keçirilib.

Tədbirdə Bölmənin sədri, akademik İsmayıl Hacıyev Tariyel Talıbovun mənalı ömür yoluna, zəngin elmi-pedaqoji fəaliyyətinə nəzər salıb. Bildirib ki, görkəmli alim bütün ömrünü Naxçıvan Muxtar Respublikasının flora və fauna biomüxtəlifliyinə, müasir vəziyyətinə, faydalı bitki sərvətlərinə, nadir, endemik, nəsli kəsilmək təhlükəsi altında olan bitki növlərinə, onların səmərəli istifadə olunması və mühafizəsinə həsr edib. Onun apardığı tədqiqat işləri 55 monoqrafiya və kitabda, 300-ə yaxın elmi məqalədə, o cümlədən patent və xəritədə əksini tapıb. Bununla yanaşı, bioloq alim Bölmədə hazırlanan 2 cildlik "Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabları", 2 cildlik "Naxçıvan Muxtar Respublikasının coğrafiyası", 2 cildlik "Naxçıvan Ensiklopediyası", Azərbaycan və rus dilində "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", "Naxçıvan Muxtar Respublikasının flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması" və digər ümumiləşdirici fundamental elmi nəşrlərin müəlliflərindən biridir.

Bölmə sədri qeyd edib ki, ölkə hüdudlarından kənarda da tanınan və elmi əsərlərindən istifadə edilən akademik Tariyel Talıbovun rəhbərlik etdiyi Bioresurslar İnstitutunda son 15 ildə 6 elmlər, 21 nəfər fəlsəfə doktoru hazırlanıb.

Diqqətə çatdırılıb ki, bioloq alim tərəfindən noxudun "Qaraca-85" və arpanın "Qılçıqlı-85" sortları Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasına təqdim edilib. Onun rəhbərliyi ilə muxtar respublikada dənli taxıl və paxlalı bitkilər üzrə ilk dəfə olaraq yeni sortun alınmasına nail olunub.

Bildirilib ki, Tariyel Talıbov çoxillik səmərəli elmi, elmi-təcrübi və təşkilatçılıq fəaliyyətinə görə bir sıra mükafatlara layiq görülüb. O, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, AMEA Rəyasət Heyətinin Fəxri fərmanları ilə təltif edilib, "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. Bundan başqa, ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar "Yubiley qızıl medalı" ilə mükafatlandırılıb. Həmçinin təbiət elmləri sahəsində əldə etdiyi fundamental və tətbiqi elmi nəticələrə görə AMEA-nın Həsən bəy Zərdabi adına mükafata layiq görülüb.

İsmayıl Hacıyev qeyd edib ki, görkəmli alim 2006-cı ildən Beynəlxalq Təbiəti Mühafizə Fondunun Qafqaz ekoregionu üzrə Azərbaycandan biomüxtəlifliyin mühafizəsi üzrə Ekspert Şurasının üzvüdür. Hazırda həmin fondun "Cənubi Qafqazda bəbirlərin mühafizəsi" layihəsinə rəhbərlik edir. O, Qafqaz ekoregionunda bəbirin monitorinqinə dair apardığı uğurlu və fundamental tədqiqatları nəticəsində Beynəlxalq Təbiəti Mühafizə Fondu tərəfindən xüsusi sertifikat və döş nişanı ilə təltif edilib. Eyni zamanda, elm sahəsində səmərəli fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 fevral tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasına xidmətlərinə görə" nişanı ilə təltif olunub.

Daha sonra İsmayıl Hacıyev çoxillik və səmərəli fəaliyyətinə görə Tariyel Talıbova bölmənin Fəxri fərmanını təqdim edib.

Tədbirdə AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli, Saleh Məhərrəmov, Əliəddin Abbasov, Əbülfəz Quliyev və biologiya üzrə elmlər doktoru İsmayıl Məmmədov çıxış edərək bioloq alimi 70 illik yubileyi münasibəti ilə təbrik edib, ona can sağlığı və elmi fəaliyyətində uğurlar arzulayıblar.

Sonda yubilyar çıxış edərək əməyinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikasının Ali Məclis Sədrinə, həmçinin tədbirin təşkilatçıları və iştirakçılarına təşəkkürünü bildirib.

Tədbirdə görkəmli alimin elmi əsərləri, kitab və monoqrafiyaları, tərtib etdiyi xəritələr və patentləri sərgilənib, eyni zamanda, müxtəlif illərdə çəkilən fotoşəkilləri videogörüntü vasitəsilə nümayiş olunub.

*AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi*

# ADA Məktəbinin təqdimatı olub












Fevralın 22-də ADA Məktəbinin təqdimatı olub. AZƏRTAC xəbər verir ki, tədbirdə ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev rəhbərlik etdiyi ali məktəbin tədris prosesi və fəaliyyət istiqamətlərindən danışıb. Bildirilib ki, müasir təhsil modelini əsas tutaraq cəmiyyətə savadlı mu?təxəssis və ləyaqətli vətəndas? yetis?dirən ADA Universiteti üçün keyfiyyətli təhsil əsas meyardır. Ali təhsil müəssisəsi kimi 2006-cı ildən təlim proqramları ilə fəaliyyətə başlayan universitetdə 2009- cu ildən magistratura, 2011-ci ildən isə bakalavr proqramlarının həyata kec?irilməsinə başlanılıb. Məqsədimiz bakalavr və magistratura səviyyələrində təhsil alan tələbələrin yüksəkixtisaslı kadr kimi yetişməsi üçün beynəlxalq təhsil sistemində ən qabaqcıl proqramları Azərbaycana gətirməkdir.

### Bakalavr səviyyəsinə qəbul olunan tələbələrin hazırlığı və yeni təhsil mühitinə çətin adaptasiya olduqları nəzərə alınaraq ADA Məktəbi təsis edildi

H.Paşayev deyib ki, ali məktəbə bakalavr səviyyəsinə qəbul olunan tələbələrin hazırlığı və onların yeni təhsil mu?hitinə çətin adaptasiya olduqlarını nəzərə alaraq ADA Məktəbinin təsis olunmasını məqsədəuyg?un hesab etdik. Bu məktəbin fəaliyyətə başlaması ADA Universitetinin gələcəyi üçün də uğurlu və faydalı olacaq.

Rektor bildirib ki, məktəbin tədris proqramı Azərbaycan Respublikasının tam orta təhsil standartlarına və ADA Universitetinin təcru?bəsinə əsaslanaraq bilik, səris?tə və dəyərlərin formalas?masını təmin edir. Tədris proqramı s?agirdlərin akademik baxımdan universitet illərinə daha hazırlıqlı olmaları ilə yanas?ı, XXI əsrin tələblərinə cavab verən kommunikasiya, kreativlik, komanda is?i, tənqidi du?s?u?ncə kimi bacarıqların inkis?afına xüsusi yer ayırır. Məqsədimiz, həmçinin Azərbaycanda və xaricdə istənilən nüfuzlu ali məktəbə qəbul ola bilən savadlı, bacarıqlı gənclər yetişdirməkdir.

Qeyd edilib ki, məktəbin binası yüksək standartlara cavab verən infrastruktura malikdir.

H.Paşayev universitetlərə hazırlıq və qəbul sahəsində kollec və peşə təhsili müəssisələrində təhsilin mühüm rol oynadığını söyləyib. Bildirib ki, müasir dövrdə orta ixtisas təhsili müəssisələrinə böyük ehtiyac var. Bütün bunları nəzərə alaraq gələcəkdə texniki və fundamental elm sahələrində mühəndislik ixtisası üzrə kolleclərin yaradılması da nəzərdə tutulur.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva son illər ölkəmizdə təhsilin inkişafı istiqamətində aparılan islahatlardan, həyata keçirilən dövlət proqramları və müxtəlif layihələrdən söz açıb. Bildirib ki, təhsil cəmiyyətin əsas aparıcı və təkanverici qüvvəsidir. Bu gün ölkəmizdə 4443 ümumtəhsil müəssisəsi fəaliyyət göstərir. Son on beş ildə respublikada 3300-dən çox məktəb müasirləşib, onların infrastrukturu standartlara uyğun qurulub, yeniləri tikilib, bəziləri isə əsaslı təmir edilib. Qeyd olunan istiqamətlər "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da öz əksini tapıb və bütün bunlar təhsilin keyfiyyətini təmin etmək məqsədilə həyata keçirilir.

### ADA Məktəbində tədris proqramı milli standartlara və milli kurikuluma əsaslanacaq

M.Vəliyeva bildirib ki, ADA Universiteti özünün keyfiyyətli təhsil proqramı ilə ölkənin seçilən ali məktəbləri sırasındadır. Müasir standartlara cavab verən və güclü infrastrukturaya malik olan universitet hər zaman dövlətə və dövlətçiliyə sədaqət nümunəsində gənc nəsil yetişdirir. Bu ənənənin davamı olaraq ADA Məktəbində də tədris proqramı milli standartlara və milli kurikuluma əsaslanacaq.

Nazir müavini ölkənin təhsil mühitində ADA Məktəbinin uğurlu fəaliyyət göstərəcəyinə əminliyini bildirib.

### ADA Məktəbinin təhsil modeli

Sonra ADA-nın tədris işləri üzrə prorektoru Vəfa Kazdal ADA Məktəbinin yaranma səbəbləri, qəbul qaydaları və fəaliyyət konsepsiyası haqqında təqdimatla çıxış edib. Bildirib ki, məqsədimiz keyfiyyətli təhsil əsasında cəmiyyət üçün savadlı və ləyaqətli vətəndaşlar yetişdirməkdir. Qarşıya qoyulan məqsədlər sırasında daxili və xarici tələblərə uyğun inkişafa nail olmaqdır. Bunun üçün fəaliyyətimiz daxili və xarici əmək bazarına uyğun kadrların hazırlanmasına yönəlib. ADA Məktəbinin təhsil modeli yeniliklərdən ibarətdir. Belə ki, bu məktəbin məzunları ADA Universitetinə xüsusi s?ərtlərlə qəbul olunacaqlar.

ADA Məktəbi 2019-2020-ci tədris ilindən etibarən X və XI siniflərə şagird qəbulu elan edir

Diqqətə çatdırılıb ki, ADA Məktəbi 2019-2020-ci tədris ilindən etibarən X və XI siniflərə şagird qəbulu elan edir. Qəbul yerli və xarici vətəndaşlar üçün açıqdır. 2019-2020-ci akademik il üçün X sinfə qəbul olunanlar həm Azərbaycan, həm də ingilis dilində oxuya biləcəklər. XI sinfə qəbul olunanlar isə yalnız ingilis dilində təhsil alacaqlar.

# Prezident İlham Əliyevin bu ili "Nəsimi İli" elan etməsi elmi və ədəbi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NƏSİMİ ADINA DİLÇİLİK İNSTİTUTUNUN DİREKTORU, AKADEMİK MÖHSÜN NAĞISOYLUNUN WWW.YAP.ORG.AZ SAYTINA MÜSAHİBƏSİ

***- Möhsün müəllim, Azərbaycan Prezidenti İlham Əliyevin 11 yanvar 2019-cu il tarixli Sərəncamı ilə 2019-cu ilin Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilməsini necə dəyərləndirirsiniz?***

- Əvvəlcə qeyd edim ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik və uzaqgörən siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyev ana dilimizin və elmimizin inkişafı ilə bağlı bir sıra mühüm addımlar atıb. Bu addımlardan biri də Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 15 noyabr 2018-ci il tarixli Sərəncamı idi. Ona görə ki, əsərlərində ümumbəşəri fikirləri yüksək poetik şəkildə ifadə edən mütəfəkkir-şairimiz İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatının nadir simalarından biridir. Məhz bu nöqteyi-nəzərdən çıxış edən Prezident İlham Əliyev böyük Azərbaycan şairi Nəsiminin 650 illik yubileyinin ölkəmizdə daha yüksək səviyyədə, layiqincə qeyd olunması məqsədilə 11 yanvar 2019-cu il tarixində "2019-cu ilin Azərbaycan Respublikasında "Nəsimi İli" elan edilməsi" haqqında daha bir Sərəncam imzaladı. Hər iki Sərəncamı Prezidentin ədəbiyyatımıza xüsusi diqqət göstərməsinin əyani sübutu kimi qiymətləndirmək olar.

***- Möhsün müəllim, görkəmli şairimiz İmadəddin Nəsiminin 600 illik yubileyi ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edib. Bu haqda nə deyə bilərsiniz?***

- Birmənalı şəkildə demək olar ki, Prezident İlham Əliyev tərəfindən 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan ənənənin davamıdır. Ulu Öndər hələ respublikaya rəhbərliyinin birinci dönəmində elmə, mədəniyyətə, ədəbiyyata və incəsənətə, xüsusilə də xalqımızın mənəvi sərvəti olan ana dilimizə böyük diqqət və qayğı ilə yanaşıb, bu yöndə bir sıra məqsədyönlü tədbirlər həyata keçirib. Nəsimi yaradıcılığının dilimizdə və ədəbiyyatımızda oynadığı rolu nəzərə alan ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə 1973-cü ildə Azərbaycanda Nəsiminin 600 illik yubileyi qeyd edilib.

Məlum olduğu kimi, ulu öndər Heydər Əliyev Azərbaycanda birinci dəfə hakimiyyətə 1969-ci ilin 14 iyulunda gəlib. Nəsiminin anadan olduğu tarix isə 1369-cu ilə təsadüf etdiyindən əslində onun 600 illik yubileyi 1969-cu ildə qeyd olunmalıydı. Təbii ki, Ulu Öndər rəhbərliyə gələn kimi Nəsiminin adının əbədiləşdirilməsi yönündə genişmiqyaslı tədbirlərin həyata keçirilməsi mümkünsüz idi. Bu səbəbdən Nəsiminin 600 illik yubileyinin təntənəli şəkildə qeyd olunması 1973-cü ildə baş tutub.

Beləliklə, məhz ümummilli lider Heydər Əlliyevin təşəbbüsü və təkidi sayəsində İmadəddin Nəsiminin 600 illik yubileyi Azərbaycanda təntənəli surətdə qeyd edilib. Bununla yanaşı, Ulu Öndər 1973-cü ildə böyük söz ustadının 600 illik yubileyinin UNESCO-nun tədbirlər planına daxil edilməsinə nail olub. Həmin tədbirlər zamanı şairin yubileyi beynəlxalq səviyyədə qeyd olunub. Yubiley çərçivəsində Azərbaycanda şairin əsərləri ərəb, fars, ingilis və başqa dillərə tərcümə olunub, onun ərəbcə və farsca yazdığı bəzi əsərləri isə doğma ana dilimizə tərcümə edilərək nəşr olunub. Həmçinin mənim ustadım, görkəmli alim Cahangir Qəhrəmanovun redaktəsi ilə Nəsiminin əsərlərinin 3 cilddə elmi-tənqidi mətni çap olunub.

Bundan əlavə, 600 illik yubiley çərçivəsində Nəsiminin adının o vaxt Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutuna verilməsi də təsadüfi deyil. Çünki Nəsimi irsinin araşdırılması yönündə aparılan bütün tədqiqatlar sübut edir ki, Azərbaycan ədəbi dilinin tarixində, onun zənginləşməsində dahi şairin böyük xidmətləri olub. Buna görə onun adının əbədiləşdirilməsi məqsədilə 1973-cü ildə bizim instituta Nəsiminin adı verilib. Bununla yanaşı, 1973-cü ildə "Nəsimi" bədii filmi çəkilib. Yubiley tədbirlərinin davamı olaraq 1979-cu ildə Bakının mərkəzində şairin möhtəşəm heykəli ucaldılıb.

Bu da təsadüfi deyil. Nəsimi yaradıcılığı elə yüksək zirvədədir ki, ona göz dikənlər olduqca çoxdur. Məhz bu baxımdan, Nəsiminin Azərbaycan şairi, ədəbiyyatımızın görkəmli nümayəndəsi olmasının UNESCO xətti ilə bütün dünyaya elan edilməsi, tanıdılması Ulu Öndərin uzaqgörən və müdrik siyasətinin nəticəsi idi.

Beləliklə, Nəsiminin yubileyinin ona layiq şəkildə qeyd edilməsi Ulu Öndərin ədəbiyyatımıza nə dərəcədə böyük dəyər verdiyinin əyani sübutudur. Onun layiqli davamçısı hörmətli Prezidentimiz İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 15 noyabr 2018-ci il tarixli və "2019-cu ilin Azərbaycan Respublikasında "Nəsimi İli" elan edilməsi haqqında" 11 yanvar 2019-cu il tarixli sərəncamlarını da həmin müdrik ənənənin davamı kimi qiymətləndirmək olar.

***- Azərbaycan Respublikası Prezidentinin sərəncamlarından irəli gələn tədbirlərin keçirilməsi və müvafiq işlərin görülməsi yönündə rəhbərlik etdiyiniz institutun qarşısında hansı mühüm vəzifələr durur?***

- Təbii ki, 2019-cu ilin Azərbaycanda "Nəsimi İli" elan olunması ustadın adını daşıyan Dilçilik İnstitutunda böyük şairin 650 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi yönündə planlaşdırılan tədbirlər üzrə məsuliyyətimizi daha da artırır. Belə ki, möhtərəm Prezidentimizin "2019-cu ilin Azərbaycan Respublikasında "Nəsimi İli" elan edilməsi haqqında" Sərəncamından əvvəl imzaladığı 15 noyabr 2018-ci il tarixli Sərəncamı bizim, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) humanitar sahə üzrə fəaliyyət göstərən institutlarının bütün əməkdaşları, o cümlədən şərqşünaslar, dilçilər, ədəbiyyatşünaslar qarşısında mühüm vəzifələr qoyur. Ona görə də 15 noyabr 2019-cu il tarixli Sərəncam imzalanan kimi biz Nəsimi irsinin araşdırılması yönündə hazırlıq işlərinə başladıq.

Bizim institut, əsasən, dilçilik üzrə araşdırmalar apardığı üçün Nəsiminin ana dilində yazdığı bütün əsərləri üzrə Azərbaycan dilində mükəmməl və geniş izahlı lüğətinin hazırlanması işlərinə başlamışıq. Onu da deyim ki, Nəsimi yaradıcılığında hər hansı bir sözün sufi, hürufi, fəlsəfi mənalarda işlədilməsi təcrübəsinə rast gəlinir. Ona görə də belə bir izahlı lüğətin nəşr olunmasına ehtiyac var. Azərbaycanda ilk dəfədir hazırlanması nəzərdə tutulan həmin lüğətdə sözlərin bütün mənalarını əks etdirməyə çalışacağıq.

Digər hazırlıq işlərinə gəlincə, institutumuzda Nəsiminin dilini hərtərəfli tədqiq etmək üçün "Nəsimi dil araşdırmaları qrupu" yaradılması nəzərdə tutulub. Nəsiminin əsərlərini hərtərəfli, geniş şəkildə araşdırmaq və bu işlərin əsasında Nəsimi haqqında ayrıca araşdırmalar toplusu nəşr etdirmək planlarımız var. Bununla yanaşı, institutumuzda Nəsiminin əsərlərinin dili üzrə müxtəlif mövzularda tədqiqatlar aparılıb. Bu tədqiqatların əks olunduğu monoqrafiyanın çap olunması nəzərdə tutulur.

Nəsmini daha geniş şəkildə təbliğ etmək üçün ilk növbədə şairin 600 illik yubileyi çərçivəsində ərəb əlifbası ilə nəşr olunan əsərlərinin elmi-tənqidi mətninin 3 cildliyinin yeni əlavələrlə tam şəkildə latın qrafikasında nəşri də nəzərdə tutulur. Çünki Nəsiminin elə əlyazmaları var ki, onları 1973-cü ildə əldə etmək mümkün olmayıb. Sevindirici hal odur ki, hazırda Nəsiminin dünyanın müxtəlif kitabxanalarında saxlanılan əl-



yazmaları aşkarlanıb və indi onları əldə etmək imkanımız var. Onları tədqiq edib, Nəsimi əsərlərinin yeni elmi-tənqidi mətninin çoxcildliyinə əlavə etmək olar.

***- Prezident İlham Əliyevin 15 noyabr 2018-ci il tarixli Sərəncamında Nazirlər Kabinetinə tədbirlər planı hazırlamaq tapşırılıb. Yəqin ki, həmin planın həyata keçirilməsi çərçivəsində AMEA-nın, habelə rəhbərlik etdiyiniz institutun da üzərinə xeyli iş düşəcək.***

- Qeyd olunan işlərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin 15 noyabr 2018-ci il tarixli və 11 yanvar 2019-cu il tarixli sərəncamlarının icrasından irəli gələn məsələlərin həlli və eyni zamanda İmadəddin Nəsiminin 650 illik yubileyinin layiqincə qeyd olunması məqsədilə AMEA-nın Rəyasət Heyətinin 6 fevral 2019-cu il tarixli qərarı ilə müvafiq Tədbirlər planı hazırlanıb. İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd olunması çərçivəsində Nəsimi adına Dilçilik İnstitutu və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Nəsimi dünyası: ədəbi irsi və poetik dili" mövzusunda müştərək konfrans keçirəcək. May ayında keçirilməsi nəzərdə tutulan konfransda həm ədəbiyyat, həm də dil məsələləri işıqlandırılacaq.

Nəsiminin yubileyi çərçivəsində nəşr olunacaq kitablara gəlincə, AMEA-nın müvafiq institutları tərəfindən "Nəsiminin həyat və yaradıcılığı" adlı monoqrafiyanın, "Nəsimi-650" elmi-biblioqrafik göstəricisinin, Nəsiminin indiyə qədər tərcümə olunmayan və nəşr olunmayan "Müqəddimətül-həqayiq", "Qiyamətnamə" əsərlərinin tərcümə edilməsi və Azərbaycan dilində çap olunması, Nəsiminin farsca divanının sətri tərcüməsi və nəşrinin həyata keçirilməsi planlaşdırılır. Tədbirlər planında, həmçinin Nəsiminin şəxsiyyəti, həyat və yaradıcılığı ilə bağlı dövri mətbuatda məqalələrin nəşri və alimlərin televiziya verilişlərində çıxışlarının, Nəsiminin həyat və yaradıcılığını əhatə edən sərginin, habelə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında "İmadəddin Nəsimi-650" mövzusunda kitab sərgisinin təşkili də nəzərdə tutulur. Həmçinin Nəsiminin əlyazmaları saxlanılan xarici ölkələrin arxivlərində işləmək və sənədlərin surətlərini əldə etmək məqsədilə AMEA-nın əməkdaşlarının İran, Türkiyə, Fransa, Böyük Britaniya və digər ölkələrə ezamiyyətləri təşkil ediləcək.

***- Möhsün müəllim, sonda Azərbaycan ədəbiyyatının inkişafında Nəsiminin xidmətlərini qısa şəkildə dəyərləndirə bilərsinizmi?***

- Biz Nəsiminin 600 illiyinin qeyd olunması çərçivəsində görülən işlərdən bəhs etdik. Amma onu da deyim ki, sovet ideologiyasının qoyduğu məhdudiyyətlər və çərçivələr Nəsiminin Azərbaycan ədəbiyyatının, fəlsəfəsinin, mədəniyyətinin inkişafında oynadığı rolu vaxtında tam şəkildə geniş ictimaiyyətə çatdırmağa imkan vermirdi. Bu birtərəfli yanaşma isə Nəsiminin az qala ateist kimi təqdim edilməsinə şərait yaradırdı. Amma fakt odur ki, Nəsiminin bütün əsərlərində "Qurani-Kərim"ə və hədislərə istinadlar var. Onun ilk mənbəyi də müqəddəs kitab idi, hətta öz fikirlərini "Qurani-Kərim" əsasında yayırdı. Nəsimi insana böyük dəyər verir, onu ucaltmaqla bir növ gələcək təhlükələrdən qorumaq istəyirdi. Sözsüz ki, Allah-Təalanın yaratdığı ən uca varlıq insandır, ən kamili də insandır. Nəsimi fəlsəfəsinə görə, yalnız kamil insan Allahı dərk edə bilərdi. Buna görə də kamil insanın Allahı dərk edərək ona qovuşacağına inanır, bütün sufilər kimi, Nəsimi də bu dünyanı fani, müvəqqəti hesab edirdi.

Belə bir maraqlı faktı deyim ki, elmi mənbələr və tarixi qaynaqlar sübut edir ki, Nəsimi edam edilməmişdən qabaq, üç dini cərəyanın qaziləri ("Qazi-ul-Quzzat") onu mühakimə edəndə şairin əsərlərində dinə qarşı çıxış eməsi barədə heç nə tapa bilməyiblər. Bu halda Misir məmlük sultanı əl-Məlik əl-Müəyyədə müraciət ediblər ki, Nəsimi haqqında hökmü onun özü çıxarsın. Əl-Müəyyəd onun edamı haqqında qərarı ona görə çıxarıb ki, əleyhdarları Nəsimini qəbul edir və yaydığı fikirlərdən ona qarşı istifadə edirdilər. Yəni, Nəsiminin edam edilməsində nəinki dini, əksinə siyasi məsələ daha çox rol oynayıb.

Nəsiminin Azərbaycan milli ədəbi dilinin zənginləşdirilməsi, həmçinin saflaşdırılması yönündə mühüm xidmətləri olub. Təkcə bir nümunə deyim: "Düşdü yenə dəli könül gözlərinin xəyalinə, Kim nə bilir bu könlümün fikri nədir, xəyali nə". Görün nə qədər saf, təmiz və axıcı şəkildə yaradıb. Yəni 600 il keçməsinə baxmayaraq, XIV-XV əsrlərdə yaşayan Nəsiminin dili ilə müasir Azərbaycan dili arasında fərq yoxdur, bugünkü oxucu üçün anlaşılandır. Halbuki ingilislər Uilyam Şekspirin XVI-XVII əsrlərdə yazdığı əsərləri indi başa düşmürlər. Onu da deyim ki, Nəsiminin şeirləri olduqca oynaq və ahəngdardır, qəzəlləri musiqi üzərində köklənib. Mən təəssüf edirəm ki, Nəsiminin əsərlərinə musiqilər az bəstələnib, onun şeirlərinə yeni-yeni musiqilər bəstələmək lazımdır.

# Naxçıvan: uğurlu inkişaf st

*Müasir dünyamızda qlobal iqtisadi böhranın mənfi təzahürlərinin meydana gəldiyi, tarazlaşma proseslərinin ağrılı keçdiyi bir dövrdə sosial-iqtisadi inkişafa nail olmaq və ya mövcud inkişafın dayanıqlığını təmin etmək yalnız elmi əsaslara söykənən düzgün iqtisadi siyasət nəticəsində mümkündür. Belə bir şəraitdə ölkəmizlə quru yolu ilə birbaşa əlaqəsi olmayan, əlverişsiz geopolitik transformasiyalar nəticəsində ana vətəndən ayrı düşərək blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının daxili resurslar hesabına yüksəlişini inamla davam etdirməsi, yeni-yeni nailiyyətlərə imza atması müstəqil Azərbaycan dövlətinin ən böyük uğurlarından biridir. Bütün bunların başlıca səbəbi ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının muxtar respublikada Naxçıvan Ali Məclisinin sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilməsidir. Faktlara nəzər yetirdikdə əminlik yaranır ki, muxtar respublikada mövcud olan ictimai-siyasi sabitliyin fonunda davam etdirilən bu siyasət daha böyük uğurlara yol açmaqdadır.*

Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib. Bu gün çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində məqsədyönlü islahatların aparılması, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvan sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qorumaqdadır. Qeyd edək ki, Islam mədəniyyətinin paytaxtı və ölkəmizin Gənclər paytaxtı kimi mühüm tarixi missiyanı yerinə yetirən Naxçıvanda iqtisadi və sosial sahələrin inkişafını təmin etmək üçün tədbirlər ötən 2018-ci il ərzində də davam etdirilib, dinamik inkişaf qorunub saxlanılıb.



İnkişafın ən mühüm göstəricilərindən biri, yəni istər maddi istehsal, istərsə də qeyri-maddi xidmətlər sahələrində iqtisadi fəaliyyətin son nəticəsini xarakterizə edən amillərdən biri ümumi daxili məhsulun artım həcmidir. Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, muxtar respublikada sənaye müəssisələri, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması, emalı və satışı kompleksləri yaradılıb, bir sıra ərzaq məhsulları üzrə daxili istehsal xeyli artıb. Bütün bu müsbət proseslər ümumi daxili məhsulun artımına səbəb olub. Belə ki, ötən il ümumi daxili məhsul istehsalının həcmi 2 milyard 773 milyon manatdan çox olub. Bu da bir il öncəki müvafiq göstəricini 1,3 faiz üstələyir. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrünə nisbətən 1,9 faiz artaraq 6101 manatı ötüb.

Bir sıra istehsal sahələrində məhsul istehsalının həcminin artması, investisiya fəallığının güclənməsi, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi muxtar respublikanın iqtisadi dayaqlarını xeyli möhkəmləndirib. 2018-ci il ərzində iqtisadiyyatın əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabət qabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində mövcud layihələrin icrası davam etdirilib, stimullaşdırıcı tədbirlər həyata keçirilib. Bu sahədə mühüm malların istehsalının təmini muxtar respublikada sənayenin iqtisadiyyatda xüsusi çəkisini qoruyub saxlayıb. Ötən il ərzində ümumi daxili məhsulun tərkibində ilk yeri 27.4 faizlik payla sənaye sahəsi tutub və maddi istehsalın payı 58,6 faiz təşkil edib.

Muxtar respublikada quruculuq və abadlıq işləri geniş vüsət alıb. Yeni parklar salınır, inzibati binalar, o cümlədən, məktəblər, uşaq bağçaları, səhiyyə ocaqları, idman obyektləri, icra nümayəndəlikləri və bələdiyyə binaları, ən modern üslubda lakin milli və yerli memarlıq xüsusiyyətləri nəzərə alınmaqla yüksək sürətlə və zövqlə inşa edilib vətəndaşların ixtiyarına verilir. Bütün obyektlər müasir komunikasiya, o cümlədən, yüksək sürətli internetlə tam təmin edilib.

Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Naxçıvanda əsas prioritet sahələrdəndir. Ekspertlər bu sahələr arasında kənd təsərrüfatının əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, muxtar respublika əhalisinin 70 faizi kəndlərdə yaşayır. Müasir dövrdə ən aktual problemlərdən biri kəndlərdən şəhərlərə köçməyin kütləvi hal almasıdır. Naxçıvanda isə belə bir problem yoxdur. Kəndlərdə ticarət və xidmət obyektləri daxil olmaqla hər cür zəruri infrastrukturun yer aldığı nümunəvi kənd mərkəzləri yaradılıb. Habelə, kəndlərdə yaşayan əhalinin məşğulluğu təmin edilib. İnsanların kənd təsərrüfatı ilə məşğul olmaları, bol məhsul əldə etmələri üçün şərait yaradılıb. Yaşayış məntəqələrində müasir infrastrukturun qurulması, ölkəmizdəki ən keyfiyyətli yolların çəkilməsi, qazın, işığın davamlı verilməsi, bütün kəndlərin telefonlaşdırılması, kənddə şəhər rahatlığının ən yüksək səviyyədə təmin olunması insanların torpağa bağlılığını daha da artırıb, kənd təsərrüfatının inkişafını təmin edib.



**SİYAVUŞ NOVRUZOV,**
*Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini*

Məlumat üçün bildirək ki, bu ilin məhsulu üçün muxtar respublikada 61 min 935 hektar sahədə əkin aparılıb. Bu da 2017-ci ilin məhsulu üçün əkilmiş sahədən 404 hektar çoxdur. Aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə ötən il ümumilikdə 5 milyon 818 min manatdan artıq güzəştli kredit verilmişdir. Məhz görülən məqsədyönlü işlərin nəticəsidir ki, ötən il 480 milyon manatdan artıq kənd təsərrüfatı məhsulu istehsal olunmuş, 101 milyon 781 min ABŞ dollarından artıq məhsul ixrac olunmuşdur.

Kənd təsərrüfatının əsasını təşkil edən taxılçılıq aqrar sektorun digər bölmələrinin inkişafında həlledici rol oynayır. Taxıl öz kaloriliyinə görə insanın ərzaq balansı rasionunun yarısını təşkil edir. Bu sahənin inkişafına qayğı, diqqət göstərmədən bir çox sahələrin inkişafı mümkün deyil. Taxıl istehsalının artırılması blokada vəziyyətində yaşayan Naxçıvan üçün xüsusilə əhəmiyyətlidir. Sevindirici haldır ki, bu sahə muxtar respublikada hər il daha da inkişaf etdirilir, yeni-yeni nailiyyətlər əldə olunur. Ötən dövrdə muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılıb və 2018-ci ilin məhsulu üçün əkilmiş 32 min 483 hektar sahədən 97 min tondan artıq məhsul götürülüb.

Yeri gəlmişkən qeyd edək ki, regionun strateji əhəmiyyətini nəzərə alaraq və təhlükəsizlik mülahizələri rəhbər tutularaq muxtar respublikada əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə qida təhlükəsizliyi sistemi ən yüksək səviyyədə qurulmuşdur.

Kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması, eyni zamanda, muxtar respublika əhalisinin əkinçilik və heyvandarlıq məhsullarına olan tələbatının ödənilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına və aqrar istehsal məhsullarının ixraca çıxışının təmin olunmasına, eləcə də bu sahədə rəqabətin daha da güclənməsinə şərait yaradır. Ötən il kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı istiqamətində tədbirlər davam etdirilib, 17 heyvandarlıq təsərrüfatı yaradılıb, ümumilikdə, bank və kredit təşkilatları tərəfindən bu sahəyə 4 milyon 950 min 100 manat həcmində kreditlərin verilməsi təmin olunub.

Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkanlar yaradıb, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırıb. Naxçıvanda həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlib. Belə ki, ötən il ərzində muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 13 milyon 790 min 800 manat təşkil edib. Məhz yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal edilir. Əlamətdar haldır ki, 108-si ərzaq, 242-sı qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmaqdadır. Təkcə ötən il muxtar respublikada 2827 yeni iş yeri yaradılıb ki, bunun da 2782-i və ya 98,4 faizi daimi iş yerləridir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə-ixtisas təhsili müəssisələrində 2753 nəfər müxtəlif peşələrə yiyələnib.





Muxtar Respublikada aparılan

# trategiyası yeni mərhələdə



quruculuq-abadlıq, muzeylər, çoxəsrlik tarixi abidələr, inkişaf etmiş infrastruktura,otellər şəbəkəsi və cinayətkarlığın olduqca aşağı səviyəsi bölgəni həm də turizm üçün çox cəlbedici bir məkana çevirmişdir. Belə ki, təkcə ötən il Naxçıvana yarım milyona yaxın turist səyahət etmişdir.

Lakin təəssüflər olsun ki, bu gün ölkəmizdə bəzi şəxslər Naxçıvan Muxtar Respublikasının mövcudluğunun məqsədyönlülüyünü şübhə altına almaq, onun hüquqi statusuna kölgə salmaq istiqamətində uğursuz cəhdlər göstərirlər. Iddianın biri bundan ibarətdir ki, guya Naxçıvanın MR-in mövcudluğu Azərbaycan Respublikasının unitar dövlət quruluşu ilə bir araya sığmır. Halbuku, azacıq tarix bilgisi olan şəxs muxtar respublikanın hansı hərbi-siyasi şərtlər altında formalaşdığını və anklav formada Azərbaycandan aralı düşdüyünü yaxşı bilir. Belələri anlamır ki, Naxçıvan MR-nin hüquqi statusu təkcə Azərbaycan konstitusiyası ilə müəyyənləşmir. 1921-ci ildə qəbul olunmuş Qars və Moskva müqavilələrinə görə bölgənin statusu həm də beynəlxalq hüququn əhatə dairəsinə daxil olur. Azərbaycan qanunvericiliyinə görə isə beynəlxalq hüququn yerli hüquq normalarına münasibətdə üstünlüyü mövcuddur. Yəni biz istəsək də birtərəfli qaydada bu statusu ləğv edə bilmərik. Ümumiyyətlə, Naxçıvan MR-a qarşı bu tip cəhdlər hələ Mütəllibov və AXC-Müsavat dönəmində də göstərilirdi. Onlar hətta "prezidentin Naxçıvan üzrə xüsusi nümayəndəsi" kimi qondarma və antikonstitusion vəzifə də icad etmişdilər. Onların Naxçıvana göndərdiyi emissarlar regionda qarışıqlıq yaratmağa çalışır, ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərirdilər. Onlar bununla həm də Ulu öndər Heydər Əliyevin Naxçıvanın rəhbəri kimi ölkə miqyasında gündən-günə yüksələn nüfuzuna zərbə vurmaq məqsədi güdürdülər. Buna nail olmadıqda isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olması müddəasını konstitusiyadan çıxararaq Heydər Əliyevin siyasi perspektivinə mane olmağa çalışdılar. Lakin siyasi proseslərin sonrakı inkişafı onları bir daha haqsız çıxardı və xalq onların özlərini hakimiyyətdən süpürüb atdı.



Digər bir əsassız iddia Naxçıvan MR Ali Məclisinin sədrinin səlahiyyətlərinə yönəlib. Halbuki, Azərbaycan Respublikası Konstitusiyasının 136-cı maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. Bu konstitusion bir səlahiyyətdir və yalnız referendumda dəyişilə bilər. Halbuki, bunu etmək üçün heç bir hüquqi-ictimai zərurət yoxdur.



Prezident İlham Əliyevin xüsusi sərəncamı ilə yaradılan və cənab Vasif Talıbovun birbaşa diqqət və qayğısı ilə maddi-texniki təchizatı gündən-günə güclənən Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu bu gün sözün əsl mənasında düşmənə göz dağıdır. Bu ordunun təkcə ötən il keçirdiyi əməliyyat nəticəsində minlərlə hektar vətən torpağı düşmən işğalından azad edildi və hazırda əkin-biçinə yararlı hala gətirilərək bölgə əhalisinin rifahına xidmət edir. Habelə, yeni azad edilmiş yüksəkliklərdən Ermənistanın bütün strateji komunikasiyaları birbaşa zərbə altında qalır və düşməni vahimə içərisində saxlayır. Indi bəzilərinin bu ordunun adına və ya funksiyalarına hər hansı kölgə salmaq cəhdi düşmən dəyirmanına su tökməkdən başqa bir şey deyil. Belə iddialar yalnız təəssüf doğurur və düşünürəm ki, onları əlavə şərh etməyə ehtiyac yoxdur.



Bəziləri hətta Naxçıvan sərhədlərində Azərbaycandan gedən malların niyə gömrükdə yoxlanıldığı sualını da verirlər. Bu şəxslər başa düşmür ki, Azərbaycanın Naxçıvanla birbaşa quru əlaqəsi olmadığı üçün tranzit ölkələrin ərazisindən istifadə etməyi zəruri edir. Yad ərazilərdə isə yüklərin içərisinə ən təhlükəli əlavələr edilə bilər. Bu isə Naxçıvanın, onun əhalisinin təhlükəsizliyinə və sağlamlığına qarşı istənilən təxribatı törətmək niyyətində olan bir sıra xarici dövlətləri şirnikləndirə bilər. Düşünürəm ki, belə adi həqiqətləri anlamaq elə də çətin deyil.

Başqa bir həqiqətə uyğun olmayan arqument ondan ibarətdir ki, guya Naxçıvan MR-in rifah halını yüksəltmək üçün bölgə azad iqtisadi zona olmalıdır və deməli həm də sərhədlərində gömrüksüz ticarət etməlidir. Halbuki, Naxçıvanın yuxarıda da sadaladığımız yüksəlişdə olan iqtisadi göstəriciləri belə niyyətlərin tam əsassız olduğunu sübut edir və zəruriliyini ciddi şübhə altına alır. Habelə belə addımlar bölgəyə özü ilə bərabər maliyyə fırıldaqçılarını və müxtəlif kriminal ünsürləri də cəlb edəcəkdir. Eyni zamanda düşmən dövlətlərin kəşfiyyat orqanlarının bölgədə fəallığı arta və Naxçıvan kimi strateji bir ərazinin təhlükəsizliyi təhdid altına düşə bilər. Belə bir şəraitdə milli-mənəvi dəyərlərimizə vurulacaq zərbənin isə ümumiyyətlə heç nə ilə konpensasiya etmək mümkün olmaya bilər. Halbuki, Naxçıvan ölkəmizin kriminogen baxımdan ən sabit və cinayətkarlığın ən az baş verdiyi regionudur.

Bir məsələni də vurğulamaq yerinə düşər ki, ölkənin və onun hər hansı bir regionunun inkişafı ilə əlaqədar istənilən vətəndaş öz proqram və layihələrini müvafiq dövlət qurumlarına təqdim edə bilər. Zəruri təhlil və müzakirələrdən sonra təqdim olunmuş layihənin həyat qabiliyyətliliyi və vacibliyi mütləq dəyərləndirilir. Lakin əsaslandırılmamış arqumentləri, ideyaları adda-budda və pərakəndə şəkildə KİV-lərdə müzakirəyə çıxarmaq hesab edirəm ki, nəinki konstruktiv addım deyil, hətta adi populizmdir.



Amma aydın məsələdir ki, xalqımızın və ictimai rəyin tələb və gözləntiləri tamam fərqlidir. Belə ki, Vətənimizin ayrılmaz bir parçası olan Naxçıvan bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin və Naxçıvan Ali Məclisinin sədri hörmətli Vasif Talıbovun uğurlu idarəçiliyi sayəsində öz intibah dövrünü yaşayır. Naxçıvan əhalisi gələcəyə böyük inamla baxır və bu günkü nailiyyətləri gələcək müvəffəqiyyətlərin təminatı kimi görür.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu və dünyanın 70 ölkəsinin 5 mindən artıq şirkət və təşkilatını birləşdirən "Caspian European Club" 2017-ci ildə ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirdiyi zaman Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq -liderliyə yüksəlib.

Göründüyü kimi, 30 ilə yaxındır, blokada şəraitində yaşasa da, Naxçıvan Muxtar Respublikası hərtərəfli və dayanıqlı inkişafa nail olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə deyib: "...Naxçıvan uğurla, sürətlə inkişaf edir. Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm".

Yuxarıda sadalananlar Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə inkişafa nail olunmasının göstəriciləri, böyük uzaqgörənliklə müəyyənləşdirilmiş inkişaf strategiyasının nəticələridir. Bu isə muxtar respublikanın şəhər və kəndlərinin simasını köklü şəkildə dəyişdirir. Hazırda Naxçıvanın hər bir sakini quruculuğun, sosial-iqtisadi inkişafın, davamlı yüksəlişin real nəticələrini öz gündəlik həyatında hiss etməkdədir.

# Azərbaycan Slavyan Gənclərinin Birinci Forumu







**Dünən Bakı Slavyan Universitetində (BSU) Azərbaycan Slavyan Gənclərinin Birinci Forumu öz işinə başlayıb. Forum Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Slavyan Gəncləri Assosiasiyasının (ASGA) birgə təşkilatçılığı ilə keçirilib.**

Forum Dövlət himninin səsləndirilməsi ilə açılıb, himndən sonra BSU-nun "Arzu" rəqs ansamblının ifasında "Yallı" nümayiş olunub.

Sonra Bakının tarixi yerlərinin, milli mədəniyyət nümunələrimizin görüntülərindən ibarət video-çarx təqdim edilib.

ASGA-nın sədri Səbuhi Abbasov Azərbaycan Slavyan Gənclər Assosiasiyasının fəaliyyətindən danışıb. O qeyd edib ki, ASGA 2006-cı ildə qeydiyyatdan keçib və bu günə qədər 200-ə yaxın layihə reallaşdırıb. Hazırda ASGA-nın Rusiya, Ukrayna, Polşa respublikalarında nümayəndəliklərinin fəaliyyət göstərdiyini deyən sədr bildirib ki, təşkilatın əsas məqsədi respublikamızı slavyan ölkələrində təbliğ etmək, gənclərarası innovativ informasiyanı təmin etməkdir. S.Abbasov ASGA-nın bu gün bir sıra rəsmi dövlət qurumları ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdıraraq bu qurumların sırasında Bakı Slavyan Universitetinin xüsusi rolu olduğunu vurğulayıb. O qeyd edib ki, İCMAL.az Analitik Təhlil Mərkəzinin texniki dəstəyi ilə 2018-ci ildə ASGA tərəfindən keçirilən rəy sorğusuna əsasən, BSU-nun rektoru, professor Nurlana Əliyeva "İlin rektoru", BSU isə "İlin Ali məktəbi" seçilib. ASGA-nın ilk Forumunun BSU-da keçirilməsinin təsadüfi olmadığını deyən Səbuhi Abbasov BSU ilə ASGA-nın fəaliyyət istiqamətlərində üst-üstə düşən məqamlardan, bu universitetin slavyan ölkələri ilə sıx əlaqələrindən söz açıb.

BSU-nun rektoru, professor Nurlana Əliyeva ASGA-nın qısa müddət ərzində böyük uğurlara imza atdığını, Azərbaycan və slavyan ölkələrinin çoxsaylı gənclərini ətrafına toplaya bildiyini qeyd edib. BSU rektoru cəmiyyətimizdə gənclərin rolunun artdığını, həyatın müxtəlif sahələrində gənclərə daha çox meydan verildiyini bildirib. O, Azərbaycan Respublikası Prezidentinin gənclərə qayğısından danışaraq tələbə gənclərin təqaüdlərinin artırılması, onların işlə təmin edilməsi istiqamətində son zamanlar görülən işlər barədə müfəssəl məlumat verib. N.Əliyeva gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin, onların mənəvi-əxlaqi keyfiyyətlərinin yüksəldilməsinin günün vacib məsələlərindən olduğunu diqqətə çatdırıb. Azərbaycanın dövlət siyasətinin beynəlxalq arenada daim dəstəkləndiyini deyən Nurlana Əliyeva ASGA tərəfindən keçirilən Forumu dövlətimizin gənclər siyasətinin göstəricisi kimi qiymətləndirib. O bildirib ki, Azərbaycan Slavyan Gənclərinin Birinci Forumunun təməlində Ümimmilli Lider Heydər Əliyevin siyasi ruhu dayanır.

Azərbaycan Respublikasının Gənclər Fondunun sədri Fərid Cəfərov Azərbaycanın tarixi abidələrinin, milli mətbəxin xarici qonaqlara təqdim edilməsində Forumun xüsusi rol oyanayacağını deyib, bu Forumun növbəti illərdə də keçirilməsi təklifini irəli sürüb. O, Bakı Slavyan Universitetində ölkəmiz üçün mütəxəssislər yetişdirildiyini, BSU-nun xarici ölkələrlə körpü rolu oynadığını deyərək bu universiteti bitirən məzunların hazırda Azərbaycanın müxtəlif rəsmi qurumlarında yüksək vəzifə sahibi olduqlarını vurğulayıb. F.Cəfərov nitqinin davamında Gənclər Fondu tərəfindən nəzərdə tutulan layihələr barədə məlumat verib.

Milli Məclisin deputatı Sahib Alıyev multikulturalizmin Azərbaycanda təkcə dövlət siyasəti deyil, həyat tərzi olmasından, mədəniyyətlərarası münasibətlərin inkişafında xalqlar dostluğunun vacibliyindən söz açıb. Azərbaycan multikulturalizminin xarici ölkə vətəndaşlarına nümayiş edilməsində Forumun mühüm xidməti olacağını deyib.

Milli Məclisin deputatı Adil Əliyev BSU-nun Azərbaycan xarici siyasətinin xüsusi siması olduğunu vurğulayaraq ASGA və BSU-nun birgə fəaliyyətini yüksək dəyərləndirib, Forumun işinə uğurlar arzulayıb.

Milli Məclisin deputatı Elşən Musayev Forumun təşkilatçılarına minnətdarlığını bildirib, Azərbaycan Parlamentinin fəaliyyətindən, onun ölkə gənclərinin inkişafındakı rolundan söz açıb.

Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasında Gənclər Parlamentinin sədri, Rusiya vətəndaşı Mariya Voropayeva ASGA-nın həyata keçirdiyi yeni layihənin Azərbaycan və Rusiya gənclərinin ikitərəfli əlaqələrinin inkişafına, parlamentlər səviyyəsində əməkdaşlığın genişləndirilməsinə, beynəlxalq parlament təşkilatlarında qarşılıqlı fəaliyyətə töhfə verəcəyini deyib. Nitqinin davamında M. Voropayeva Rusiya Gənclər Parlamentinin fəaliyyətinə dair slaydı iştirakçılara təqdim edib.

Moskva azərbaycanlıları İcmasının sədri Şamil Tağıyev Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının Azərbaycan İcması Evinin damı altında birləşməsinin böyük əhəmiyyət kəsb etdiyini, bunun diasporun yüksək səviyyədə inkişafı üçün uğurlu addım olduğunu qeyd edib. Forumun Azərbaycan və Slavyan ölkələrinin gəncləri arasında münasibətlərin yüksək səviyyədə inkişafında körpü rolunu oynayacağını deyən Ş.Tağıyev bu layihənin işinə Moskva azərbaycanlıları İcması tərəfindən hər zaman dəstək verməyə hazır olduqlarını dilə gətirib.

Qeyd edək ki, 21-24 fevral tarixlərini əhatə edən Forumun qrafikində Heydər Əliyev Mərkəzinə və Tarix muzeyinə səyahət, həmçinin "Qlobal dünyada dini dəyərlərin qorunması", "Multikultralizm Azərbaycan modeli: Gənclərin gözü ilə" mövzusunda müzakirələr nəzərdə tutulub.

**BSU Mətbuat Xidməti**

## Dövlət Komitəsindən Brüsseldəki Qarabağ mitinqinə çağırış



Diasporla İş üzrə Dövlət Komitəsi dünya azərbaycanlılarına müraciət edib.

Komitə xaricdə yaşayan soydaşlarımızı fevralın 23-də Brüsseldə Ümumavropa Qarabağ mitinqində iştirak etməyə çağırır.

Müraciətdə qeyd olunur: "Azərbaycan xalqı hər zaman ümummilli məsələlərdə birlik və bərabərlik nümayiş etdirib. Xaricdə yaşayan soydaşlarımız Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında daim fəallıq göstərərək Azərbaycanı narahat edən problemlərə biganə qalmayıblar.

Hər birimizə məlum olduğu kimi, Xocalı soyqırımının 27-ci ildönümü ərəfəsindəyik. Bununla əlaqədar olaraq, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının təşəbbüsü ilə 23 fevral tarixində yerli vaxtla saat 14:00-da Avropanın siyasi mərkəzi olan Brüsseldə Ümumavropa Qarabağ mitinqi keçiriləcək. Mitinq zamanı yüzlərlə soydaşımız "Azərbaycan sülh istəyir!", "Qarabağa geri qayıtmaq istəyirik!" "Xocalıya ədalət!", "Dilqəm və Şahbaza azadlıq!" şüarları ilə Avropa Parlamentinə və digər nüfuzlu beynəlxalq təşkilatlara çağırış edəcəklər.

Əziz soydaşlarımız, sizləri mitinqdə fəal olmağa, haqq səsimizin beynəlxalq aləmə çatdırılmasında aktiv iştirak etməyə çağırırıq.

Dəyərli həmvətənlərimiz, bu həm Xocalı soyqırımı qurbanlarının, həm də şəhidlərimizin müqəddəs ruhları qarşısında mənəvi borcumuzdur".

*Politoloq:*

## Müxalifət özü də bilir ki, bu aksiyalar mənasızdır, xalqın iradəsini ifadə etmir



Xalqın müxalifətə dəstəyi, inamı yoxdur. Azərbaycan xalqı Prezident İlham Əliyevi dəstəkləyir. Biz bunu Prezident İlham Əliyevin hakimiyyətə gəldiyi ilk gündən indiyədək ardıcıl, davamlı bir mövqe kimi müşahidə edirik. Bunu Trend-ə politoloq Nəzakət Məmmədova deyib.

Onun fikrincə, müxalifətin mitinqlə bağlı müraciətinə icazə verilməməsinin tam əsası var: "Demokratiya azlığın çoxluğa tabe olmasıdırsa, o zaman müxalifətin tələbinə icazə verilməməsi demokratiyanın pozulması deyil. Çünki Bakı şəhərində milyonlarla insan yaşayır, mitinqlərdə isə cəmi bir neçə min insan iştirak edir və həmin insanların mənafeyi də bir neçə milyonluq əhalinin mənafeyindən üstün ola bilməz. Dövlət bu məsələdə əksəriyyət təşkil edən, onun siyasətini dəstəkləyən, mitinqlərə qatılmayan milyonlarla vətəndaşının marağını daha üstün tutmağa borcludur. Buna görə də mitinqə icazənin verilməməsi doğru və ədalətli yanaşmadır".

Politoloq vurğulayıb ki, xalq bu mitinqlərin mənasız olduğunu yaxşı başa düşür və buna görə də bu oyunlarda iştirak etmək istəmir: "Müxalifət özü də bilir ki, yüz minlərin, milyonların iştirakı olmadan keçirilən bu toplantılar mənasızdır, xalqın iradəsini ifadə etmir. Hakimiyyətin mənbəyi xalqdır və xalq hansı siyasi qüvvəni dəstəkləyirsə, hakimiyyət də onun haqqıdır".

N.Məmmədova qeyd edib ki, müxalif qüvvələr Prezident-vətəndaşlar, dövlət-xalq münasibətlərinin keyfiyyətcə yeni mərhələyə daxil olmasından narahat olaraq mitinqlər təşkil etməyə, bu birliyi pozmağa, xalqın inamını sarsıtmağa cəhd göstərirlər: "Eyni zamanda, müxalif qüvvələrin bağlı olduqları xarici mərkəzlər müxalifət liderlərinə bu mitinqləri təşkil etmək təlimatı verməklə ölkə rəhbərliyinə təzyiqlər göstərmək, onu güzəştlərə sövq etmək istəyirlər. Bunlardan ən təhlükəlisi Qarabağ danışıqları ilə bağlı ola bilər. Bu, daxildə iğtişaş yaratmaq, sabitliyi pozmaq yolu ilə hakimiyyətin diqqətini bu məsələlərə yönəldib Azərbaycanı güzəştə vadar etmək, beləliklə, Ermənistanda hakimiyyətə gətirdikləri qüvvələrin təhlükəsizliyini təmin etmək və möhkəmlənməsinə şərait yaratmaqdır".

Onun sözlərinə görə, mitinqə çağırış edən, habelə xaricdən xalqı iğtişaşa səsləyən "söyüş müxalifəti" indiki şəraitdə bunun ölkə üçün nə qədər təhlükəli olduğunu anlasa, yaxşı olar:

"Habelə hazırkı mitinqlər regionda gedən proseslərlə əlaqədar ola bilər. Onları təlimatlandıran xarici güc mərkəzləri regiondakı rəqib dövlətlərlə sövdələşmək, yaxud haqq-hesab çəkmək üçün Azərbaycandakı radikal qüvvələrdən istifadə edirlər. Azərbaycan xalqı isə bu çirkli oyunlarda iştirak etmək istəmir və bu, ən doğru mövqedir".

# Bölgə mətbuatı peşəkarların yetişdiyi məktəbdir

## Əflatun Amaşov bölgə qəzetinin 95 illik yubileyi ilə bağlı mərasimdə iştirak edib



**Azərbaycan Mətbuat Şurasının (MŞ) sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Salyan rayonunun ictimai-siyasi qəzeti olan "Qələbə"nin ilk nömrəsinin çapdan çıxmasının 95 illiyi münasibətilə keçirilmiş mərasimdə iştirak edib. Salyan Rayon İcra Hakiyyətinin başçısı Sevindik Hətəmovun, rayon ictimaiyyətinin nümayəndələrinin, qonşu Neftçalanın "Gündoğar", Sabirabad rayonunun "Suqovuşan" qəzetlərinin təmsilçilərinin iştirak etdikləri toplantı, həmçinin rayonda nəşr olunan "Ana Kür" qəzetinin fəaliyyətə başlamasının 10 illiyinə də həsr olunub.**

Ulu öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarətlə başlamış tədbiri giriş sözü ilə Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov açaraq hər iki nəşrin yaradıcı kollektivinə təbriklərini çatdırıb, Salyanın mədəni, ictimai-siyasi həyatının salnaməsinin yaradılmasında "Qələbə" qəzetinin xidmətlərini xüsusi vurğulayıb. S.Hətəmov rayondakı Heydər Əliyev Mərkəzində "Qələbə" qəzetinin ulu öndər Heydər Əliyevin Salyandakı görüşlərini əks etdirən hər nömrəsinin çox qiymətli tarixi sənəd kimi qorunduğunu diqqətə çatdırıb. İcra başçısı çıxışında, həmçinin Prezident İlham Əliyevin tapşırığı ilə Salyanda həyata keçirilən infrastruktur layihələrinin yubilyar nəşrlərdə peşəkarlıqla işıqlandırıldığına diqqət çəkib. Sonra S.Hətəmov qəzet əməkdaşlarının bir qrupuna Fəxri fərman təqdim edib.

MŞ sədri Ə.Amaşov toplantıdakı çıxışında ölkəmizdə fikir, söz, ifadə azadlığı şəraitində nəşr edilən qəzetlərin fəaliyyətindən, bölgə mətbuatının tarixində "Qələbə"nin dəst-xəttindən söz açıb. Bildirib ki, ümumən bölgə mətbuatı peşəkarların yetişdiyi məktəbdir. Cəmiyyətdə öz dəst-xətti ilə seçilmiş neçə-neçə fikir adamı bu sahədəki ilk kövrək addımlarını məhz bölgə mətbuatında atıb. Bu mənada 95 yaşını qeyd edən "Qələbə" qəzeti də xüsusi yer tutmaqdadır. Sevindirici haldır ki, internet medianın ənənəvi medianı sıxışdırdığı indiki şəraitdə Salyan Rayon İcra Hakimiyyəti, ümumən rayon rəhbərliyi "Qələbə"nin gələcək üçün salnamə funksiyasına ciddi önəm verir, nəşrin problemlərinin həllinə, yayımına həssas münasibət göstərir. Bu, digər rayonlar üçün də nümunə olmalıdır.

Ə.Amaşov, həmçinin artıq 10 ildir ki, Salyanda nəşr edilən "Ana Kür" qəzetinin ekoloji maarifləndirmə sahəsindəki fəaliyyətini də yüksək qiymətləndirib, "Qələbə" və "Ana Kür" qəzetlərinin baş redaktoru Rüstəm



Məlikova Şuranın təbrik açıqlamalarını və qiymətli hədiyyəsini təqdim edib.

"Qələbə" və "Ana Kür" qəzetlərinin baş redaktoru Rüstəm Məlikov rəhbərlik etdiyi nəşrlərin fəaliyyəti barədə geniş məlumat verib. "Qələbə" qəzetinin keçdiyi tarixi yoldan ətraflı söz açıb.

Yubiley tədbirində şair Oqtay Rza, "Qələbə" qəzetinin veteranı, Əməkdar jurnalist Rəhim Hüseynzadə, Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri Nəbi İbrahimov, rayon Ziyalılar Birliyinin sədri Allahverdi Piriyev, Sabirabadın "Suqovuşan" qəzetinin əməkdaşı Elçin Nəsibli və başqaları çıxış edərək rayon qəzeti ilə bağlı xatirələrini bölüşüb, yaradıcı kollektivə uğurlar arzulayıblar.

## "NOVATEK" QAZ YATAQLARINA AYRILAN VƏSAİTİ ARTIRACAQ



Rusiyanın "Novatek" qaz hasilatı şirkəti 2019-cu ildə əsaslı xərclərini ikiqat artırmağı planlaşdırır. Şirkət cari ildə yeni yataqlara, liman qurğularına və digər layihələrə 185 milyard rubl (2,8 milyard dollar) vəsait ayırıb. Rusiyanın təbii qaz hasilatı üzrə ən böyük özəl şirkəti olan "Novatek" ilk mayeləşdirilmiş təbii qaz emalı zavodunu 2017-ci ildə Yamalda inşa etmişdi və bununla qlobal mayeləşdirilmiş təbii qaz bazarında 5% pay əldə etmişdi.

"Novatek" özünün ikinci mayeləşdirilmiş təbii qaz zavodunu tikməyə hazırlaşır. Tikinti işlərinə 2022-2023-cü illərdən start veriləcəyi gözlənilir. Şirkətin rəhbəri Leonid Mikelson tezliklə bu layihə ilə bağlı yekun sərmayə qərarının veriləcəyini və Fransanın "Total" enerji şirkətinin həmin layihədə 10 % payı olduğunu açıqlayıb. O bildirib ki, hazırda Yaponiya, Çin, Cənubi Koreyadan olan digər şirkətlərlə də əməkdaşlıq barədə danışıqlar aparır.

## NEFT NAZİRİ ÖTƏN İLİN NƏTİCƏLƏRİNİ ŞƏRH EDİB



Misir hökuməti 2017-2018-ci illər ərzində neft və qaz kəşfiyyatı ilə bağlı yeddi yeni müqaviləyə imza atıb. Bu, minimum 162 milyon dollar sərmayənin ölkəyə cəlb olunması deməkdir.

Müqavilədə bildirilir ki, həmin illərdə neft rezervlərini artırmaq məqsədilə 98 yeni quyu qazılıb ki, bunlardan 58-i məhsuldar olub.

Ölkənin neft sektoru hesabına neft məhsullarına olan tələbatı ödənilib. İl ərzində xam neft və kondensat hasilatının orta göstəricisi 626 min barrel təşkil edib.

Misirin neft naziri Tarek Əl Molla bir qədər əvvəl cari il ərzində ölkənin neft sektoruna 10 milyard dollar sərmayənin cəlb olunması gərəkdiyini vurğulamışdı. O qeyd etmişdi ki, Qırmızı dənizdə təbii qaz kəşfiyyatına dair ilk beynəlxalq tender yaxın zamanlarda keçiriləcək. Nazir hazırda Misirin gündəlik qaz hasilatının 6400 milyon kubfut olduğunu da bəyan edib.

## Şəmkirçay su təmizləyici qurğusu yaxın aylarda istismara veriləcək



"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (ASC) Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq bölgələrdə içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı mühüm layihələr həyata keçirir. Respublikamızın qərb bölgəsində əhalinin etibarlı və dayanıqlı içməli su təminatına hesablanmış Şəmkirçay sutəmizləyici qurğusunda işlər son mərhələdədir.

Şəmkirçay su anbarının ehtiyatının daxili mənbələr hesabına formalaşması ölkəmizin su təhlükəsizliyi baxımından strateji əhəmiyyətə malikdir. Ümumi su tutumu 165 milyon kubmetr olan anbarın potensial ehtiyatı dayanıqlı içməli su təchizatı baxımından mühüm əhəmiyyət daşıyır. Üstəlik burada toplanan yerüstü suların təbii durulmadan keçməsi suyun emalını asanlaşdırır. Bütün bunlar nəzərə alınaraq "Azərsu" ASC-nin sifarişi ilə su anbarının yaxınlığında məhsuldarlığı sutkada 140 min və ya saniyədə 1,6 kubmetr olan sutəmizləyici qurğu tikilir. Kompleksdə hər birinin tutumu 2500 kubmetr olan 3 ədəd su anbarı, anbarların idarəetmə otağı, xlorator qurğusu, elektrik yarımstansiyası inşa edilib, ehtiyat generator alınaraq ərazidə quraşdırılıb. Hazırda quruğda emal avadanlıqlarının quraşdırılması işləri aparılır.

Şəmkirçay sutəmizləyici qurğusu istismara verildikdən sonra bu mənbədən Gəncə şəhərinə saniyədə 1141 litr, Şəmkir şəhərinə 187 litr, Samux şəhərinə 85 litr, kəndlərə isə 50 litr içməli su veriləcək. Şəmkirçay sutəmizləyici qurğusundan Gəncə şəhərinə suyun verilməsini təmin etmək üçün uzunluğu 27,5 km olan magistral su kəmərinin tikintisi artıq yekunlaşıb, bu kəmərdən Samux şəhəri və rayonun bəzi kəndlərinə, eləcə də Göygöl rayonunun bir sıra kəndlərinin su təchizatını yaxşılaşdırmaq məqsədilə çıxışlar verilib. Bununla yanaşı, qurğudan Şəmkir şəhərinədək 16,5 kilometr uzunluğunda magistral su kəməri tikilərək şəhər şəbəkəsinə birləşdirilib.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# *Jalə Əliyeva:* Bu qərarlar hər kəs tərəfindən təqdir olunur



"Prezident İlham Əliyev dəfələrlə bildirib ki, həyata keçirdiyi siyasət ilk növbədə sosialyönümlüdür. Odur ki, insan amili, onun rifahı həmişə önə çəkilir. Bu ilin fevral ayının ilk günlərində minimum aylıq əmək haqqı, pensiya və təqaüdlərlə bağlı imzalanan Fərman və sərəncamlar da davam etdirilməkdə olan bu siyasətin tərkib hissəsidir. Dövlət başçısı tərəfindən minimum aylıq əmək haqqının, əmək pensiyasının, eləcə də tələbələrin təqaüdlərinin əhəmiyyətli şəkildə artırılması əhalinin sosial müdafiəsində daha bir mühüm addımdır. Hətta mən deyərdim ki, nəhəng addımlardır. Əsasən, aztəminatlı təbəqənin sosial rifahının gücləndirilməsinə yönələn bu qərarlar hər kəs tərəfindən təqdir olunur". Bu fikirləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Jalə Əliyeva "İki sahil" qəzetinə açıqlamasında söylədi.

Milli Məclisin deputatı bildirdi ki, minimum aylıq əmək haqqının məbləğinin 2019-cu il martın 1-dən 130 manatdan 180 manata, əmək pensiyalarının 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılması, ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi, eləcə də doktorantların, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin AMEA-nın magistratura səviyyəsində təhsil alan tələbələrin təqaüdlərinin artırılması minlərlə insanın sosial rifahının yaxşılaşdırılması deməkdir: "Şübhəsiz, bu, son dövrlər iqtisadi, sosial və kənd təsərrüfatı sahələrində aparılan islahatların məntiqi nəticəsidir. Yeri gəlmişkən, fevralın 18-də cənab Prezident İlham Əliyev Sumqayıta səfəri çərçivəsində dənizkənarı bulvarda şəhər sakinləri ilə görüşündə bu siyasətin davam etdiriləcəyini də bir daha vurğulayıb: "...Əməkhaqlarının, pensiyaların qaldırılması bundan sonra da nəzərdə tutulacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar, uşaqlar daha da yaxşı böyüsünlər, Vətənimizin layiqli övladları olsunlar, ölkəmiz daim qabağa getsin, inkişaf etsin, güclənsin". Təkcə bu fakt dövlətimizin başçısının Azərbaycanın hər bir vətəndaşına necə qayğı ilə yanaşdığından, eləcə də ölkəmizdə sosial məsələlərin həllinin heç zaman gündəmdən düşməyəcəyindən xəbər verir. Yəni güclü sosial siyasət bizim gündəliyimizdə bundan sonra da ən vacib, ən ümdə məsələlərdən biri olaraq qalacaq. Bu həm də ölkəmizdə həyata keçirilən siyasətimizin mahiyyətinin, eləcə də dövlət-vətəndaş münasibətlərinin sağlam zəmində qurulduğunun, ölkəmizdə insan kapitalına çox böyük önəm verildiyinin göstəricisidir. Ümumiyyətlə, cənab Prezident vətəndaşlarımızın sosial rifahının yaxşılaşdırılmasını heç zaman diqqətdən kənarda qoymur. Bu mənada dövlət başçımız sözün həqiqi mənasında, həmişə onların yanındadır".

Ölkəmizdə həyata keçirilən sosial siyasətin həm keyfiyyət, həm də ünvanlılıq baxımından yeni bir mərhələyə qədəm qoyduğunu xüsusi vurğulayan J.Əliyeva bildirdi ki, bütün bu addımlar yoxsulluq probleminin tam həlli istiqamətində təsirli tədbirlərin həyata keçirilməsinə imkan yaradacaq.

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

## Tələbələr: Gənclər dövlət qayğısını daim öz üzərilərində hiss edirlər

Prezident İlham Əliyevin 14 fevral 2019-cu il tarixli Fərman və Sərəncamına əsasən, ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan bakalavr, magistrant və doktorantların təqaüdlərinin artırılması dövlətimizin gənclərə diqqət və qayğısının daha bir təzahürüdür. Bu bir daha sübut etdi ki, hər zaman gəncliyə böyük əhəmiyyət verən ölkə başçısı bu dəfə də onların maddi vəziyyətinin yaxşılaşdırılmasına xidmət edən addım atıb.

***Maraqlıdır, görəsən tələbələr dövlət başçısının bu humanist addımını necə dəyərləndirirlər?***

**Ayşat Ramazanlı - Azərbaycan Dillər Universitetinin I kurs magistrantı:**



- Azərbaycanda gənclər siyasəti hər zaman dövlət siyasətinin mühüm tərkib hissəsi olmuşdur. Gənclər dövlət qayğısını daim öz üzərilərində hiss edərək, nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Bu qayğının cənab İlham Əliyev tərəfindən uğurla, yeni dövrün tələblərinə uyğun şəkildə davam etdirilməsi ölkəmizin siyasi-iqtisadi inkişafını, o cümlədən xalqın sosial rifahının yüksəlişini təmin edir. Qətiyyətlə deyə bilərik ki, Azərbaycan gəncliyi bu gün bütün tələbatlara cavab verən bir müasir gənclikdir. Gənclər unutmamalıdırlar ki, gənclik ölkənin gələcəyinin qarantıdır. Bununla da gəncliyin üzərinə böyük bir məsuliyyət düşür. Bu gün cənab Prezidentin tələbə-gənclərə olan diqqət və qayğısı diqqətəlayiqdir.

Dövlət başçısının bu günlərdə tələbələrin təqaüdünün artırılması ilə bağlı imzaladığı sərəncamları və Fərmanı gənclərə ayrılan diqqətin daha bir təzahürüdür. Bu, artıq tələbələr arasında sağlam rəqabəti gücləndirəcək və onların yüksək təhsilə yiyələnmələrinə təsirini artıracaq. Mən bir tələbə olaraq cənab İlham Əliyevin bu addımını yüksək qiymətləndirirəm.

**Milanə Axundova - Bakı Dövlət Universitetinin II kurs magistrantı:**



- Prezident İlham Əliyevin gənclərə göstərdiyi diqqət və qayğı hər kəsin gözü önündədir. Ölkə başçısının bizlərə bu cür qayğısı həqiqətən bizləri çox sevindirir. Məhz buna görə də Azərbaycan gəncliyinin qəlbi daim dövlət başçısına minnətdarlıq hissi ilə döyünür.

Bu günlərdə cənab Prezidentin tələbələrin təqaüdünün artırılması haqqında imzaladığı sənədlər bizə bir daha sübut etdi ki, dövlət başçımız təhsil alan gəncləri unutmur, bizim yaxşı vətəndaş və mütəxəssis kimi yetişməyimiz onu daim düşündürür. Biz də ölkə vətəndaşı, gəncləri olaraq cənab Prezidentin bizə göstərdiyi bu diqqət və qayğıya görə hər zaman onun yanında olub, onunla işıqlı gələcəyə doğru birgə addımlayacağıq.

**Murad Məmmədov - Bakı Dövlət Universitetinin II kurs tələbəsi:**



- Bakalavr səviyyəsində adi təqaüd alıram. Doğrusu, xəbəri eşidəndə çox sevindim. Təqaüdlərin artımı ilə bağlı dövlət başçısı İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk. Əminəm ki, mənim kimi bütün tələbələr də buna sevinib. Sözsüz ki, bu artım tələbələr üçün böyük hadisədir. Bununla da tələbələrin problemlərinin aradan qaldırılması üçün müəyyən addımlar atılır. İnanıram ki, Prezident İlham Əliyevin apardığı uğurlu siyasəti nəticəsində Azərbaycan nəinki təhsildə, bütün istiqamətlər üzrə daha da yüksək zirvələrə doğru inamla irəliləyəcək.

**✍ Mənsumə Babayeva, *"İki sahil"***

# Təhsil sistemində dəyişiklik edən şəxsiyyətlər

*İlk öncə demək istərdik ki, zərif cinsin nümayəndələrindən olan müəllimələr kişi cinsin nümayəndələrindən çoxdurlar. Bu tendensiya XX əsrin əvvəllərindən müşahidə olunur.*

*Lakin bütün bunlara baxmayaraq tarix göstərir ki, tədris və təlim sahəsində qlobal dəyişiklikləri məhz kişilər ediblər. Bu yazımızda təhsil sistemində köklü dəyişikliklər edən şəxslər haqqında danışacağıq.*

**1. Yan Amos Komenski (1592-1670)**

Bu məşhur çex pedaqoqun hesabına müasir uşaqlar parta arxasında əyləşir, qiymət alır və ev tapşırıqlarını yerinə yetirirlər. Yan Amos Komenski sinif - dərs sisteminin banisi hesab olunur. Üç əsr bundan qabaq Komenski anlayıb ki, məktəbin və təhsil sisteminin yaradılması gələcək nəsilləri humanizm ruhunda yetişdirməyə kömək edəcək.



1.

Qeyd etmək lazımdır ki, təhsildən savayı o, din sahəsinə böyük diqqət yetirirdi. Belə ki, Komenski hesab edirdi ki, insanları daimi həyata hazırlamaq çox vacib bir məsələdir.

Təhsil aləmində Yan Komenski individual tədrisi, sinif-dərs tədrisi sisteminə dəyişib. Komenski təhsilin keyfiyyəti naminə müəyyən olunmuş planın və müvafiq təşkilatın olması haqqında nəzəriyyə irəli sürüb. O, uşaqların 6 yaşından təhsilə cəlb olunmasını və həmçinin müntəzəm şəkildə təhsil müəssisəsinə getməyini, şagirdlərin bilik səviyyəsinin ölçülməsi tədbirlərinin həyata keçirilməsini təkid edib.

Sinif-dərs sistemi aşağıdakı prinsiplərə əsaslanırdı:

* Ana məktəb (6 yaşına qədər olan uşaqları analar tərbiyə edir);
* 6 yaşdan 12 yaşına kimi ana dilinin öyrənilməsi məktəbi ( dəqiq elmlərin, müqəddəs kitabların öyrənilməsi);
* Böyük şəhərlərdə istedadlı uşaqların təhsilini gimnaziyalarda davam etdirmək istəyini oyandırmaq;
* Hər bir ölkədə 18 yaşından 24 yaşına kimi gənclərin ali təhsil ala biləcəkləri akademiyaların yaradılması.

Komenskinin yenilikçi ideyaları hazırda müasir təhsil sistemində əksini tapmışdır.

**2. Benjamin Spok (1903-1998)**

Məşhur amerikan pediatoru Benjamin Spok "Uşaq və ona qulluq" kitabından sonra böyük şöhrətə nail olmuşdu. Bu kitab qısa müddətdə uşaq dilinə tərcümə olunmuşdu.

Maraqlı bir faktdır ki, ingilis dilində kitabın satış tirajı 50 milyona çatmışdı.

Valideynlərə müraciət edərək Spok bu fikirləri irəli sürmüşdü: "Siz təssəvvür etdiyinizdən artıq bilirsiniz". O, uşaqların ehtiyacını başa düşmək üçün psixoanaliz elmini öyrənməklə məşğul olan ilk pediatr həkim olub.



2.

Onun təməl ideyalarının köməyi ilə milyonlarla valideyn doğma körpələrinə yanaşma tərzini öyrəniblər. Benjamin Spok valideynlərə xəbərdarlıq edib ki, uşaqlar kitabda yazılan kimi reaksiya göstərmədikləri zaman təşvişə düşməyin. O, uşaqları başa düşərək onlara yaxınlaşmağı məsləhət görürdü. Bundan başqa, Spok qeyd edirdi ki, uşaq yaşlarında istənilən şəxsiyyətin susdurulması gələcəkdə həmin uşaqların nevroz xəstəliyi riski ilə üzüzə qalması deməkdir.

Spok qeyd etmişdir ki, uşağı necə var, o cür sevmək lazımdır. Ümumilikdə tərbiyə uşağa göstərilən hisslərdən və mənəvi prinsiplərdən asılıdır. Bu üsulla Spok təhsil sistemində uşaqların tərbiyəsi ilə əlaqəli çevriliş həyata keçirmişdi. O, valideynlərin ilk növbədə uşaqlarını sevməyi, onlara səmimi qayğı göstərməyi və əsassız qadağalardan qaçmağı məsləhət görürdü.

**3. Karl Rocers (1902-1987)**

Amerikalı psixoloq Karl Rocers humanist psixologiya tərəfdarı idi.

Rocers əminliklə bildirirdi ki, bütün insanların özləri arasında iti tələbat mövcuddur. O hesab edirdi ki, insanlarda problemin yaranması onların özlərinin həqiqi imkanlarını həyata keçirmək əvəzinə ətraf mühitin fikirlərini razı salmağa çalışmasından irəli gəlir.



3.

Rocers prinsipləri:

1. Ən əsası pozitiv münasibətdir. Bu kimi münasibət insanın necə var o cür qalmasını və başqa insanlara təmənnasız köməklik göstərməsini təmin edir.
2. Şəxsiyyətlərarası anlaşma.
3. Obyektiv anlama. Bu, sosial səviyyədə baş verir.
4. Təcrübə sahəsi. Təcrübə sahəsi hər bir insanın ayrı-ayrılıqda subyektiv reallıqlarını təqdim edir. Bu, insanın obyektiv reallıqdan uzaq olan şəxsi dünyasıdır.
5. Fəaliyyət göstərən şəxsiyyət. Bu halda insan ayıq şəkildə özünün "mən" həqiqətini qiymətləndirməsinə imkan verir. O, öz intuisiyalarına və toplanmış təcrübəsinə inanır.
6. Subyektiv anlayış. Belə bir anlayış şəxsiyyətə başqa insanı nə qədər sevib sevmədiyini başa düşmək imkanını verir.

**4. Tomas Qordan (1918-2002)**



4.

Tomas Qordana məşhurluq gətirən onun "Effektiv valideynin təlimi" kitabı olub. O, Amerika Psixoloqlar Assosiasiyasının üzvü olub və uşaqlara aid konfranslarda iştirak edib.

Qordanın təhsil və uşaqların tərbiyəsi sisteminə baxışı tam fərqli olub. O qeyd edib ki, valideynlər və uşaqlar məhəbbətə və qarşılıqlı hörmətə köklənən isti və dostluq münasibətləri qurmalıdırlar.

Tomas belə bir nəzəriyyə irəli sürmüşdü ki, yeniyetmələr ata və analarına qarşı çıxmadan çox onların qoyduğu qadağalardan xilas olmağa çalışır.

Məhz bu səbəbdən o, valideyn və uşaqlar arasında kompromisi aydınlaşdırmaq məqsədi ilə xüsusi proqram hazırlamışdı.

Nəzəriyyə üç əsas prinsiplərə əsaslanır:

1. Aktiv dinləmə - heç bir düzəliş vermədən həmsöhbətimizə qulaq asmaq.
2. "Mən - fikrini izah etmək" şəxsiyyətə öz hissləri haqqında danışmaq imkanını verir.
3. İstənilən münaqişələri dialoq yolu ilə həll etmək.

Qordan öz kitablarında, həmçinin insanların başqalarının hisslərini başa düşmək qabiliyyətinə sahib olduğu zaman, çətin zamanlarda köməkçi və məsləhətçi səlahiyyətini qazana biləcəyini vurğulayıb.

Bu yolla fəaliyyət göstərən şəxs insanlarla rahat ünsiyyət qura biləcək, şəxsi problemlərini həll edə biləcək və həyatını yaxşılığa doğru dəyişə biləcək.

**✍ Könül Cavid, *"İki sahil"***

## BANM-in TƏLƏBƏLƏRİ TƏHSİLLƏRİNİ BOLQARISTANDA VƏ YUNANISTANDA DAVAM ETDİRƏCƏKLƏR



Bakı Ali Neft Məktəbində (BANM) rektor Elmar Qasımovun Avropa Birliyinin Erasmus+ (Erasmus+ Student Mobility Program) proqramı çərçivəsində xaricdə təhsilini davam etdirəcək tələbələrlə görüşü keçirilib. Görüşdə, həmçinin valideynlər, Proseslərin avtomatlaşdırılması mühəndisliyi kafedrasının müəllimləri və tələbələri, eləcə də ali məktəbin məsul əməkdaşları iştirak ediblər.

BANM-də "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisasında təhsil alan 4-cü kurs tələbələri Hacalı Bayramov və Pərvin Quliyeva Yunanıstanın Qərbi Attika Universitetində, İsmət Ağayev və Elvin Həsənli isə Bolqarıstanın Angel Kançev adına Ruse Universitetində bir semestr təhsillərini davam etdirəcəklər.

BANM-in rektoru Elmar Qasımov 2019-cu ildə yaz semestri ərzində Avropada təhsil alacaq gəncləri ürəkdən təbrik edib, onların öz ölkələrini və doğma universitetlərini layiqincə təmsil edə biləcəklərinə əmin olduğunu bildirib. Rektor qeyd edib ki, ali məktəbin Erasmus+ proqramında iştirakının nəticəsi olaraq 10-dan çox tələbə yalnız Qərbi Attika Universitetində təhsil almağa göndərilib, bu il isə BANM-in tələbələri yalnız Yunanıstan deyil, İspaniya və Bolqarıstanda da təhsil almaq üçün göndərilir.

Görüşdə, həmçinin Mühəndislik fakültəsinin dekanı Zəfər Qurbanov, Proseslərin avtomatlaşdırılması mühəndisliyi kafedrasının müdiri vəzifəsini icra edən Nailə Allahverdiyeva və ali məktəbin proqram meneceri Nərgiz Tarverdiyeva çıxış edərək tələbələrə uğurlar və təhsildə yüksək nəticələr əldə etmələrini arzulayıblar. Bildiriblər ki, Erasmus+ proqramında iştirak Ali Məktəbin yüksək texniki biliklər əldə etmək istəyən digər tələbələri üçün nümunəvi addımdır.

✍ **Zamin Məmmədov, *"İki sahil"***

## "SLAVYANIN SƏSİ"





Bakı Slavyan Universitetində "Slavyanın səsi" adlı musiqi yarışmasının yarımfinalı keçirilib. Tərbiyə işləri üzrə prorektor, dosent Xanım Sultanova yarımfinala vəsiqə qazanan tələbələrə uğurlar diləyib.

Prorektorun sözlərinə görə, layihənin keçirilməsində əsas məqsəd tələbələr arasında bədii yaradıcılığa marağı artırmaq, onların asudə vaxtının səmərəli keçirilməsini təşkil etməkdir. Tədbirdə 3 komanda 8 yarımfinalçı iştirak edib. Onlardan 3 iştirakçı finala vəsiqə qazanıb. Yarışmada komandaların rəhbərləri Cavid Hüseynli, Aytac Samullayeva, Namiq Fərəcov münsif qismində çıxış edirlər.

Qeyd edək ki, "Slavyanın səsi" adlı mahnı müsabiqəsində qalib gələn finalçı "Tələbə baharı" ümumrespublika tələbə yaradıcılıq festivalında iştirak edəcək.

✍ **Nüsrət Məmmədov, *"İki sahil"***

# TAP: Azərbaycan-İtaliya əlaqələrində yeni çalarlar



Azərbaycan-İtaliya ikitərəfli iqtisadi əlaqələri getdikcə möhkəmlənir. Belə ki, ötən ildə bu ölkələr arasında ticarət dövriyyəsi 10 faiz artaraq 6,2 milyard dollar təşkil edib. Bu ilin ilk ayında da Azərbaycanın ən çox məhsul göndərdiyi ölkə İtaliya olub. Dövlət Gömrük Komitəsindən verilən məlumatda bildirilir ki, yanvar ayında bu ölkəyə ixracın dəyəri 444 milyon 444 min ABŞ dolları təşkil edib. Azərbaycanla ticarət dövriyyəsinə görə ölkələrin siyahısında da bu ölkə birincidir. Belə ki, ötən ay İtaliya ilə ticarət dövriyyəmiz 476 milyon 516 min dollar olub.

Ekspertlərin fikrincə, bu prosesdə Prezident İlham Əliyevin İtaliyaya səfərləri, ötən ilin iyulunda İtaliyanın Prezidenti Sercio Mattarellanın ölkəmizə səfəri və bu səfərlər çərçivəsində keçirilən görüşlər, biznes forumları, həmçinin aparılan danışıqlar əhəmiyyətli rol oynayıb. Qeyd edək ki, bir neçə gün əvvəl İtaliyanın "Maire Tecnimont" şirkətinin də podratçısı olduğu "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodunun açılışı olub. 2018-ci ildə polipropilen zavodunun açılışında hər iki dövlət başçısının iştirakını isə ikitərəfli əlaqələrin inkişafına verilən önəmin göstəricisi kimi dəyərləndirmək olar.

Fevralın 20-də Bakıda keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısının plenar sessiyasında İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi bildirmişdir ki, Cənub Qaz Dəhlizinin reallaşmaqda olan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) seqmenti bütün Balkan bölgəsinin, o cümlədən İtaliyanın qaz boru kəməri şəbəkəsinin inkişafına təkan verməklə yanaşı, iki ölkə arasındakı iqtisadi əlaqələrə də yeni çalarlar əlavə edəcək. Avropa İttifaqı ölkələri arasında ən çox qaz idxal edən İtaliyanın da şaxələndirməyə marağı olduğunu vurğulayan nazir müavini TAP-ı enerji sahəsində İtaliya ilə əməkdaşlığın mühüm elementi kimi dəyərləndirib. Bu mənada TAP-ın rəsmi açılışı Azərbaycan-İtaliya əlaqələrinin inkişafı üçün yeni imkanlar açacaq. Daha doğrusu, Cənub Qaz Dəhlizi layihəsi tam istismara verildikdən sonra "Şahdəniz-2" qazının TAP xətti vasitəsilə İtaliya sahillərinə çatdırılması ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasına səbəb olacaq.

Hazırda ölkəmizdə əsas prioritetlərdən biri də qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Bu mənada, Azərbaycan iqtisadiyyatına görə dünyada 8-ci yerdə qərarlaşan İtaliya kimi ölkənin böyük şirkətlərinin ölkəmizin qeyri-neft sektoruna investisiya yatırmasında maraqlı olan tərəfdir. Bunu hökumət də açıq şəkildə bəyan edir. Odur ki, Azərbaycan İtaliya şirkətlərinə qapılarını hər zaman açıq saxlayır.

İqtisadiyyat Nazirliyində Andrea Cioffi ilə keçirilən görüşdə italiyalı qonaq ölkəsinin Azərbaycanla qeyri-neft sektoru sahəsində əlaqələrin genişləndirilməsinə dair səmərəli müzakirələrin aparıldığını vurğulayıb. Şübhəsiz, ölkəmizin artan tranzit imkanları, reallaşdırılan mühüm layihələr - Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı tranzit-logistika əməkdaşlığının inkişafı üçün geniş imkanlar açır. İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, hazırda Azərbaycan ilə İtaliya arasında investisiyaların təşviqi və qorunması haqqında yeni Saziş layihəsi, iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan birgə Fəaliyyət Planı üzərində iş aparılır.

✍ **Qvami Məhəbbətoğlu, *"İki sahil"***

# Düşmənin kəşfiyyat aparatı Qarabağ səmasında vuruldu

Ermənistan ordusu işğal etdiyi Azərbaycan ərazilərində quldurluqla məşğuldur. Düşmənlərimiz həmişə sülh danışıqlarından və bu kimi tədbirlərdən əvvəl təxribat-diversiya törətməyə çalışıblar. Bu ordunun Dağlıq Qarabağdakı qrupunun komandanlığı iki gün əvvəl, ATƏT-in Minsk qrupu həmsədrinin Azərbaycana səfəri çərçivəsində fəaliyyətini həyata keçirdiyi bir vaxtda növbəti təxribat hazırlayaraq həyata keçirməyə çalışıb.

Bu barədə KİV-lərə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Nazirlikdən bildirilib ki, fevralın 21-də günorta saatlarında cəbhənin Ağdam rayonu istiqamətində Ermənistan silahlı qüvvələri "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Azərbaycan Ordusunun mövqeləri üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Azərbaycan Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə bölmələri tərəfindən düşmən PUA-sı dərhal aşkarlanaraq zərərsizləşdirilib.

Qeyd edək ki, işğalçı ordunun komandanlığı əvvəllər də belə təxribatlar törətməyə cəhd göstərib. Ancaq döyüşçülərimiz, Hava Hücumundan Müdafiə bölmələrimiz sayıqlıq göstərərək hər dəfə həmin təxribatların qarşısını alıblar. Bundan bir qədər əvvəl daha bir PUA-nın Tərtər istiqamətində vurulması hamımızın yadındadır. Həmin an lentə alındığından və yayıldığından



düşmən PUA-sının hətta necə vurulduğunu görmüşük. "Vur, komandir, vur!" sözlərini həyəcanla deyən əsgərimizin səsi qulağımızda hələ də əks-səda verir.

Xatırlatmaq yerinə düşər ki, 1991-ci ildə, Dağlıq Qarabağ müharibəsi başlamazdan əvvəl erməni quldurları Tərtər-Ağdərə istiqamətində "Stinger" və "Zemlya-zemlya" raketlərindən istifadə edirdilər. Həmin vaxtlar torpaqlarımızın müdafiəsində fəal iştirak edən Azərbaycan milisi düşmənin hücumlarının qarşını igidliklə alırdı. Sonralar Tərtər və Ağdam RPŞ-lərinin rəisi olmuş, respublika Daxili İşlər Nazirliyində yüksək vəzifələrdə işləmiş polkovnik Rasim Vəliyev beşatılan tüfəngi ilə düşmənin bir neçə "Stinger"ini vurub salmışdı. Düşmənlərimiz o raketlərdən dağıdıcı vasitə kimi istifadə edirdilər. İndi göndərilən PUA raketləri isə mövqelərin, canlı qüvvənin, artilleriyanın yerini, zirehli texnikanın yerləşdirildiyi nöqtələri müəyyənləşdirmək məqsədi daşıyır.

Düşmənin bütün həmlələrini həmişə müvəffəqiyyətlə dəf edən döyüşçülərimiz istər səmada, istər quruda təhlükəsizliyimizi mərdliklə qoruyurlar. Onların sayıqlığı nəticəsində səmamızda nəinki pilotsuz uçan aparatlar, heç quş da çəkə bilməz.

✍ **Vəli İlyasov, *"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**polad borulara (57mm - 273mm) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29006-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 13.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 590 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:***

**Müsabiqə təklifinin təminatı:**

*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

**Avans ödənişinə görə təminat:**

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

**Müqavilənin yerinə yetirilməsi təminatı:**

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin 60 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23

**Əlaqələndirici şəxs:**

Bağırov Süleyman
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29-169)
suleyman.bagirov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 13.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə 11:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**




Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**Casio İT3100, Casio İT9000 markalı əl terminalları üçün çap kağızına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29007-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 15.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 236 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:***

**Müsabiqə təklifinin təminatı:**

*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

**Avans ödənişinə görə təminat:**

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

**Müqavilənin yerinə yetirilməsi təminatı:**

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin 2 ay müddətində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23

**Əlaqələndirici şəxs:**

Hüseynova Nərmin
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29 491)
narmin.huseynova@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 15.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə 11:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**

AZƏRBAYCAN DEYƏNDƏ...

# Azərbaycan deyəndə ürəyimdə heç vaxt bitməyəcək bir sevgi mahnısı səslənir



***Tanınmış şairlərimizdən olan Tofiq Bayramın məşhur “Azərbaycan deyəndə...” başlıqlı şeirinin ürəkisidən misralarının doğmalığından yola çıxaraq “İki sahil” qəzeti eyniadlı publisistik layihəni gerçəkləşdirir.***

***...Gözümdə doğmalaşar***
***Bütün xalqlar, ölkələr,***
***Azərbaycan deyəndə!***

***- sevgiqarışıq xitabına söykənib davam etdiyimiz “Azərbaycan deyəndə...” layihəsinin əsas məqsədi ölkəmizdə yaşayan, çalışan, təhsil alan xarici ölkə vətəndaşlarının Azərbaycan haqqında ümumi təəssüratlarını, düşüncə və arzularını oxucularla bölüşməkdir. Layihəmizin budəfəki qonağı Bakıda yaşayan Türkiyənin opera və vokal ifaçısı Oya Ergündür. Müsbət auralı, gülərüzlü ifaçı Oya Ergünlə söhbətimiz yağmuru ilə təkcə saçları yox, həm də ruhu isladan bir qış günündə onun kitablarla və musiqi alətləri ilə bəzənmiş, elə ilk baxışdan da istedadlı bir insanın yaradıcılıq yuvası kimi rahat görünən evində baş tutdu. Vokalçı bizi özünəməxsus kəskin dada malik, xoş ətirli ənənəvi türk qəhvəsi, canlı ifalarının yer aldığı əsl musiqi ziyafəti və səmimi söhbəti ilə ağırladı.***

### Azərbaycanda özümü doğma vətənimdəki kimi hiss edirəm

Bakıya gəlişim bir neçə il əvvəl burada həyat yoldaşıma edilən iş təklifi ilə bağlıdır. Buna qədər İstanbuldakı Haliç Universitetində müəllim kimi çalışırdım. Həmin təklifdən sonra işimi buraxıb həyat yoldaşımla bərabər Bakıya köçdük. Burada ilk dönəmlərdə daha çox konsertlər verməyə və mahnılar üzərində çalışmalara üstünlük verdim. Daha doğrusu, oğlum da o vaxt çox kiçik idi, ona görə də burada ilk illərimi analıq qayğıları və musiqi ilə keçirdim, müəllimliyə fürsət olmadı. Çox vasvası anayam, oğluma daha çox vaxt ayırmaq üçün, əslində buradakı bütün həyatımı buna uyğun qurdum. Bakıdakı iş rejimi də bu baxımdan mənə çox kömək oldu. Oğlum Alp indi doqquz yaşındadır. Böyüyəndə mahnı oxuyan həkim olmaq istədiyini deyir (gülür). Oğlumun şahmata, futbola çox meyli var, güclü musiqi duyumuna malikdir. Ən önəmlisi odur ki, mərhəmətli uşaqdır. Düşünürəm ki, hər bir insanda ən birinci mərhəmət duyğusu olmalıdır.

Buraya gələnə qədər Azərbaycanın muğam, caz və operanın çox inkişaf etdiyi ciddi musiqi ölkəsi olduğunu bilirdim. Azərbaycan musiqiçiləri çox istedadlı və bacarıqlıdırlar. Azərbaycanda mən çox gözəl bir musiqi mühiti tapdım. Çox yaxşı insanlarla tanış oldum, istədiyim kimi albomlar ərsəyə gətirə bildim. Burada saysız konsertlərim olub. Uzun müddət xaricdə yaşamışam, burada özümü heç vaxt Amerikadakı, Avropadakı kimi yad ellərdə hiss etməmişəm. Azərbaycanda ən sevdiyim cəhət insanların mehribanlığı və eyni dildə danışmağımızdır. Azərbaycanda özümü vətənimdəki kimi hiss edirəm. Böyük Atatürkün heyranı kimi, onun “Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir” fikrini, eyni zamanda Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlməsini xatırlatmaq istəyərdim. Bunlar adi, gəlişigözəl sözlər deyil. Dahi Heydər Əliyevin məşhur kəlməsində vurğuladığı bu həqiqətin öz həyatımda şahidi oluram.

### Şərqilər yalanı sevmir

Burada yaşadığım illər ərzində Milli Konservatoriyada barokko üslubu dərslərini tədris etmişəm, bir müddət Bakı Musiqi Akademiyasında dərs demişəm. Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində doktorluq işim üzərində çalışıram. Mövzum “Vokal ifaçılığın psixoloji aspektləri”dir, artıq bitirmək üzrəyəm. Bu doktorluq dissertasiyasında mahnı oxumağın, gerçək mənada vokal ifaçısı ola bilməyin insana illər boyunca psixoterapiyadan keçmiş kimi bir yüksəlmə verdiyini anlatmağa çalışmışam. Mahnı oxuyanda insan özü ilə gerçək anlamda ünsiyyətə girir. Sosial olaraq biz insan təbiətimizi basdırırıq, özümüzü gerçək şəkildə yaşaya bilmirik. Amma mahnı oxuyarkən insan özünü yaşamaq, özü ilə dürüst olmaq məcburiyyətindədir. Əks təqdirdə, ifa gözəl alınmayacaq. Həyatın içində özümüzdən asılı olan və olmayan səbəblərdən dürüst qala bilmirik. Həyatımız gərəksiz yalanlar içində keçib gedir. Ancaq mahnı oxuyarkən yalan söyləmək olmur, şərqilər yalanı sevmir. Bir misal çəkmək istəyirəm. Peşəkar mühəndislər avtomobillərin hansı tonda və hansı desibeldə səs çıxartdığını dinləyərək problemin maşının harasında olduğunu təyin edə bilirlər. Vokal müəllimi də bənzər məqamları - yəni, oxuma texnologiyasını və oxuyanın mahnıda dürüst olub- olmadığını ifa zamanı anlaya bilir. Oxuma texnikası da bir yoldur. O yolda xəta oldusa, ifada da mütləq xəta olacaq. Bədəni ilə barışmış, özünü sərbəst buraxa bilən və oxuma texnologiyasına bələd insanın ifası da mükəmməl olur. İfaçılıq sadəcə istedad məsələsi deyil, həm də zəhmət işidir. Bethoven deyir ki, dühə çalışmaqdır. Çalışmadan, zəhmət çəkmədən sadəcə istedada güvənib ortaya dəyərli nəsə qoymaq mümkün deyil.



### Psixologiyanı öyrəndikdə insanın təbiətdəki dilini başa düşmək mümkündür

Əsas səhəm konsertlər vermək, albomlar hazırlamaq, professional ifaçılar yetişdirmək olsa da, mən həm də psixologiya təhsili almışam. Bəlkə ilk baxışdan sizə təəccüblü gələ bilər, amma psixologiya ilə vokalçılıq bir-birinə çox yaxın sahələrdir. Doktorluq mövzumu da buna uyğun seçməyim təsadüfi deyil, əslində bütün sahələr psixologiyaya yaxındır. Biz uzun illər musiqi təhsili alırıq, bunu mütləq bir sosial elmlə bəsləməkdə fayda var. Məncə, psixologiyanı heç bir elmdən ayrı tutmamalıyıq, hətta orta məktəblərdə bunun şagirdlərə tədrisinin vacib olduğunu düşünürəm. Psixologiyanı yaxşı bildikdə insanların nəyi nə üçün elədiklərini anlayırsan. İnsanlar təbii dillərini danışmırlar, amma psixologiyanı öyrəndikdə insanın təbiətdəki dilini başa düşmək mümkündür.

### Azərbaycan mədəniyyətinin və ədəbiyyatının vurğunuyam

Azərbaycanlı ifaçıların Dövlət Filarmoniyasındakı konsertlərində çox oluram. Böyük bəstəkar Tofiq Quliyevin bəstələrini həmişə sevə-sevə dinləyirəm. Tələbələrin konsertlərinə böyük marağım var. Kiçik uşaqların ifalarını ürəkdən bəyənirəm. Demək olar ki, Rəşid Behbudovun iştirak etdiyi bütün filmləri izləmişəm. Onun rol aldığı “Arşın mal alan”, “Bəxtiyar”, “Azərbaycan mədəniyyətinin baharı”, “Romeo mənim qonşumdur” filmlərini xüsusilə sevirəm. Rəşid Behbudovun repertuarından olan “Sənə də qalmaz” sevə-sevə ifa etdiyim unudulmaz şərqilərimdəndir. Şövkət Ələkbərova da sevdiyim ifaçılardandır.

Azərbaycan mədəniyyətinin və ədəbiyyatının vurğunuyam. Azərbaycan ədəbiyyatına vurğunluğum lap çoxdan - lisey illərindən başlayıb. Klassik Azərbaycan ədiblərini bizə tanıdıblar, dərs olaraq oxumuşuq. Ədəbiyyata, xüsusilə də şeirə vurğun olduğum üçün bu fənnə daha diqqətlə yanaşırdım. Nizami Gəncəvi, Məhəmməd Füzuli, Heyran Xanım, Hüseyn Cavid, Əhməd Cavad və Rəsul Rzanın poeziyasını daim mütaliə edirəm. Füzulinin “Məni candan usandırdı...” qəzəli dilimin əzbəridir. Müasir Azərbaycan ədəbiyyatından Sona Vəliyevanın yaradıcılığı ilə tanışam, şeirlərini çox bəyənirəm, onun əsərlərində güclü poetik duyum var.



### Azərbaycanla bağlı bir çox məqam yaddaqalan xatirədir

Buraya gəlməzdən öncə Azərbaycan mənim üçün gözəl mahnılar demək idi. Buna qədər bu həqiqət mənim üçün sadəcə sözdə mövcud idi, burada olduğumuz illər ərzində bunu ciddi şəkildə həyatımda hiss etməyə başladım və iç duyğularım Azərbaycanın bir musiqi cənnəti olduğunu qəti şəkildə təsdiqlədi. Bu təəssüratımın üzərinə həm də həqiqətən qardaş ölkə olmağımıza bağlı dərindən yaşadığım duyğular əlavə olundu. Azərbaycan deyəndə ürəyimdə heç vaxt bitməyəcək bir sevgi mahnısı səslənir...

Almaniyada təşkil edilmiş bir konsertimdə Azərbaycanın tanınmış bəstəkarı Firəngiz Əlizadə ilə qarşılaşmışdım. Daha sonra Hollandiyada təşkil olunmuş və solistlik etdiyim konsertdə də Firəngiz Əlizadənin bir əsərini dinləmişdim. Bu bəstəyə heyran qalmışdım, gedib Firəngiz xanıma sarılıb “siz nə gözəl bir bəstəkarsınız, necə möhtəşəm əsər bəstələmisiniz” deməkdən də özümü saxlaya bilməmişdim. Bu görüşdən təxminən 5-6 il sonra buraya gələndə Firəngiz Əlizadənin Azərbaycan Bəstəkarlar İttifaqının rəhbəri olduğunu eşitdim.

Bundan başqa, xaricdə eyni konsertdə iştirak etdiyimiz zaman bir tarzənin ifasını çox sevmişdim. Bir neçə il öncə Rəşid Behbudov adına Mahnı Teatrında bir konsertim olacaqdı. Orkestrdən bildirdilər ki, mahnılarınızı verin, biz çalacağıq. Dedim ki, mən orkestrlə tanış olmadan siz necə çalacaqsınız o mahnıları? İsrar etdilər ki, narahat olmayın, edəcəyik. Razı olmadım, “Olmaz belə şey” dedim. Bir də gördüm ki, xaricdəki konsertdə ifasını bəyəndiyim həmin tarzən Elçin Nağıyev də orkestrdədir. Bundan sonra ürəyim rahat oldu, razılaşdım. Əslində Azərbaycanla bağlı bir çox məqam mənim üçün yaddaqalan xatirədir.

### Vegetarian olmaq arzum tamamilə mərhəmət hissi ilə bağlıdır

Ümumiyyətlə, mətbəxlə heç aram yoxdur (gülür). Amma qonaqlarım üçün Uzaq Şərq və fransız mətbəxindən xüsusi təamlar bişirməyi çox sevirəm. Uzaq Şərq deyərkən məxsusən də Tailand yeməklərini, ədviyyatlarını yaxşı bilirəm. Yeməyə çox aludə birisi deyiləm. Yaşamaq üçün sağlam, natural, dadsız-duzsuz yeməklərə üstünlük verirəm. Ona görə də mətbəxə elə də önəm vermirəm. Ancaq Azərbaycan mətbəxindən bəyəndiyim təamlar var, xüsusilə göyərti qutabını sevirəm. Əti çox yemirəm, artıq vegetarian olmaq ərəfəsindəyəm. Vegetarian olmaq arzum tamamilə mərhəmət hissi ilə bağlıdır. Bir canlını öldürüb yemək mənə qəribə gəlir. Texnologiya bu gün çox inkişaf edib, laboratoriyada insanlar üçün çox sağlam protein istehsal edə bilirlər. Ətin yerinə belə proteinlərə, yaxud əti əvəzləyən başqa qidalara üstünlük vermək olar. O zaman heyvanları da kəsib öldürməyə gərək qalmaz. Bu, fəlsəfədən daha çox, mənim üçün tamamilə insani duyğularla bağlı bir məqamdır.

### “Sevgilim” Türkiyənin ən gözəl vokal albomları onluğunda yer alıb

Hazırda mahnılar üzərində işləyirəm. Bu il Rəşid Behbudovun repertuarından seçilmiş, eşq mahnılarından ibarət “Sevgilim” albomu Türkiyədə də işıq üzü görəcək. “Sevgilim” Türkiyənin ən gözəl vokal albomları onluğunda yer alır. Bu il Azərbaycanla bağlı daha bir mahnı albomu hazırlamağı düşünürük. Sonda ürəkdən gələn bir diləyimi bütün oxuculara çatdırıram: Azərbaycanın həmişə çox gözəl günlər görməsini arzulayıram.

✍ **Sevinc Mürvətqızı,**
**Vüsal Cahanov, (foto)**
***“İki sahil”***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**manometrlərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29008-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.03.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 29.03.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 118 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:***
*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur. Tətbiq olunmur*
*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*
*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

**Avans ödənişinə görə təminat:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

**Müqavilənin yerinə yetirilməsi təminatı:**
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur. Tətbiq olunmur.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 2 ay müddətində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-i.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu;
Yusif Səfərov küçəsi, 23

**Əlaqələndirici şəxs:**
Hüseynova Nigar
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29 164)
nigar.huseynova@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 29.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:30-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**Nömrəli plomblara, plomb üçün məftilə (Lot-1), Plastik qapayıcı plomblara (Lot-2) və Plastik qapayıcı vasitələrə (Lot-3) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29010-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).
* Müsabiqə təklifinin təminatı (yalnız Lot-1 üzrə)

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.03.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 29.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər Lot-1 üzrə 236 AZN (ƏDV daxil); Lot-2 üzrə 59 AZN (ƏDV daxil) və Lot-3 üzrə 59 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
VÖEN SOCAR: 9900003871
Azərbaycan Beynəlxalq Bankı ASC, Müştəri Xidməti Departamenti,
VÖEN (bank): 9900001881
İBAN: AZ38IBAZ38010019449306332120
Müxbir hesab: AZ03NABZ01350100000000002944
SWIFT BIK: İBAZAZ2X
Kod: 805250

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar: Lot-1 üzrə***
**Müsabiqə təklifinin təminatı:**
*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*
*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*
*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

**Avans ödənişinə görə təminat:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

**Müqavilənin yerinə yetirilməsi təminatı:**
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin hər bir Lot üzrə 2 ay müddətində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu;
Yusif Səfərov küçəsi, 23

**Əlaqələndirici şəxs:**
Kərimov Valeh Mirzə oğlu
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994125210000 (daxili 29681)
+994124904272 (faks)
valeh.kerimov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 29.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə Lot-1 üzrə saat 11:00-da, Lot-2 üzrə saat 11:30-da, Lot-3 üzrə saat 12:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**

# *Ermənistan yeni geosiyasi turbulentlikdə:*
# boş vədlər və sözçülüyün "real töhfələri"

**Dünya miqyasında geosiyasi proseslərin intensivliyi və mürəkkəbliyi haqqında politoloqların fikirləri dərc edilir. Ümumi mövqeyə görə, qlobal gərginlik daha da artır. Bu məqam özlüyündə riskləri də artırır. Son Münxen konfransında da bu barədə fikir mübadiləsi olub. Belə bir vəziyyətdə Cənubi Qafqaz ölkələrinin yeridəcəyi xarici siyasət kursu maraq doğurur.**

Ermənistan siyasi və ekspert dairələrində yayılan informasiyalar bu ölkənin mövqeyi haqqında müəyyən fikir yürütməyə imkan yaradır. Təhlillər göstərir ki, Ermənistan rəhbərliyi hələ də qlobal və regional miqyasda baş verən prosesləri qeyri-adekvat dərk edir. Onlar reallığa əsaslanmayan mövqe tutmaqda davam edirlər. Bu, bir tərəfdən, regionda riskləri artırırsa, digər tərəfdən, Ermənistanın özünü daha pis vəziyyətə salır. Həmin kontekstdə oyuncaq dövlət və onun marionet idarəçilərinin atdığı addımlar üzərində geniş dayanmağa ehtiyac görürük.




### Geosiyasi trendlərin əksinə: erməni siyasilərin adekvat olmayan reaksiyaları

Ermənistanın yeni hökumətinin son geosiyasi proseslərə reaksiyası maraq doğururdu. Bu, iki cəhətdən diqqəti çəkir. Birincisi, Ermənistan rəhbərliyinin indiyə qədər yeritdiyi siyasətdəki səhvləri görə bilibbilməməsi, ikincisi, "məxməri inqilabçılar"ın qlobal siyasətin trendlərindən çıxardığı nəticələrlə əlaqəlidir. Hər iki məsələdə, açıq deyək ki, müsbət bir məqam görünmür. Erməni politoloqların təqdim etdikləri "təhlillərdən" görünür ki, rəsmi İrəvanın baş verən geosiyasi prosesləri adekvat qavramaq imkanı minimumdur və əlbəttə ki, əgər belə bir potensial varsa.

Erməni mövqeyindən çıxış edən ekspertlərin də cızma-qaraları bu qənaəti dəyişməyə yetərli deyil. Onların əksəriyyəti əvvəllər olduğu kimi, şüuraltı Ermənistanın maraqlarını tanımayaraq, Rusiyanın istəklərindən çıxış edirlər. Bu əsasda irəli sürülən hər bir tezis isə reallıqdan uzaq mənzərə yaradır.

İndi rəsmi İrəvan və ona yaxın media qurumları Ermənistanın xarici siyasətinin müxtəlif istiqamətlərdə daha fəal mövqeyə çıxmasından dəm vururlar. Bunu məsələn, rusiyalı ekspert S.Tarasov və bir sıra erməni ekspertlərin son məqalələrində də görmək olar. Özü də guya Ermənistan bu kursla üstün mövqeyə çıxmaqdadır ki, nəticə etibarilə artıq Azərbaycan rəhbərliyi ilə deyil, Qərbin böyük dövlətlərinin yüksək vəzifəli siyasətçiləri ilə danışıqlar aparır. Burası lap gülməlidir. Lakin erməni siyasi-diplomatik şüurunun köləlik xüsusiyyətinə tam uyğundur.

Ermənistan necə süni yaradılıbsa, onun siyasəti də süni faktorlara dayanır. Əsl müstəqil dövlətin liderləri dolayısı ilə deyil, birbaşa ünsiyyətə üstünlük verirlər. Ermənistan Azərbaycanın torpaqlarını işğal edibsə (havadarlarının ciddi hərbi yardımı və siyasi-diplomatik dəstəyi ilə), yaranmış münaqişənin taleyini Azərbaycansız necə həll edə bilər? ABŞ, Fransa, Almaniya və Rusiya deyil, bütün dünya belə gəlsə, Azərbaycanın razı olmadığı bir məsələni həll edə bilməzlər. Bunu İrəvanda donuq başları ilə hələ anlamayıblarsa, biz yeni erməni siyasi natamamlıq kompleksi ilə üz-üzəyik.

Əslində, burada qeyri-adi bir şey yoxdur. Ermənistanın hazırkı rəhbərliyi siyasi qabiliyyətinə görə əvvəlkilərdən zərrə qədər də irəlidə deyil. İndi N.Paşinyan ağasını dəyişməyə və bu referansı xarici siyasətin müstəqilləşdirilməsi kimi təqdim etməyə çalışır. Onun "məxməri inqilab", "erməni inqilabi dəyişikliyi", "sivil dünyayla bütünləşmək" kimi məzmunsuz pafoslu siyasi ibarəbazlığı əsl niyyəti gizlətmək üçündür. Guya Ermənistan küçə hərəkatı ilə siyasi, mənəvi, ideoloji, diplomatik və mədəni simasını qəfil dəyişib. Son illərə kimi Rusiyanın vassalı olan kütlə birdən demokratiyanın və sivilizasiyanın aparıcı mövqeyinə çıxıb.

Deməli, ekspert dairələrində də dəridən-qabıqdan çıxaraq Paşinyan hakimiyyətini tərif etmələri reallıqda Ermənistanın yeni vassal olmaq xəttini təbliğ etməkdən başqa bir şey deyildir. İndi onun Avropa, Rusiya, İran və Gürcüstan istiqamətlərində "möhtəşəm siyasi addımları"nı nə qədər təbliğ etsələr də, ortada real heç nə yoxdur. Maraqlıdır ki, erməni siyasi və ekspert dairələrində hələlik Rusiya məsələsində fikir ayrılığı mövcud olaraq qalır. Xüsusilə son günlər Rusiyada yaşayan bəzi erməni soyadlı ekspertlər rəsmi İrəvanı ittiham edirlər. Onlardan biri M.Simonyan isə hətta İrəvanı "məxməri inqilab"ı Rusiyaya ixrac etməkdə günahlandırıb. İrəvanda keçirilən bir seminarı təhlil edərkən erməni ekspert bu fikri irəli sürüb.

### Absurd iddia: ziddiyyətli məqamların məngənəsində sıxılanların röyası

Sağlam düşüncə üçün bu, absurd iddiadır. Çünki Ermənistanda heç bir "məxməri inqilab" baş verməyib, söhbət ABŞ-ın ssenarisi üzrə hakimiyyətin qəsb edilməsindən gedir. Rusiya isə dünya miqyasında Amerika ilə rəqabət aparan böyük dövlətdir. Ermənistandan potensial təsir Moskva üçün milçək vızıltısıdır. Ancaq erməni xisləti özünü süni böyütməkdən çox qidalanır. Bu səbəbdən də hansısa inqilab ixracından dəm vururlar.

Digər tərəfdən, Ermənistan mediasında informasiyalar yayılır ki, Rusiyadakı erməni diasporu daha da fəallaşıb və keçmiş baş nazir K.Karapetyan artıq İrəvanda gizli görüşlər keçirir. Bunun fonunda ermənilər üçün böyük ümidlə yaradılmış "Lazarev klubu"nun da Ermənistan əleyhinə fikirlər səsləndirməyə başladığını yazırlar. Yəni kütləvi informasiya vasitələrində belə bir fikir yayırlar ki, Şimaldan tərəfdən "soyuq küləklər" əsir. Bunun fonunda bir-birinə zidd olan iki fikir səsləndirilir.

Birincisi, rəsmi İrəvan Qərb istiqamətində daha fəal siyasət yeridir. Nümunə kimi təhlükəsizlik məsələlərinə dair Münxendə keçirilən konfrans çərçivəsində Ermənistan prezidenti Armen Sarkisyanın ABŞ-ın keçmiş vitse-prezidenti Co Baydenlə görüşünün "səmimiliyi"ni göstərirlər. Qərb mediasında isə C.Bayden "qüdrətsiz və qoca fiqur" kimi təqdim edilir. Onun Amerika siyasətinə real təsiri sıfır hesab edilir. Bu yaşda bir insanın prezident ola biləcəyi imkanı minimumdur. Həmin səbəbdən gizli və ya açıq formada Ermənistan prezidentinin C.Baydenlə görüşünün real siyasi nəticəsi ola bilməz.

İkincisi, Ermənistan mətbuatında informasiyalar yayılır ki, Gürcüstan istiqamətində uğurlu əməkdaşlıq imkanları yaranır. O cümlədən hərbi sahədə əməkdaşlıqla bağlı saziş imzalanıb. Rusiya tərəfdən isə, Abxaziya və Cənubi Osetiyadan keçməklə yeni buraxılış məntəqələri açılacaq ki, bu da Ermənistana quru yolla yük daşınmasına yeni təkan verəcək. Yəni Gürcüstan həm Qərb, həm də Rusiya istiqamətlərində Ermənistan üçün dəhliz rolunu oynayacaq. Sual olunur: hansı səbəblərdən Gürcüstan işğal altındakı ərazilərindən keçməklə (Tbilisi Abxaziya və Cənubi Osetiyanı işğal olunmuş əraziləri kimi təqdim edir) ermənilərə yol açsın? Yəni gürcü liderlər bu dərəcədə düşüncəsizdirlər ki, öz maraqlarına deyil, ermənilərin maraqlarına xidmət etsinlər? İnandırıcı deyil. Və bu, erməni siyasi dairələrinin boş xəyallarının məhsulu kimi görünür.

Bu aspektdə üzdəniraq erməni ekspertlərin növbəti absurd iddiası İranla bağlı özünü göstərir. Guya Vaşinqton Ermənistanın İranla yaxın əməkdaşlığına göz yumacaq. Hətta fevralın 27-də N.Paşinyanın Tehrana nəzərdə tutulmuş səfərini də bu tezisin prizmasından qiymətləndirməyə çalışırlar. Əslində isə artıq Vaşinqton özünün Ermənistandakı səfirliyi vasitəsilə İrəvana bir neçə dəfə xəbərdarlıq edib. Onların bir qismi N.Paşinyanın Rusiya ilə əlaqələri genişləndirmək planları ilə bağlıdırsa, digər tərəfi İran məsələsi ilə əlaqəlidir. Yəni aydındır ki, rəsmi İrəvan İran istiqamətində də "ilişib". Onun iki ziddiyyəti uzlaşdırmaq üçün nə siyasi, nə diplomatik, nə hərbi, nə də dövləti gücü var. Deməli, arada qalıb, döyülənlərdən olacaq.

Bütün bunların fonunda təbii ki, Azərbaycanla bağlı iftiralar uydurulur. Erməni ekspertlər İrəvanın xarici siyasətdəki "fəallığı"nın artıq Azərbaycan üçün "problemlər" yaratdığından dəm vururlar. Reallıqda isə rəsmi Bakı növbəti müstəqil və əhəmiyyətli addımlarını atır. Məsələn, Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ettinger deyib ki, Avropa İttifaqı 2020-ci ildə "Cənub Qaz Dəhlizi" vasitəsilə Azərbaycan qazını almağı səbirsizliklə gözləyir (bax: Evropa s neterpeniem jdet načala postavok azerbaydjanskoqo qaza v 2020 qodu - Gttinqer / "Interfax-Azerbaijan", 20 fevral 2019). Sözlərinə davam edərək o, Aİ-nin "bu təchizatın başlaması üçün hər şeyi" edəcəyini vurğulayıb. Çünki "Cənub Qaz Dəhlizi" "Aİ üçün strateji layihədir, belə ki, o, Avropaya qaz ixracının yeni qaynağı və marşrutudur" (bax: əvvəlki mənbəyə). Avropa rəsmisi onu da ifadə edib ki, Türkmənistana bu layihəyə qoşulmaq təklifini artıq ediblər. Macarıstan isə özü layihədə iştirak təşəbbüsü göstərib.

Biz ancaq bir layihə ilə bağlı konkret faktları göstərdik. Bu faktlar Azərbaycanın xarici siyasətinin səmərəliliyini və müstəqilliyini birmənalı təsdiq edir. Yəni Azərbaycan rəhbərliyi faktlarla danışır. Avropa rəsmiləri də Azərbaycanın dünya üçün strateji əhəmiyyətini konkret faktlarla izah edirlər. Eyni mənzərə Ermənistanla da bağlı mövcuddurmu? Qətiyyən mövcud deyil. Boş vədlər və sözlərdən başqa ortada bir şey yoxdur. Fakt varsa, göstərsinlər! Ümumiyyətlə, "fakt" dedikdə, erməni siyasətçilərini ağlamaq tutur!

**Newtimes.az**



# Avropa İttifaqı Azərbaycanla əməkdaşlıqdan məmnundur

**Bu gün sivilizasiyalar arasında təbii coğrafi və mədəni körpü rolunu oynayan, nəhəng enerji, nəqliyyat-kommunikasiya layihələrinin müəllifi və ən böyük maliyyə dəstəkçisi olan, regionda investisiyalar üçün ən cəlbedici məkan kimi tanınan Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında siyasi, iqtisadi, eləcə də enerji, ticarət, investisiyalar və digər sahələr üzrə əlaqələr gündən-günə inkişaf edir.**

Prezident İlham Əliyevin 2017-ci ilin fevral ayında Brüsselə səfəri bütün sahələr üzrə ikitərəfli əməkdaşlıqda keyfiyyətcə yeni mərhələ oldu. Kənd təsərrüfatı və qida, nəqliyyat və logistika, İKT və elektron ticarət, iqtisadi islahatlar, ətraf mühitin mühafizəsi üzrə əməkdaşlığı daha irəliyə aparmaq üçün müxtəlif mexanizmlərdən istifadə olunur.

Avropa İttifaqı ilə Azərbaycanın əlaqələrində son illərdə çox mühüm nailiyyətlər əldə olunub. Respublikamızla Aİ arasında tərəfdaşlığın əsas istiqamətlərindən biri enerji təhlükəsizliyidir. Hazırda enerji təhlükəsizliyi məsələsi Azərbaycan-Aİ əməkdaşlığının mühüm tərkib hissəsinə çevrilib. Birmənalı şəkildə demək olar ki, Qərbin Azərbaycanı özünün enerji təhlükəsizliyinin əsas təminatçılarından biri kimi qəbul etməsi Azərbaycan-Aİ əlaqələrini strateji səviyyəyə yüksəldib.

Bu həftə Azərbaycan diplomatiyasının gündəmi Avropa İttifaqı ilə münasibətlər baxımından zəngin oldu. Həm Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin V toplantısının dövlət başçısının iştirakı ilə Bakıda keçirilməsi, həm Avropa Komissiyasının büdcə məsələləri və insan resursları üzrə komissarı Günter Ottingerin, Avropa Komissiyasının Mobillik və Nəqliyyat üzrə Baş Direktorluğunun rəhbəri Henrik Hololeyin, Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudakın Azərbaycana səfərləri, onların ölkəmizin başçısı tərəfindən qəbul edilməsi, həm də yeni saziş layihəsinin müzakirəsinin növbəti mərhələsinin Bakıda baş tutması bunun əyani təsdiqidir.

Hazırda Azərbaycanla Aİ arasında enerji, təhlükəsizlik və nəqliyyat məsələləri üzrə məsləhətləşmə mexanizmlərinin fəaliyyət göstərməsi Aİ-nin ölkəmizin regiondakı aparıcı mövqeyinə verdiyi əhəmiyyətin bariz nümunəsidir. Aİ ilə Azərbaycan arasında nəqliyyat məsələləri üzrə məsləhətləşmə mexanizminin yaradılması yeni təşəbbüsdür. Aİ tərəfindən ölkəmizin nəqliyyat strategiyası və regionun nəqliyyat qovşağı olmasına yüksək qiymətləndirilir və bu sahədə Azərbaycanla əməkdaşlığa ciddi maraq göstərilir.

2019-cu il fevralın 19-da Avropa Komissiyasının Mobillik və Nəqliyyat üzrə (MOVE) Baş Direktorluğunun rəhbəri Henrik Hololeyin başçılıq etdiyi Aİ nümayəndə heyəti ölkəmizə səfər edərək 1-ci Azərbaycan-Avropa İttifaqı yüksək səviyyəli nəqliyyat dialoqu çərçivəsində ölkəmizin başçısı İlham Əliyev tərəfindən qəbul edilib. Dialoq çərçivəsində Aİ nümayəndə heyətinin, həmçinin Xarici İşlər, İqtisadiyyat, Nəqliyyat, Rabitə və Yüksək texnologiyalar nazirləri, habelə AZAL rəhbərliyi ilə və digər müvafiq qurumlarda keçirdiyi görüşlərdə Azərbaycanın əlverişli nəqliyyat qovşağı və logistika mərkəzinə çevrildiyini vurğulaması, ölkəmizin Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb dəhlizlərində tutduğu mühüm yeri xüsusilə diqqətə çəkməsi bunun əyani təsdiqidir.

Bu kontekstdə Avropa İttifaqının Şərq-Qərb dəhlizinin vacib infrastruktur komponenti olan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə dəstəyi, hazırda fəaliyyətdə olan bu yolun Asiya və Avropa İttifaqı ölkələrini birləşdirən nəqliyyat şəbəkələrində özünəməxsus rol oynaması, səmərəlilik, vaxt və sürət baxımından açıq-aşkar üstünlüklərə malik olmasına xüsusi diqqət yetirilib. Eləcə də Azərbaycanın Trans-Avropa Nəqliyyat Şəbəkəsinə qoşulmasının və Avropa İttifaqı ilə tərəfdaşlığa dair yeni saziş layihəsinə nəqliyyat məsələlərinə ayrıca yer ayrılmasının bu sahədə qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar vəd etdiyi bildirilib. Təbii ki, bütün bunların Azərbaycan-Avropa İttifaqı Tərəfdaşlıq prioritetləri sənədində də yer alması xatırladılıb və həmin istiqamət üzrə ümidverici perspektivlərin olması bəyan edilib.

Aİ ilə Azərbaycan arasında əlaqələrin daha da dərinləşdirilməsinin hər iki tərəfin maraqlarına cavab verməsi bu təşkilatın rəsmiləri tərəfindən dəfələrlə bəyan edilib. Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottinger Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısındakı çıxışında bildirib ki, Avropa İttifaqı Azərbaycanın böyük enerji təcrübəsindən çox faydalana bilər: "Mən əminəm ki, biz hər iki tərəfi qalibə çevirən zəruri kompromisləri tapa biləcəyik və güclü tərəfdaşlar arasında bu, belə də olmalıdır. Biz öz tərəfdaşımız və qonşu ölkələrimiz üçün enerji daşıyıcıları üzrə etibarlı enerji tərəfdaşı olmağa hazırıq. Bu tərəfdaşlığa görə sizə təşəkkür edirik. Burada çox etibarlı komandamız var. Gəlin, birlikdə işləməyə davam edək".

Avropa İttifaqı Azərbaycan ilə bərabərhüquqlu tərəfdaş müstəvisində əməkdaşlıq etdiyini qəbul edir. Halbuki Ermənistanla imzalanan saziş Aİ tərəfindən birtərəfli qaydada hazırlanaraq təqdim edilmiş, və Ermənistan o şərtləri mütləq şəkildə qəbul etmişdir.

Göründüyü kimi, Aİ Azərbaycanın strateji əhəmiyyətini anlayır, onunla əməkdaşlıqdan məmnundur və bu əməkdaşlığın davam etməsini arzulayır. Aİ ilə Azərbaycan arasında əlaqələrin daha da dərinləşdirilməsi isə hər iki tərəfin maraqlarına cavab verir. Odur ki, Aİ nümayəndə heyətinin ölkəmizə rəsmi səfərinin bu əlaqələrin inkişafına yeni töhfələr verəcəyi şübhəsizdir. Bütün bunlar isə Azərbaycan Prezidentinin həyata keçirdiyi güclü, qətiyyətli milli maraqlar üzərində qurulmuş xarici siyasətin nəticəsində mümkün olmuşdur.

**Zahid Rza,**
***"İki sahil"***

# Dağıdıcıların mitinqinə ona görə icazə verilmədi ki...

## DAĞIDICI MÜXALİFƏTİN DİNC MİTİNQLƏR KEÇİRMƏK MƏDƏNİYYƏTİ SIFIRA BƏRABƏRDİR



**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) dağıdıcı müxalifətin birləşdiyi qondarma "Milli Şura"nın fevralın 23-nə təyin etdiyi mitinqə icazə verməyib. İcazənin verilməməsinin səbəbi quruma hüquqi faktlarla izah edilib. Məktubda bildirilib ki, yanvarın 19-da müxalifətin keçirdiyi mitinqdə ictimai asayiş ciddi şəkildə pozulub.**

Xüsusilə də mitinq iştirakçılarının nəqliyyatın hərəkətinə maneçilik törətməsi, asayiş keşikçilərinə qarşı sərt davranışı və onların qanuni tələblərinə müqavimət göstərilməsi faktlarının araşdırılması hələ də davam edir.

BŞİH-in dağıdıcı müxalifətin mitinq tələbinə verdiyi cavab məktubunda vurğulanır ki, mitinqin təşkilatçıları belə halların təkrarlanmayacağı barədə üzərilərinə heç bir məsuliyyət götürmürlər. Eyni zamanda, ümumi müşahidə göstərir ki, onlar bunda nəinki maraqlı deyillər, hətta bir çox qanun pozuntularının təşkilatçısı kimi çıxış edirlər. Təbii ki, bu kimi hallarda BŞİH hər hansı kütləvi tədbirin keçirilməsini məqsədəuyğun hesab etmir və hüquq mühafizə orqanlarının araşdırmasının başa çatmasını gözləməyi məqsədəuyğun hesab edir.

Qondarma "Milli Şura"nın tərəfdarları isə ənənəvi qarayaxma və böhtan kampaniyasına sadiq qalaraq BŞİH-in mitinqə icazə verməməsinin əsl səbəbini saxtalaşdırmağa və ictimaiyyətə yalan, qərəzli məlumatlar verməyə çalışırlar. Dağıdıcı müxalifət hesab edir ki, aksiyaya icazə verilməməsi söz azadlığına və sərbəst toplaşmaq azadlığına zərbədir.

Təbii ki, dağıdıcı düşərgənin söz və sərbəst toplaşmaq hüququnun pozulması barədə dedikləri tamamilə qərəzlidir və əsası olmayan iddialardır. Ona görə ki, bu gün Azərbaycan nəinki bölgədə, hətta MDB məkanında çap və onlayn medianın daha çox azad olduğu ölkələrdən biridir. Burada hər kəs fikirlərini sərbəst şəkildə internetdə, sosial şəbəkələrdə bildirə bilir və həmin vətəndaşlara qarşı hər hansı təzyiq edilmir.

Həmçinin sərbəst toplaşmaq azadlığı haqqında qanundan yararlanan müxalifət son bir neçə ayda iki mitinq keçirib. Belə ki, Qarabağ Komitəsi adlı qurum 2018-ci ilin sentyabrın 29-da və qondarma "Milli Şura" isə 2019-cu ilin yanvarın 19-da paytaxtın mərkəzindəki "Məhsul" stadionunda icazəli mitinqlər keçiriblər. Çox önəmli məqam isə odur ki, Azərbaycan dövləti hər iki mitinqin təhlükəsiz və dinc keçirilməsi üçün bütün lazımi dəstəyini göstərib.

Düzdür, dağıdıcı müxalifətin mitinqlərinə qatılanların sayının az olması hələ onların ciddi problemi olaraq qalmaqdadır. Bu mitinqlərə ona görə az adam gəlir ki, ölkə vətəndaşları müxalif liderlərinin ənənəvi populist çıxışlarına inanmırlar. Məhz xalqdan dəstək görmədikləri üçün də mövcud hakimiyyətə və onun rəhbərinə qarşı böhtan, iftira təbliğatını davam etdirirlər.

Ancaq onların əksinə olaraq xalq iqtidara, xüsusilə də Prezident İlham Əliyevə böyük etimad göstərir, onun çağırışına səs verir, siyasi kursunu dəstəkləyir. Məhz cəmiyyətin dağıdıcı müxalifətlə cənab İlham Əliyevin hakimiyyətinə belə fərqli münasibət sərgiləməsinin əsas səbəbkarı müxalifətin qaragüruhçuluğu və siyasi korluğudur. Onlar hələ də ölkəmizdə gedən abadlıq-quruculuq işlərini, əhalinin sosial rifahının yüksəlişini, ölkəmizin geosiyasi mövqelərinin möhkəmlənməsini görməzlikdən gəlirlərsə, demək düzgün yolda deyillər və bundan sonra da sosial bazaları davamlı olaraq azalacaqdır.

Xüsusilə dağıdıcı müxalifətin kənardakı antimilli qüvvələrin əlində bir vasitəyə çevrilməsi ilə bağlı faktlar var və müdrik xalqımız da bu rəzilliyi görməklə ənənəvi müxalifətə inamını itirir.

Bu gün cəmiyyətimizə xalqın problemləri üzərində öz ambisiyalarını həyata keçirən dağıdıcı müxalifət deyil, milli maraqlara və dəyərlərə sadiq qalan, onu müdafiə edən sağlam qüvvə lazımdır. Məhz bu səbəbdəndir ki, dağıdıcı müxalifət partiyaları bu gün sosial baza sarıdan əziyyət çəkməklə ofis partiyalarına çevriliblər.

**Elçin Zaman,**
***"İki sahil"***

## SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

# Kompleks Qazma İşləri Tresti

**Vakuum nasoslarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26018-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.03.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 29.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti

**Əlaqələndirici şəxs:**
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 29.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

# Ermənistanın regiondakı biabırçı fiaskosu



**Azərbaycan öz milli maraqlarına uyğun olaraq region dövlətləri İran və Rusiya ilə münasibətləri gündən-günə inkişaf etdirir.**

Bu günlərdə İran İslam Respublikasının rəsmi dövlət informasiya agentliyi olan İRNA-da iki ölkə arasında müxtəlif sferalar üzrə əlaqələrin inkişafından söz açan "İran -Azərbaycan: Yaxın qonşular və regional müttəfiqlər" sərlövhəli maraqlı məqalə işıq üzü görüb. Məqalədə vurğulanıb ki, Azərbaycan ortaq mədəniyyət, din, məzhəb və dil baxımından İrana ən yaxın ölkələrdəndir: "Azərbaycanın 1991-ci ildə müstəqillik əldə etməsindən sonrakı qısa dövr istisna olmaqla, Tehranla Bakı arasında yaxın və genişlənməkdə olan münasibətlər qurulub. İranla qonşu olan Azərbaycan Tehranın xarici siyasətində xüsusi əhəmiyyətə malikdir. Azərbaycanla əlaqələrin genişləndirilməsi bu ölkənin müstəqillik qazandığı andan, Tehranın xarici siyasətinin prioritetlərindən sayılıb. Xüsusilə son illərdə ölkə prezidentlərinin, eləcə də digər yüksək vəzifəli şəxslərin qarşılıqlı səfərləri əlaqələrin bütün sahələrdə inkişafına əhəmiyyətli dinamika bəxş edib. Azərbaycan İranla ikitərəfli əlaqələri inkişaf etdirməklə yanaşı, beynəlxalq səviyyədə də bizə dəstəkdir. O, Qərbin ədalətsiz sanksiyaları qarşısında hər zaman Tehrana dəstək olub". Məqalədə, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq səviyyələrdəki çıxışlarında İranın dinc məqsədli nüvə enerjisi əldə etmək hüququnun olduğunu dəfələrlə bəyan etməsi, rəsmi Bakının Azərbaycan ərazisindən İrana qarşı istifadə olunmasına heç zaman imkan verməyəcəyi diqqətə çatdırılıb. Yazıda İslam İnqilabının qələbəsinin 40-cı ildönümü münasibətilə İranın Azərbaycanla siyasi, iqtisadi, parlament və mədəniyyət sahələrində uğurlu əlaqələrinə geniş nəzər salınıb.

Bu günlərdə İranın "Shabestan" informasiya agentliyində də iki qonşu ölkənin birgə fəaliyyəti ilə bağlı "İranla Azərbaycan Xəzər dənizindəki neft yataqlarının işlənməsində əməkdaşlıq edir" mövzusunda yazı dərc olunub. Xatırladaq ki, iki ölkə arasındakı əməkdaşlığın ən yüksək səviyyədə dəstəklənməsinin ifadəsi İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Məhəmməd Baqeri bu ilin yanvar ayında Azərbaycana səfəri zamanı mətbuata açıqlamasında öz əksini tapıb: "İran Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib və Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll olunmasını arzulayır. İran, eləcə də Azərbaycanın işğal olunmuş ərazilərinin qaytarılması, məcburi köçkünlərin və qaçqınların problemlərinin həll olunması, onların doğma yurdyuvalarına qayıtması məsələsinin həll olunmasını istəyir".

Azərbaycan - İran əməkdaşlığının yüksələn dinamika üzrə inkişafı fonunda Ermənistan-İran münasibətlərinin artıq əvvəlki kimi isti olmadığını, ciddi şəkildə korlandığını sezmək mümkündür. Ermənistanda rəngli inqilabın İran üçün yaratdığı təhlükə, Ermənistandakı ABŞ səfirliyinin fəaliyyəti (xatırladaq ki, bu, regionda ən böyük səfirlikdir və əsas hədəfi İrana qarşı kəşfiyyat işinin aparılmasıdır), İran vətəndaşlarının Ermənistanda bank hesablarının dondurulması iki ölkə arasındakı əlaqələri ciddi şəkildə zərbə altında qoyub.

Ermənistanın baş naziri Nikol Paşinyanın 27 fevral 2019-cu il tarixdə İrana baş tutacaq səfəri ərəfəsində işğalçı ölkənin mətbuatında İran-Ermənistan əlaqələrini zədələyəcək xəbərlərin dərc olunması da bu gərginliyi artıran amillərdəndir.

Ermənistanın regiondakı siyasi fiaskosu bununla yekunlaşmır. Uzun müddətdir ki, Ermənistanın "böyük qardaş" dediyi Rusiya ilə də münasibətlərində dərin uçurum yaranıb. Ermənistanın yeni hakimiyyətinin həm Rusiyanın, həm də ABŞ-ın maraqlarına cavab verən siyasi xətt yürütməyə çalışması və buna müvəffəq olmaması işğalçı ölkənin xarici siyasətinin tamamilə uğursuzluğa məhkum olduğundan xəbər verir.

Məlumdur ki, ABŞ-dakı erməni lobbisi ənənəvi olaraq Rusiyaya qarşı təbliğat aparır. Rusiyaya qarşı sanksiyaların müəllifi və qatı anti-Rusiya siyasəti həyata keçirən konqresmen Robert Menendezin Münxen Təhlükəsizlik Konfransında Ermənistanın xarici işlər naziri ilə görüşü də boşa deyildi. Ümumiyyətlə, Robert Menendes erməni lobbisinin təsiri altında olan şəxsdir. Onun korrupsiya əməlləri barədə ABŞ mediasında çoxsaylı materiallar işıq üzü görüb. Ermənistanda Soros Fondu da son dönəmlərdə daha geniş spektri əhatə edən fəaliyyəti ilə daha qabarıq gözə çarpmaqdadır.

Belə ki, "Russia Today" kanalı da bu yaxınlarda Ermənistanda "Rusiya təsirini cavablandırma"ğa yönəlmiş ABŞ tərəfindən maliyyələşdirilən inqilabçı gənclərin yetişdirilməsi üzrə mərkəzin fəaliyyətə başlamasına dair material yayıb. Bu cür reportajlar digər dövlət kanallarında da efirə gedib, eləcə də "Rossiə 1" ("Вести в субботу" и "Вести недели"; международная версия телеканала "Россия РТР") və dövlət kanallarında gedən siyasi tokşouların müzakirə mövzusuna çevrilib. Buna cavab olaraq Ermənistan hakim partiyasının parlamentdəki fraksiyasının rəhbəri bildirib ki, "Russia Today" kanalı rəsmi Kremlin mövqeyini əks etdirmir. Ancaq əlbəttə ki, bu açıqlama məlum həqiqətlərə kölgə salmağa qadir deyil.

Bütün bunlar bir daha təsdiqləyir ki, işğalçı dövlətin "eyni vaxtda iki stula oturmaq cəhdləri" boşa gedib, Ermənistan heç bir stula oturmağı bacarmayaraq sözün bütün mənalarında "yıxılıb".

Regionun lider dövlətlərindən biri olan Azərbaycanın son dövrlərdə tarixində olmadığı qədər uğurlu xarici siyasətinin fonunda isə Ermənistanın bütün sferalardakı rəzil çöküşü öz miskinliyi ilə daha da qabarıq nəzərə çarpır...

**Sevinc Abdullayeva,**
***"İki sahil"***

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
# iki sahil
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 37 (7292) / Şənbə, 23 fevral 2019-cu il

## Göz təzyiqinin səbəbləri və təhlükəsi



Göz təzyiqinin həyatınızı dayandıra biləcəyini bilirdinizmi? Simptomları gec müəyyən olunan bu xəstəlik gec müalicə olunduqda korluqla nəticələnə bilər.

Göz təzyiqi gözdaxili təzyiqin yüksəlməsi və görmə sinirini məhv etməsi deməkdir. Normal bir gözdə, gözdaxili maye davamlı əmələ gəlir və sonra balanslaşdırılmış şəkildə boşaldılır. Bu sayədə gözdaxili təzyiq normal səviyyədə qalır. Gözdaxili təzyiq artdıqda, gözün sinir və damarlarına da təzyiq artır. Göz siniri zamanla zəifləyir və korluq yaradır.

Göz təzyiqi hər yaşda görülə bilsə də, adətən 40 yaşdan yuxarı şəxslərdə görülür. Yaş ötdükcə göz təzyiqi riski də artır.

**Göz təzyiqinin səbəbi nədir?**

Göz təzyiqi adətən irəli yaşlarda görülsə də, bəzən erkən yaşlarda da ortaya çıxa bilər.

Göz təzyiqinə səbəb olan amillər:

*Genetik amillər

*Diabet

*Yaşlılıq

*Qan azlığı

*Miyopiya və ya hiperopiya

**Göz təzyiqinin normal səviyyəsi nə qədərdir?**

Normal təzyiq səviyyəsi 10-20 mmHg arasıdır. Göz təzyiqi səviyyəsi 20-dən yuxarı olduqda xəstəliyin simptomları ortaya çıxa bilər. İdeal göz təzyiqi səviyyəsi 17 mmHGg olmalıdır.

**Göz təzyiqinin bir müalicəsi varmı?**

Göz təzyiqinə erkən diaqnoz qoyulduqda dərmanlarla müalicəsi mümkündür. Göz içi sinirləri çox zərər görməmiş vəziyyətlərdə sinirləri qorumaq üçün damlalar tətbiq olunur. Damla həm göz təzyiqini, həm də gözdə əmələ gələn mayenin balansını qoruyur.

Damla, yəni dərman müalicəsinin yetərli olmadığı hallarda lazer müalicəsi tətbiq olunur. Lazer müalicəsi ilə göz təzyiqi normallaşdırılır və gözdəki artıq maye qurudulur.

Hər iki müalicənin müsbət nəticəsi olmadıqda cərrahiyyə üsullarından istifadə olunur. Gözdə artıq mayenin boşalması üçün yeni bir kanal açılır. Bu üsul göz sinirləri çox zədələnmiş insanlar üçün tətbiq olunur.

Göz təzyiqi olan şəxslər göz sağlamlıqlarını qorumaq və xəstəliyi müalicə etmək üçün qara çay, lobya, pomidor, yerkökü kimi qida məhsullarından istifadə edə bilərlər.

## “Whatsapp”da xəta




Məşhur mesajlaşma proqramlarından biri olan “Whatsapp”da kritik bir səhv müəyyən edilib. Yeni aşkar edilmiş səhv səbəbindən, biometrik təhlükəsizlik qəbulu zamanı autentifikasiya edilmədən birbaşa proqrama keçir. Reddit adlı istifadəçinin məlumatına görə, bu təhlükəsizliyi təmin edən “Face ID” və “Touch ID” dəstəkləyici proqramları çox vaxt işləmir.

“Whatsapp”ın biometrik təhlükəsizlik tənzimləməsində, “iOS Share” ekranında heç bir “Touch ID” yoxlaması tələb olunmur. Bundan əlavə, “iOS Share” ekranında ana səhifəyə qayıtsanız, proqramı yenidən açarkən təhlükəsizliyi təsdiqləmir.

Söhbəti gedən bu xətanın “Whatsapp”dan, yoxsa “iOS” əməliyyat sistemindən meydana gəlib gəlmədiyi bilinmir.

**Röya Rasimqızı**

## “Çelsi”yə növbəti zərbə



FİFA İngiltərə Premyer Liqa təmsilçisi ”Çelsi” klubunu cəzalandırıb.

Milli.Az qurumun saytına istinadən xəbər verir ki, London klubu 18 yaşdan aşağı futbolçuların transferlərində qanunsuzluğa yol verdiyi üçün transfer cəzasına məruz qalıb. Ali futbol qurumu ”Çelsi”yə növbəti iki transfer dönəmində futbolçu transfer etməmək qadağası qoyub.

Bundan əlavə, ”mavilər” 970 min avro cərimə də edilib.

Qeyd edək ki, hazırda çətin günlərini yaşayan ”Çelsi” İngiltərə Premyer Liqasında 50 xalla 6-cı pillədə qərarlaşıb.

## 150 milyon dollarlıq kolleksiya satılır



Onilliklər ərzində qapalı və gizli saxlanan impressionizm şedevrləri hərraca çıxarılıb.

Milli.Az bildirir ki, kolleksiyada impressionizmlə yanaşı, postimpressionizmin də dühalarının əsərləri var.

Klod Mone, Vinsent van Qoq, Pyer-Oqüst Renuar, Rene Maqritt, Pol Sezann, Pyer Bonnar, Anri Matiss və Edqar Deqanın 23 şedevrindən ibarət kolleksiyaın satışı fevralın 27-də, Londondakı “Christie's” hərracında olacaq.

Kolleksiyanın ilkin dəyəri 150 milyon dollardır.

## Neptun planetinin yeni Ayı kəşf edildi




“Hubble” teleskopu ilə əldə edilən fotolarda maraqlı məqamlar üzə çıxıb.

Milli.Az bildirir ki, planetoloqlar Neptun planetinin başqa bir Ayını kəşf ediblər. Bu peykin mövcudluğunun izlərini alimlər 5 il əvvəl tapmışdılar. Yeni peykin yaranma mexanizmi və təsviri haqqında geniş məqalə ”Nature” jurnalında dərc edilib.

ABŞ-ın SETİ institutunun alimi Mark Şoalter deyib:

”Bizim müşahidələrimiz göstərir ki, Hippokamp uzaq keçmişdə Proteydən ayrılıb. Bu, növbəti dəfə sübut edir ki, Neptunun daxili ayları keçmiş dövrdə dəfələrlə toqquşduqdan sonra indiki formaya düşüblər”.

Neptun Günəş planetinin sonuncu ”əsl” planetidir. 1846-cı ildə alman astronom Yohan Qalle tərəfindən kəşf edilib.

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın “Azneft” İB-nin rəhbərliyi SOCAR-ın “Qaz İxrac” İdarəsinin Əməyin mühafizəsi üzrə rəis müavini Sarxan Babaşova, atası
**Mıxayəddin Babaşovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

SOCAR-ın “Azneft” İB-nin N.Nərimanov adına NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə, bacısı
**Pakizə Paşayevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın “Azneft” İB-nin N.Nərimanov adına NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İstehsalata xidmət bazasının rəisi Salam Dəmirova, anası
**Nüqbar xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın “Azneft” İB-nin Ə.C.Əmirov adına NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə, bacısı
**Pakizə Paşayevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Ekologiya İdarəsinin Gigiyena və Epidemiologiya Mərkəzinin müdiri Bəhlul İsmayılov və əmək kollektivi “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə, bacısı
**Pakizə Paşayevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“İki sahil” qəzeti redaksiyasının kollektivi veteran jurnalist Məzahir Süleymanzadəyə, həyat yoldaşı
**Gülnarə Süleymanzadənin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

SOCAR-ın “Azneft” İB-nin Dalma Qurğularının Təmiri və Kirayəsi üzrə Eksperimental İstehsalat Müəssisəsinin direktoru Nazim Qafarov və əmək kollektivi “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə, bacısı
**Pakizə Paşayevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“BOS Şelf” MMC-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə, bacısı
**Pakizə Paşayevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

TƏSİSÇİ:
SOCAR

Baş redaktor:
**Vüqar RƏHİMZADƏ**
Baş redaktorun I müavini:
**İsmayıl HACIYEV**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* **ikisahil@azdata.net**

**Ünvan:**
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzetdə *“AZƏRTAC”, “OLAYLAR”, “Azadİnform”, “TREND”, SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet “İKİ SAHİL”in kompyuter mərkəzində yığılır və “AZƏRBAYCAN” nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb:
23.02.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8327**
*İndeks:* **0151**, *Sifariş:* **623**